# 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 11 (10031) 20 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Dərin ehtiramla

**Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.**

**Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.**





# Prezident İlham Əliyev İsveçrədə səfərdədir

## Sürix şəhərinin beynəlxalq hava limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün yanvarın 19-da İsveçrə Konfederasiyasına səfərə gedib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Sürix şəhərinin beynəlxalq hava limanında rəsmi şəxslər qarşıladılar.

2

# Prezident İlham Əliyev 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qaliblərinin adlarını açıqlayıb.**



AZƏRTAC xəbər verir ki, mükafata layiq görülənlər arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də var.

Bu barədə Şeyx Zayed Fondunun rəsmi internet səhifəsində məlumat verilib. Məlumatda qeyd edilir ki, bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

2026-cı ilin mükafatçıları dialoq və birgəyaşayış sahəsində tanınmış şəxslər və mütəxəssislərdən ibarət müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən seçilib.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər komitəsinin üzvü və Mükafatın baş katibi Məhəmməd Əbdülsəlam deyib: "Bu il "Zayed İnsan Qardaşlığı Mükafatı" komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçib. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir. Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur".

Mükafatlar bu il fevral ayının 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq.




## Prezident İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar paylaşım edib

## Birinci vitse-prezident Mehriban Əliyeva 20 Yanvar faciəsinin ildönümü ilə bağlı paylaşım edib



# İlham Əliyevin sülh modeli

## Qlobal səviyyədə dəyərləndirilir və təqdir olunur

Prezident İlham Əliyevin "İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın son illərdə yürütdüyü aktiv sülh diplomatiyasının və regionda yaratdığı yeni reallıqların beynəlxalq səviyyədə ali təsdiqidir. Bu təkcə bir təltif deyil, Azərbaycan dövlətinin sülh modelinin dünya tərəfindən qəbul edilməsidir. Dəyərli mükafat isə bu ədalətli sülhün qlobal möhürüdür.



7

# Prezident İlham Əliyev İsveçrədə səfərdədir

## Prezident İlham Əliyev Davosda Braziliyanın "BTG Pactual" şirkətinin sədri ilə görüşüb

**Yanvarın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanın makroiqtisadi sabitliyinə və fiskal intizamına, həmçinin uzunmüddətli inkişaf strategiyasına toxunaraq, bu istiqamətdə həyata keçirilən siyasətin ölkəmizin beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş kimi mövqeyinin daha da möhkəmlənməsinə müsbət təsir göstərdiyini dedi.

Dövlətimizin başçısı vurğuladı ki, dünyanın beynəlxalq reytinq agentlikləri ölkəmizin kredit reytinqini daha da artıraraq, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırıb.

Rəhbərlik etdiyi şirkətin qlobal fəaliyyət coğrafiyası və institusional investorlarla iş təcrübəsi barədə danışan Andre Esteves "BTG Pactual"ın müxtəlif regionlarda tətbiq etdiyi investisiya yanaşmaları barədə məlumat verdi.

Qeyd olundu ki, Azərbaycan Respublikası Dövlət Neft



Fondu ilə bu şirkət arasında son dövrlərdə mümkün əməkdaşlıq istiqamətləri və strateji prioritetlər ətrafında ilkin müzakirələr aparılır, qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoq davam etdirilir.

Söhbət zamanı qlobal iqtisadi proseslər, beynəlxalq maliyyə bazarlarında mövcud vəziyyət və institusional investorların müxtəlif regionlara yanaşması, həmçinin inkişaf etməkdə olan bazarlarda investisiya mühiti, uzunmüddətli investisiya yanaşmaları və qarşılıqlı investisiya layihələri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, 1983-cü ildə təsis edilmiş "BTG Pactual" təxminən yarım trilyon ABŞ dollarından çox aktivləri idarə edir.

## Prezident İlham Əliyev Davosda "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı bu şirkətin ölkəmizdə bərpaolunan enerji, xüsusilə külək enerjisi sahəsində fəaliyyətinə toxunuldu, mövcud əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Azərbaycanın xarici investorlar üçün cəlbedici məkan olduğu vurğulandı, ölkəmizdə əlverişli investisiya və biznes mühitinin mövcudluğu məmnunluqla qeyd edildi.

Görüşdə Azərbaycan ilə "Vestas Wind Systems" şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Davosda Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru ilə görüşü olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 19-da Davosda Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Tedros Adhanom Qebreyesusun əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, ölkəmizin təşkilatın dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi layihələrə dəstəyi qeyd edildi. Bu xüsusda COVID-19 pandemiyası zamanı Azərbaycanın bir sıra ölkələrə könüllü maliyyə yardımı göstərməsi xüsusi olaraq vurğulandı.

Görüşdə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



## Prezident İlham Əliyev Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı tam yerli xammal əsaslı məhsulun buraxılması istiqamətində artıq bir sıra layihələrin həyata keçirildiyi qeyd edildi.

Bu xüsusda İmişlidə pivə istehsalında əsas xammal hesab olunan arpanın emalı müəssisəsinin fəaliyyətinə toxunuldu. Gələcəkdə isə qablaşdırma materiallarının istehsalının da tam lokallaşdırılacağı bildirildi.

Yakob Aarup-Andersen "Carlsberg Group"un Azərbaycanda istehsal etdiyi məhsulun ixracının 2025-ci ildə əhəmiyyətli dərəcədə artdığını vurğuladı.

Görüşdə Azərbaycanda xarici investorlar üçün yaradılmış şəraitdən məmnunluq ifadə olundu.

## Prezident İlham Əliyev Davosda "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda dünyanın ən böyük liman operatorlarından biri olan "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə "DP World" şirkətinin Azərbaycanda uğurlu fəaliyyəti məmnunluqla qeyd edildi.

Ölkəmizin mühüm beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyi vurğulanaraq, son dövrlərdə Azərbaycanda müasir nəqliyyat infrastrukturunun qurulması istiqamətində icra edilən layihələrdən bəhs olundu. Bu xüsusda "DP World" şirkəti ilə əməkdaşlığın genişləndirilməsinin potensialının olduğu vurğulandı.



## "Xüsusi icra məmurlarının fəaliyyətinə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən nəzarətin həyata keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 15** **Bakı şəhəri, 16 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.2.3-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xüsusi icra məmurlarının fəaliyyətinə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən nəzarətin həyata keçirilməsi qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 19** **Bakı şəhəri, 19 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183, № 4 (II kitab), maddə 413, № 7, maddə 724, № 10, maddə 984) 2-ci hissəsində "yanvarın" sözü "aprelin" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# DİN-də Daxili Qoşunların 2025-ci ildə fəaliyyətinə dair müşavirə keçirilib

**Yanvarın 19-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların 2025-ci ildə xidməti fəaliyyətinin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.**



Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, şəxsi heyətin sosial və maddi-texniki təminatının, xidmət şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərdiyini vurğulayıb.

Sonra daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti fəaliyyətin yekunları barədə məruzə ilə çıxış edib. Bildirilib ki, hesabat ilində Daxili Qoşunlar qarşıya qoyulmuş bütün tapşırıqları məsuliyyətlə icra edib. İşğaldan azad edilmiş ərazilərdə mühafizə tədbirləri, minalanmış sahələrə keçmələrin qarşısının alınması istiqamətində görülən işlər xüsusi əhəmiyyət daşıyıb.

Məruzələrdə şəxsi heyətin döyüş, fiziki və ixtisas hazırlığının, idarəetmə və qarşılıqlı fəaliyyət bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən xüsusi-taktiki təlimlərin həm Daxili Qoşun hissələrinin, həm də polis orqanlarının birgə fəaliyyətinin səmərəliliyini daha da artırdığı diqqətə çatdırılıb.

Müşavirədə beynəlxalq əhəmiyyətli idman yarışları və kütləvi tədbirlər zamanı polis və Daxili Qoşunların şəxsi heyətinin peşəkar fəaliyyəti xüsusi qeyd olunub. Vurğulanıb ki, ölkəmizdə keçirilən mötəbər idman turnirləri, beynəlxalq forumlar və digər irimiqyaslı tədbirlər dövründə ictimai asayiş və təhlükəsizlik yüksək səviyyədə təmin edilib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov ötən hesabat ilində DİN-in Daxili Qoşunlarının fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışaraq, konkret tapşırıq və tövsiyələrini verib. Eyni zamanda əmin olduğunu bildirib ki, şəxsi heyət qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

***"Azərbaycan"***

# Daxili İşlər Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib



**Daxili İşlər Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.**

Bu barədə nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Xiyabanda uyuyan şəhidlərin məzarlarına gül-çiçək dəstələri qoyulub, onların xatirəsinə ehtiram ifadə olunub.

# Prokurorluq əməkdaşları Şəhidlər xiyabanını ziyarət ediblər



**Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər.**

Prokurorluq əməkdaşları şəhidlərimizin məzarları üzərinə gül dəstələri qoyub, ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini hörmət və ehtiramla yad ediblər.

# Müdafiə Nazirliyinin rəhbərliyi şəhidlərin xatirəsini yad edib

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər işçiləri 20 Yanvar - Ümumxalq Hüzn Günü ərəfəsində Şəhidlər xiyabanını ziyarət ediblər.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, 20 Yanvar şəhidlərinin məzarları üzərinə gül dəstələri düzülüb, Vətənimizin azadlığı, müstəqilliyi uğrunda canlarını fəda etmiş vətəndaşlarımızın xatirəsi hörmət və ehtiramla yad olunub.



## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 175-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 may tarixli 392 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 18** **Bakı şəhəri, 16 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 175-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 may tarixli 392 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 303, № 9, maddə 1090; 2025, № 7, maddə 713, № 9, maddə 858) ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 3.1.6-1-ci yarımbənd əlavə edilsin:

"3.1.6-1. qurumun hər bir benefisiar mülkiyyətçisinin soyadı, adı, atasının adı, doğum tarixi, vətəndaşlığı, yaşayış yeri, benefisiar mülkiyyətçinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun məqsədləri üçün siyasi nüfuzlu şəxs, onun yaxın qohumu və ya yaxın münasibətdə olduğu şəxs olub-olmaması barədə məlumatlar;";

1.2. 5.2.3-cü yarımbəndə, 6.4-cü, 6.5-ci və 6.6-cı bəndlərə, 6.8-1-ci bəndin ikinci və üçüncü abzaslarına və 6.8-2-ci bəndə "payları" sözündən sonra ", habelə benefisiar mülkiyyətçiləri" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 70 (Cild I) ilə təsdiq edilmiş "Nüsxələrinə nəzarət markası yapışdırılması nəzərdə tutulan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) dövlət reyestrinin aparılması Qaydaları"nın 14-cü hissəsinin ikinci cümləsinə "payları" sözündən sonra ", habelə benefisiar mülkiyyətçiləri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2025-ci ilin yekunlarına dair əməliyyat müşavirəsi olub

**Yanvar ayının 19-da Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə videoformat rejimində 2025-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**





Giriş nitqi ilə çıxış edən baş prokuror, Azərbaycan Prokurorluğunun qanunçuluğun etibarlı təminatçısı kimi cinayətkarlığa qarşı barışmaz mübarizəsinin və qanunun aliliyinin bərqərar olunmasında sarsılmaz mövqeyinin, fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın formalaşdırılmasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılan hüquq islahatlarının, görkəmli dövlət xadiminin prokurorluğa olan xüsusi qayğısı və dəstəyi nəticəsində mümkün olmasını qeyd edib, o cümlədən Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafının Ulu Öndər Heydər Əliyev tərəfindən daim diqqətdə saxlanıldığını xüsusilə vurğulayıb.

Baş prokuror qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ölkəmizin hərtərəfli, o cümlədən iqtisadi-sosial inkişafı, insanların yüksək səviyyədə rifahının təmin edilməsi istiqamətində mühüm islahatlar aparılmış və bu hazırda da davam etdirilməkdədir.

Çıxışda həmçinin qeyd edilib ki, yola saldığımız 2025-ci il eyni zamanda tarixi və əlamətdar hadisələrlə zəngin bir il olub. 2025-ci ildə konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 28 dekabr 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı suveren ərazilərimizdə bir sıra tədbirlər keçirilib.

Baş prokuror 2025-ci ilin avqust ayının 8-də ABŞ-nin paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanmasını xüsusi vurğulayaraq, bu addımın dövlətimizin beynəlxalq siyasi müstəvidə və diplomatiya sahəsində əldə etdiyi uğurlarının kulminasiya nöqtəsi olduğunu qeyd etdi.

Daha sonra hesabat məruzəsi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə muxtar respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında 31 cinayət işinin ibtidai istintaqı aparılmış və həmin cinayət işlərindən 17-sinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Hər iki hesabat dövründə Naxçıvan Muxtar Respublikası prokurorluğu orqanları üzrə cinayətlərin açılma faizi 100 faiz təşkil edib.

Bundan başqa qeyd olunub ki, 2025-ci ildə Naxçıvan Muxtar Respublikası prokurorluğu orqanlarına daxil olan 647 müraciətə müvafiq qaydada baxılmış, eləcə də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 296, tabe rayon (şəhər) prokurorluqlarında isə 357 olmaqla, ümumilikdə 653 vətəndaş qəbul edilərək dinlənilmiş, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilmişdir. Bundan əlavə, hesabat dövründə Naxçıvan Muxtar Respublikası prokurorluğu orqanları əməkdaşları tərəfindən qanunvericiliyin təbliği ilə bağlı çoxsaylı tədbirlər keçirilmiş, o cümlədən 36 dəfə mətbuatda, 42 dəfə televiziyada çıxışlar edilib.

Geniş Kollegiya iclasında görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin icrasına toxunulmaqla əldə olunan uğurlar, habelə xidməti fəaliyyət zamanı yol verilmiş nöqsanlar ətraflı müzakirə edilib.

Geniş Kollegiya iclasına yekun vuran Kamran Əliyev xidməti fəaliyyətin təkmilləşdirilməsi, hesabat dövründə yol verilmiş nöqsanların aradan qaldırılması ilə bağlı zəruri tapşırıqlar verərək sonda Muxtar Respublikanın prokurorluq orqanlarının hər bir əməkdaşının gələcək fəaliyyətləri zamanı qanunla üzərlərinə qoyulmuş vəzifələrin icrası istiqamətində öz bilik və bacarıqlarını bütünlüklə səfərbər edəcəklərinə, dövlətimizin və xalqımızın mənafeyi uğrunda xidməti öhdəliklərini layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə edərək, onlara uğur arzu edib.

# Ceyhun Bayramov ilə Marko Rubio arasında Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə edilib




**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət katibi Marko Rubio arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycanla ABŞ arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, eləcə də regional vəziyyət və Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə edilib.

Ötən il avqustun 8-də keçirilən Vaşinqton Sülh Sammitindən sonra Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib, tərəflər layihənin qısa müddət ərzində razılaşdırılaraq imzalanacağına ümidvar olduqlarını bildiriblər. Bu istiqamətdə müəyyən ediləcək prioritetlərin iki ölkə arasında münasibətlərə əlavə təkan verəcəyi vurğulanıb.

Nazir Ceyhun Bayramov, öz növbəsində Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə perspektivlər barədə ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Azərbaycanla Ermənistan arasında normallaşma prosesi çərçivəsində atılan addımlar, etimad quruculuğu tədbirləri təqdir olunub. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) icrası üzrə görülən işlərin əhəmiyyəti vurğulanıb.

Nazirlər bununla yanaşı digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

# Ombudsman 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə bağlı bəyanat verib



**Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) tərəfindən 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə bağlı bəyanat qəbul edilib.**

AZƏRTAC xəbər verir ki, bəyanat 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Ombudsman Aparatında keçirilən anım tədbirində səsləndirilib.

Bəyanatda deyilir: "1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş SSRİ silahlı qüvvələri tərəfindən Azərbaycan xalqının milli iradəsinin və müstəqillik tələblərinin zorakılıq yolu ilə boğulması məqsədilə mülki əhaliyə qarşı həyata keçirilmiş hərbi müdaxilədən 36 il ötür.

İnsanlıq əleyhinə törədilmiş bu qanlı hadisə nəticəsində BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın, habelə insan hüquqlarına dair digər beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulub. Kütləvi itkilərlə nəticələnən 20 Yanvar faciəsi öz mahiyyətinə və miqyasına görə XX əsrdə törədilmiş ən dəhşətli cinayətlərdəndir.

Həmin gecə Bakı şəhərində və respublikanın digər bölgələrində mülki və silahsız əhaliyə qarşı qeyri-mütənasib hərbi güc tətbiqi nəticəsində 150 nəfər dinc sakin qətlə yetirilmiş, 744 nəfər yaralanmış, nəticədə beynəlxalq hüquq normaları ilə bərabər, keçmiş SSRİ-nin və Azərbaycan SSR-in konstitusiyalarının müvafiq müddəaları da kobudcasına pozulmuş, öz torpaqlarının, milli mənliyinin müdafiəsinə qalxan çoxmillətli xalqımıza vəhşicəsinə divan tutulmuşdu.

Dinc əhaliyə qarşı hərbi güc tətbiqi, xəbərdarlıq edilmədən və real təhlükə mövcud olmadan insanların həyat və sağlamlığına qəsd edilməsi beynəlxalq insan hüquqları hüququna görə yolverilməzdir və dövlətlərin fövqəladə vəziyyətlərdə belə riayət etməli olduqları mütləq hüquqların pozuntusu hesab olunur. Bu baxımdan, 20 Yanvar hadisələri beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulduğunu təsdiq edir.

O dövrdə Azərbaycan xalqı adından ən ciddi bəyanatı Ulu Öndər Heydər Əliyev vermişdi. Təzyiqlərə və şəxsi təhlükəsizlik risklərinə baxmayaraq, 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat qarşısında çıxış edərək dinc əhaliyə qarşı törədilmiş bu ağır cinayəti açıq şəkildə pisləməsi, onun birbaşa keçmiş SSRİ rəhbərliyinin məsuliyyəti olduğunu bəyan etməsi 20 Yanvar faciəsinə ilk siyasi və hüquqi qiymətin verilməsi baxımından mühüm tarixi əhəmiyyət kəsb edirdi.

Bununla yanaşı, beynəlxalq ictimaiyyət və aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən həmin dövrdə bu hadisələrə lazımi siyasi-hüquqi qiymətin verilməməsi beynəlxalq ədalət prinsiplərinin pozulması ilə nəticələndi, cəzasızlıq mühiti formalaşdırdı. BMT-nin insan hüquqları mexanizmləri çərçivəsində kütləvi və ağır pozuntulara vaxtında və prinsipial reaksiya verilməməsi sonrakı mərhələlərdə regionda insan hüquqlarına qarşı törədilmiş digər ağır cinayətlər üçün əlverişli zəmin yaratdı.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq vurğulamaq istərdim ki, 20 Yanvar faciəsinin beynəlxalq hüquq normaları prizmasından obyektiv və hərtərəfli araşdırılması, bu hadisələrin insanlıq əleyhinə cinayət kimi tanınması, habelə yalnız icraçıların deyil, qərar qəbuletmə prosesində iştirak etmiş bütün məsul şəxslərin hüquqi cavabdehliyinin təmin edilməsi ədalətin bərpası baxımından zəruridir.

Bu istiqamətdə beynəlxalq təşkilatları, xüsusilə BMT-nin müvafiq mexanizmlərini prinsipial mövqe sərgiləməyə, 20 Yanvar hadisələrini törətmiş şəxslərin ədalət mühakiməsinə cəlb edilməsi, bu qanlı aksiyaya beynəlxalq hüquqi qiymət verilməsi məqsədilə birgə əməkdaşlığa dəvət edirəm.

20 Yanvar şəhidlərinin əziz xatirəsi Azərbaycan xalqının yaddaşında daim yaşayacaq".

# Yol hərəkəti qaydaları təkmilləşdiriləcək



**Yanvarın 19-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin cari ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Əli Hüseynli komitə üzvlərinə qarşıdakı sessiyadakı fəaliyyətlərində uğurlar arzulayıb.**

Komitə sədri bildirib ki, iclasın gündəliyinə ümumilikdə 5 məsələ daxil edilib. Bunlara ötən payız sessiyası dövründə görülmüş işlər barədə hesabat, qarşıdakı yaz sessiyası üçün iş planı, həmçinin 3 qanun layihəsinin müzakirəsi daxildir.

Əli Hüseynli 2025-ci ilin payız sessiyası ərzində rəhbərlik etdiyi komitənin fəaliyyəti ilə bağlı hesabatı təqdim edərək qeyd edib ki, həmin dövrdə komitə tərəfindən bir sıra mühüm qanunvericilik aktları müzakirə olunaraq Milli Məclisdə qəbul edilib. Bununla yanaşı, komitə üzvləri "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak ediblər, Azərbaycan dövlətçiliyinin inkişafı, suverenliyimizin daha da möhkəmləndirilməsi istiqamətində ictimai-siyasi həyatda aktiv mövqe nümayiş etdiriblər.

Komitə sədri 2026-cı ilin yaz sessiyası üçün hazırlanmış iş planı haqqında məlumat verərkən bildirib ki, sessiya dövründə qanunvericilik təşəbbüsü qaydasında təqdim ediləcək yeni qanun layihələrinə, eləcə də mövcud qanunlara dəyişikliklərin edilməsi barədə qanunvericilik aktlarına baxılması nəzərdə tutulur.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin 2025-ci ilin payız sessiyası dövründə gördüyü işlər barədə hesabat qənaətbəxş hesab olunub, 2026-cı ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

Sonra iclasda gündəlikdəki qanun layihələrinin müzakirəsi keçirilib.

Əli Hüseynli "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirib ki, dəyişikliklər yol hərəkəti qaydalarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Belə ki, layihədə "avtomagistral" anlayışı yeni, daha dəqiq və təkmil redaksiyada verilir və ödənişli avtomagistrallarda sürət həddinin tənzimlənməsi təklif olunur. Komitə sədri ödənişli avtomagistrallarda yüksək sürət həddinin saatda 130 kilometr müəyyən edilməsini insanların həyat və sağlamlığının qorunması, yol hərəkətinin təhlükəsizliyinin təmin olunması baxımından balanslaşdırılmış və əsaslandırılmış hədd kimi xarakterizə edib.

Gömrük Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, komitə layihənin İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərə rəy verəcək. Diqqətə çatdırılıb ki, bu dəyişikliklər emal edilməmiş almazın idxalı və ixracı ilə bağlı qanunvericiliyin tələblərinin pozulması hallarına görə inzibati məsuliyyətin müəyyən olunmasını nəzərdə tutur.

Gündəliyin sonuncu məsələsi olan "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə (ikinci oxunuş) müzakirə edilərkən bildirilib ki, sənədə əsasən, asbest və tərkibində asbest olan materiallar mülki dövriyyədə olmasına yol verilməyən əşyaların siyahısına daxil edilir.

Müzakirələrin yekununda gündəlikdə olan qanun layihələrinin hər biri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Kinematoqrafiya sahəsində hüquqi tənzimləmə müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılır



**Yanvarın 19-da Milli Məclisin Mədəniyyət komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Polad Bülbüloğlu sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib və onlara növbəti sessiyada uğurlar arzulayıb.**

İlk növbədə komitə sədrinin təklifi ilə xalqımızın qan yaddaşı olan 20 Yanvar şəhidlərinin xatirəsi yad edilib.

Sonra komitə sədri bildirib ki, gündəliyə 4 məsələ - 2025-ci ilin payız sessiyası dövründə Mədəniyyət komitəsində görülən işlər barədə hesabat, komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsi, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsi və "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) daxil edilib.

Bildirilib ki, 2025-ci ilin payız sessiyası ərzində Mədəniyyət komitəsinin 7 iclası keçirilib və ümumilikdə 9 məsələ müzakirə olunub. Qeyd olunub ki, seçicilərlə Milli Məclisdə və yerlərdə qəbullar keçirilib, müraciətlər dinlənilib və zəruri izahatlar verilib.

Mədəniyyət komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planı layihəsi barədə məlumat verən Polad Bülbüloğlu qeyd edib ki, sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri müzakirə olunacaq, vətəndaşlarla mütəmadi görüşlər keçiriləcək və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq davam etdiriləcək.

İclasda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub və komitənin növbəti sessiya üçün iş planının layihəsi təsdiqlənib.

Sonra İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslər təqdim edilib. Polad Bülbüloğlu diqqətə çatdırıb ki, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə İdman Federasiyasından Azərbaycan Cüdo Federasiyasının icraçı vitse-prezidenti Rəşad Rəsullu, şahmat üzrə qadınlar yığma komandasının kapitanı İlahə Qədimova, dini konfessiyalardan Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev, Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov, yaradıcılıq təşkilatlarından Bəstəkarlar İttifaqının İdarə heyətinin üzvü Həcərxanım Babayeva, Azərbaycan Milli Konservatoriyasının dosenti Aytən Babayeva yeni namizədlər olaraq irəli sürülüblər.

Daha sonra "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim edilib. Qanun layihəsi kinematoqrafiya sahəsində hüquqi tənzimləmənin müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, anlayışların dəqiqləşdirilməsinə və dövlət dəstəyinin institusional mexanizmlərinin genişləndirilməsinə yönəlib. Layihə xarici və birgə istehsal mexanizmlərinin stimullaşdırılmasını, investisiya cəlbediciliyinin artırılmasını və Azərbaycan kino sənayesinin beynəlxalq bazara inteqrasiyasını təmin etməyi hədəfləyir. Bu dəyişikliklər milli kinematoqrafiyanın dayanıqlı inkişafına, mədəni diplomatiyanın güclənməsinə və yaradıcı sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edəcəkdir.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova kinematoqrafiya sahəsində ölkəmizdə görülən işlərdən, aparılan islahatlardan danışıb.

Müzakirələrdə komitənin sədr müavini Günay Əfəndiyeva, üzvləri Aqil Abbasov, Novruzəli Aslanov, Tənzilə Rüstəmxanlı, Sahib Alıyev, Şahin Seyidzadə, Elnarə Akimova çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini söyləyiblər, təkliflərini irəli sürüblər. Mədəniyyət nazirinin müavini Səadət Yusifova, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru Rəşad Əzizov deputatların suallarını cavablandırıblar.

İclasın sonunda birinci oxunuşda olan qanun layihəsi və İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Duqinin sayıqlamaları nəyə xidmət edir?

**Müasir faşist ideologiyasının əsas ruporlarından olan, neoimperialist xəyalını gizlətməyən rusiyalı "tarixçi" Aleksandr Duqin növbəti dəfə Azərbaycanın və digər türk dövlətlərinin suverenliyini hədəf alan sərsəm bəyanatlarla gündəmə gəlib. Duqin postsovet məkanında bir sıra dövlətlərin suverenliyinin legitim olmadığını iddia edib və bu ölkələrin müstəqil şəkildə mövcud olmamalarını bildirib.**

Onun sözlərinə görə, suveren Azərbaycan, Özbəkistan, Qazaxıstan, Tacikistan və Qırğızıstanın mövcudluğu qəbuledilməzdir. Duqin bu yanaşmanı özünün uzun illərdir təbliğ etdiyi imperialist "Avrasiyaçılıq" ideologiyası ilə əsaslandırmağa çalışıb. Rusiyanın sərsəm ideoloqu hesab edir ki, SSRİ-nin dağılmasından sonra yaranmış müstəqil dövlətlər "tarixi yanlışlıq"dır və bu ərazilər yenidən Rusiyanın geosiyasi təsir dairəsinə qaytarılmalıdır. Onun fikrincə, postsovet ölkələrinin suveren siyasət yürütməsi Rusiyanın "strateji təhlükəsizliyinə" təhdid yaradır.

Özünü "Avrasiyaçılıq" pərdəsi altında gizlədən, əslində, açıq-aşkar şovinist və müstəmləkəçi düşüncəni təbliğ edən Duqinin açıqlamaları onun regiondakı yeni reallıqları həzm edə bilmədiyini və Azərbaycanın müstəqil iradəsinə qarşı qərəzini bir daha nümayiş etdirir. O, daha əvvəl də oxşar fikirlər səsləndirib, Ukraynanın dövlət kimi mövcudluğunu inkar edib və Rusiyanın hərbi ekspansiyasını ideoloji baxımdan əsaslandırmağa çalışıb. Duqinin ideyaları rəsmi Kremlin mövqeyi kimi qəbul edilməsə də, Rusiyanın siyasi-ictimai elitasında imperialist düşüncə tərzinin qalıqlarını bariz şəkildə ortalığa qoyur. Bu, Rusiyanın müəyyən dairələrində "revanşizm" xəstəliyinin virus kimi yayıldığını göstərir. Duqinkimilər də bu zərərli düşüncənin təzahürüdür.

Duqinin sayıqlamaları Rusiya ilə Azərbaycan arasında imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haq-



qında Bəyannamə"nin ruhuna kökündən ziddir. Bu növ açıqlamalar iki ölkə arasındakı strateji tərəfdaşlığa kölgə salmaq məqsədi güdür.

Dünyada yüksək hörmət və nüfuza sahib olan Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu "qəbuledilməz" adlandırmaq bölgədəki mövcud status-kvoya tamamilə zidd olmaqla yanaşı, beynəlxalq hüququn prinsiplərinə də qarşı çıxmaqdır. Azərbaycan regionun müstəqil xarici siyasət yürüdən azad və suveren dövlətidir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və uğurlu rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi, ardınca lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan suverenliyini və ərazi bütövlüyünü öz gücü ilə tam bərpa edib. Bu möhtəşəm tarixi zəfərlər Azərbaycanın regionda hərbi və siyasi iradəsinin, eləcə də tam müstəqil dövlətçilik gücünün ən bariz sübutudur. Məhz rəsmi Bakının yürütdüyü balanslaşdırılmış və milli maraqlara söykənən siyasəti Azərbaycanı regional və qlobal söz sahiblərindən birinə çevirib. Dünyanın super gücü sayılan ABŞ, o cümlədən Avropa İttifaqı və Çin Azərbaycanla yaxın əməkdaşlıq edir, ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldirlər. Duqinkimilər isə bu həqiqətlərə göz yumurlar.

Faşist tarixçinin Azərbaycanla paralel digər türk dövlətlərinin adını xüsusi vurğulaması da təsadüfi deyil. Bu, onun təbliğ etdiyi ideologiyanın "qarın ağrısı"dır. Son illərdə Azərbaycan və Türkiyənin təşəbbüsləri sayəsində Türk Dövlətləri Təşkilatının (TDT) beynəlxalq arenada çəkisinin artması, bu ölkələrin hərbi, iqtisadi və siyasi platformalarda bir araya gəlməsi Duqin kimi neoimperialistləri ciddi şəkildə narahat etməkdədir. Azərbaycanın həm türk dünyasında, həm də regionda artan nüfuzu, ələlxüsus Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasət Duqinin "vassal dövlət" modelinə sığmır. Bu gün Azərbaycan bir çox ölkə üçün tam müstəqillik və suverenlik nümunəsidir. Görünür, Duqinkimilər də bu nümunənin yayılmasından qorxurlar.

Ümumiyyətlə, Azərbaycanın suverenliyi müzakirə mövzusu ola bilməz. Minlərlə azərbaycanlının qanı və canı bahasına qurulmuş müqəddəs müstəqilliyimiz cənab İlham Əliyevin güclü liderliyi, xalqımızın vəhdəti və şanlı ordumuzun gücü ilə möhürlənib. Duqinlərin sərsəm iddiaları Azərbaycanın regiondakı sarsılmaz mövqeyini və tam suveren dövlət statusunu dəyişə bilməz. Əksinə, bu cür açıqlamalar Azərbaycanın öz müstəqilliyini qorumaq üçün seçdiyi strateji yolun nə qədər doğru olduğunu bir daha sübut edir. Azərbaycan çoxdan öz yolunu seçib. Duqinin təbliğ etdiyi neoimperializm ideyası isə tarixin arxivinə gömülüb.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Türkiyə-Azərbaycan münasibətləri 34 il ərzində rəmzi qardaşlıqdan strateji müttəfiqlik səviyyəsinə yüksəlib

**"Türkiyə ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasından 34 il ötür. Bu dövr iki ölkə arasındakı əlaqələrin təkcə tarixi inkişaf yolunu deyil, eyni zamanda münasibətlərin regional və qlobal siyasətdə tutduğu strateji mövqeyi qiymətləndirmək baxımından mühüm əhəmiyyət daşıyır".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Hatay Mustafa Kamal Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi, beynəlxalq münasibətlər üzrə ekspert Nəzrin Əlizadə bildirib.

O, qeyd edib ki, Türkiyə-Azərbaycan münasibətləri sadə diplomatik yaxınlaşma modeli çərçivəsində formalaşmayıb, əksinə, regiondakı güc balansları, Qarabağ münaqişəsi, Rusiyanın Cənubi Qafqaz siyasəti və Türkiyənin xarici siyasət prioritetləri fonunda tədricən strateji məzmun qazanıb.

Ekspertin fikrincə, 2010-cu ildən sonra imzalanan Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi iki ölkənin təhlükəsizlik anlayışını bir-biri ilə birbaşa əlaqələndirdi: "Bu xəttin real nəticələri isə 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı aydın şəkildə üzə çıxdı. 44 günlük Vətən müharibəsində Türkiyə dövlətinin və xalqının Azərbaycana qətiyyətli dəstəyi xüsusi qeyd olunmalıdır. 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi ilə isə münasibətlər rəmzi qardaşlıqdan faktiki strateji müttəfiqlik səviyyəsinə yüksəldi".

N.Əlizadə gələcək perspektivlərə toxunaraq bildirib ki, Türkiyə-Azərbaycan münasibətləri üç əsas istiqamətdə dərinləşəcək: hərbi əməkdaşlığın institusionallaşması, nəqliyyat və bağlantı layihələri, eləcə də regional balans siyasəti. Onun sözlərinə görə, Zəngəzur dəhlizi və Orta dəhliz təşəbbüsləri bu münasibətləri Orta Asiyaya uzanan daha geniş geoiqtisadi strategiyanın mərkəzinə çevirir.

Sonda N.Əlizadə vurğulayıb ki, Türkiyə-Azərbaycan münasibətləri bu gün Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına, türk dünyasının inteqrasiya potensialına və regional əməkdaşlıq modellərinə təsir göstərən əsas siyasi oxlardan birinə çevrilib. Münasibətlərin gələcək uğuru məhz bu çoxqatlı regional reallığın balanslı və davamlı şəkildə idarəsindən asılı olacaq.

# Leyla Əliyeva Efiopiya Elm Muzeyini ziyarət edib







**Leyla Əliyeva Efiopiya Federativ Demokratik Respublikasında səfərdədir. AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanı Efiopiyanın planlaşdırma və inkişaf naziri Fitsum Assefa Adela qarşılayıb.**

Leyla Əliyevanın şərəfinə Efiopiyanın qədim və zəngin mədəniyyətini əks etdirən ənənəvi qəhvə mərasimi təşkil olunub. Tədbir zamanı qonaqlara bu qədim ritualın detalı haqqında məlumat verilib. Mərasimin sonunda qonaqlara əsrarəngiz ətri və özünəməxsus dadı ilə seçilən təzə dəmlənmiş Efiopiya qəhvəsi təqdim olunub.

Daha sonra Leyla Əliyeva Efiopiya Elm Muzeyini ziyarət edib. Burada onu Efiopiya Federativ Demokratik Respublikası Baş nazirinin ofisinin rəhbəri və kabinet işləri naziri Alemtsehay Paulos qarşılayıb.

Məlumat verilib ki, Efiopiya Elm Muzeyi 2022-ci ilin oktyabrında ziyarətçilərin istifadəsinə verilib. Yeddi hektar ərazidə inşa olunmuş və 80 faizi yaşıl sahədən ibarət olan muzey iki möhtəşəm binadan ibarətdir. Bu nəhəng muzey kompleksi elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərmək, müxtəlif sahələr üzrə həm qədim, həm də müasir texnologiyaları qoruyub saxlamaq və onları gələcək nəsillərə ötürmək məqsədi daşıyır.

Efiopiyanın Baş naziri Abiy Ahmedin təşəbbüsü ilə inşa edilən kompleksdə elm və texnologiyaya həsr olunan müasir interaktiv eksponatlar, planetarium və Günəş panelləri kimi ekoloji cəhətdən təmiz dizayn elementləri yer alır.

Muzey xüsusilə gənclər arasında innovasiyanı və rəqəmsal bacarıqların inkişafını təşviq etməyi hədəfləyir, texnoloji tədbirlər və konfranslar üçün mühüm mərkəz rolunu oynayır. Uşaqlar və gənclər arasında böyük populyarlıq qazanan muzeyi indiyədək 7 milyon uşaq ziyarət edib. Bu kompleks Efiopiyanın rəqəmsal transformasiya istiqamətindəki səylərinin əsas elementi olmaqla yanaşı, həm müasir elmi, həm də milli irsi uğurla nümayiş etdirir.

# Leyla Əliyeva Efiopiyanın Baş naziri ilə görüşüb

**Leyla Əliyeva ilə Efiopiyanın Baş naziri Abiy Əhməd Əli arasında görüş keçirilib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Efiopiya arasındakı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri ətraflı müzakirə olunub.**




Səmimi dialoq şəraitində keçən görüşdə Leyla Əliyeva Azərbaycan Respublikası Prezidentinin salamlarını qarşı tərəfə çatdırıb və dövlətimizin başçısının adından Baş naziri ölkəmizə səfərə dəvət edib.

Efiopiyanın Baş naziri Abiy Əhməd Əli dəvəti böyük məmnuniyyətlə qəbul edərək, Azərbaycan Prezidenti haqqında yüksək ehtiramla danışaraq, xoş sözlərini ifadə edib.

Baş nazir ölkəmizdə gedən sürətli inkişaf prosesini təqdir etdiyini bildirib. O, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasəti və beynəlxalq aləmdəki yüksək nüfuzunu xüsusi vurğulayaraq, iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyətindən söz açıb.

Görüşdə həmçinin işğaldan azad edilmiş torpaqlarda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verilib.

Vurğulanıb ki, Azərbaycanın 2024-cü ilin noyabrında evsahibliyi etdiyi COP29 tədbirinin uğurlu təcrübəsi böyük maraqla qarşılanıb. Bu təcrübənin 2027-ci ildə Efiopiyada keçiriləcək COP32 konfransında tətbiq edilməsi imkanları müzakirə olunub. Hər iki ölkə arasında bu mühüm sahədə təcrübə mübadiləsinin aparılmasının vacibliyi bir daha qeyd edilib.

# Leyla Əliyeva Efiopiyada MESOB dövlət xidməti mərkəzinə baş çəkib

**Efiopiya Federativ Demokratik Respublikasına səfəri çərçivəsində Leyla Əliyeva paytaxt Əddis-Əbəbədə yerləşən MESOB dövlət xidməti mərkəzində olub.**




AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanı Efiopiyanın Dövlət qulluğu üzrə federal komissarı (nazir) Mekuria Haile qarşılayıb.

Bildirilib ki, "ASAN xidmət" modeli əsasında yaradılmış MESOB vətəndaşların mühüm dövlət xidmətlərinə çıxışını asanlaşdırmaq üçün müasir "bir pəncərə" platformasıdır. Federal agentliklərin 140-dan çox xidmətini vahid rəqəmsal və fiziki mərkəzdə birləşdirən MESOB dövlət xidmətlərinin daha sürətli, rahat və etibarlı şəkildə göstərilməsini təmin edir.

Qeyd edək ki, "ASAN xidmət" təcrübəsinin Efiopiyada tətbiqi ilə bağlı 2024-cü ilin mayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə bu ölkənin müvafiq qurumu arasında Anlaşma Memorandumu imzalanıb.

COP29 çərçivəsində 2024-cü il noyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Efiopiya Prezidenti Taye Atske Sellasie arasında keçirilən görüş zamanı Efiopiya tərəfi ölkədə "ASAN xidmət" təcrübəsinin tətbiqinə maraq göstərib və bu istiqamətdə Azərbaycanın dəstəyini xahiş edib.

Ötən dövr ərzində dövlət agentliyinin mütəxəssisləri Efiopiyanın dövlət qulluqçuları üçün təlimlər keçirib, Efiopiyada "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə bağlı hüquqi və digər zəruri sənədləri, həmçinin "ASAN xidmət" mərkəzlərində istifadə olunan texnoloji həllər əsasında tövsiyə sənədlərini hazırlayıb, xidmətlərin vahid standartını müəyyən ediblər.



# Leyla Əliyeva Əddis-Əbəbədə bir sıra sosial və mədəni obyektlərə baxış keçirib






**Leyla Əliyeva Efiopiyanın paytaxtı Əddis-Əbəbədə bir sıra sosial və mədəni obyektlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva əvvəlcə Berhan Gözdən Əlillər üçün İnternat Məktəbini ziyarət edib.

Efiopiyanın birinci xanımı Zinaş Tayaçevin təşəbbüsü və himayəsi ilə inşa olunan məktəb ölkənin bütün bölgələrindən seçilmiş 9-cu sinifdən 12-ci sinfə qədər gözdən əlilliyi olan və görmə məhdudiyyətli 300-dən çox şagirdə xidmət göstərir. Məktəb milli tədris proqramını şagirdlərinin ehtiyaclarına uyğunlaşdıraraq Brayl əlifbasından, audioresurslar və kompüter ekran oxuyucusu texnologiyasından istifadə edir. Əsas akademik fənlərlə yanaşı, şagirdlər Brayl əlifbasını, oriyentasiya və hərəkətlilik, həyat bacarıqları və musiqi, əl işləri, kompüter istifadəsi üzrə təlimlər keçirlər. Akademik öyrənməni praktiki bacarıqlarla birləşdirərək, Berhan Gözdən Əlillər üçün İnternat Məktəbi şagirdləri ali təhsildə uğur qazanmağa və cəmiyyətdə müstəqil, məhsuldar həyata hazırlaşmağa imkan verir.



* * *

Sonra Leyla Əliyeva "Lenegewa" Qadınların Reabilitasiya və Bacarıqların İnkişafı Mərkəzində olub.

Bildirilib ki, Əddis-Əbəbə şəhərinin meri xanım Adaneç Abiebenin təşəbbüsü ilə tikilən mərkəzin fəaliyyəti səfil həyatı ilə üzləşən və insan alverinin qurbanı olan minə yaxın qadının həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Kompleks yanaşma prinsipi ilə fəaliyyət göstərən mərkəz 13 binadan ibarətdir. Buraya müasir sinif otaqları, yataqxanalar, peşə təlimi mərkəzləri, emalatxanalar, həmçinin psixoloji və tibbi yardım şöbələri daxildir.

Bildirilib ki, müəssisəyə qəbul edilən həssas təbəqədən olan qadınlar gələcəkdə işə düzəlmək üçün zəruri bacarıqlarla təmin edən 3-6 aylıq intensiv təlim proqramlarına cəlb olunurlar.

Onların potensialını maksimum səviyyədə istifadə etmələri üçün kompüter savadlılığı, tekstil və tikiş, elektronika, gözəllik xidmətləri, tədbirlərin təşkili üçün qida xidmətləri və digər istiqamətlər üzrə kurslar təklif olunur.

* * *

Leyla Əliyeva həmçinin Efiopiyanın Milli Sarayı ilə tanış olub.

Saray bu ölkənin monarxlarının mirasını və xalqın sarsılmaz ruhunu təcəssüm etdirir. Sarayın tarixi, əsrlər boyu ölkəni formalaşdıran hakimiyyət, ənənə və müasirlik hekayələri ilə sıx bağlıdır. 1955-ci ildə imperator Hayle Selassienin gümüş yubileyini qeyd etmək üçün inşa edilən saray ona həyat yoldaşı Menen Asfav tərəfindən hədiyyə edilib. İtalyan memar Raffaele Petrone tərəfindən layihələndirilən bina yerli memarlıq motivlərini beynəlxalq üslublarla birləşdirərək ölkənin mədəni müxtəlifliyini və qlobal əlaqələrini əks etdirir.

Muzeydə imperatorun zəngin avtomobil kolleksiyası, həmçinin fəvvarələr, heykəllər və sıx yaşıllıqlarla bəzədilmiş saray kompleksi nümayiş etdirilir.

# Leyla Əliyeva Əddis-Əbəbədə Adva Zəfər Muzey Kompleksində olub






**Leyla Əliyeva Adva Zəfər Muzey Kompleksində olub. AZƏRTAC xəbər verir ki, Adva Zəfər Muzeyi 1896-cı il martın 1-də Adva döyüşündə İtaliya işğalçıları üzərində qazanılan qələbəyə həsr olunan memorial kompleksdir.**

Kompleks Əddis-Əbəbə şəhərinin mərkəzində, vaxtilə ölkənin hər yerindən gələn efiopiyalıların Adva döyüşünə yollanmazdan əvvəl toplandığı məkanda yerləşir. Bu tarixi hadisə həm Efiopiya, həm də bütövlükdə Afrika qitəsi üçün xalqın azadlıq uğrunda nümayiş etdirdiyi birlik və qətiyyəti simvollaşdıraraq böyük əhəmiyyət kəsb edir. Sözügedən döyüşdə Efiopiya parlaq qələbə qazanaraq öz müstəqilliyini qoruyub və Afrika tarixində müstəmləkəyə çevrilməyən yeganə dövlət olub.

Memorialın girişində imperator II Menelik və imperatriça Taytu Bitulun, eləcə də həmin dövrdə orduya rəhbərlik etmiş 12 generalın heykəli ucaldılıb.

Muzeydə panafrikaçılığa həsr olunan, Efiopiyanın digər Afrika ölkələri və onların liderləri ilə əməkdaşlığını vurğulayan xüsusi bölmə mövcuddur. Kompleksdə müxtəlif müasir və qədim sənət əsərləri ilə yanaşı, həmin dövrə aid nadir artefaktlar - qalxanlar, qılınclar, atıcı silahlar, sənədlər və digər tarixi relikviyalar nümayiş olunur. Kompleksə sərgi salonlarından əlavə, amfiteatr, kitabxanalar və gənclər mərkəzləri də daxildir.

* * *

Leyla Əliyeva Əddis-Əbəbənin ən böyük istirahət məkanı olan "Dostluq" parkını da ziyarət edib.

Parkın mərkəzindəki möhtəşəm musiqili fəvvarənin nümayişi ətrafda sehrli bir atmosfer yaradıb. Azərbaycan xalq mahnılarının həzin sədaları altında rəqs edən su damlaları musiqinin akkordları ilə harmoniya təşkil edərək zərif bir sənət əsərini xatırladıb.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Qətərdə səfərdədir

**Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qətər Silahlı Qüvvələri tərəfindən təşkil edilən 9-cu Doha Beynəlxalq Dəniz Müdafiə sərgisi və konfransında ("DIMDEX 2026") iştirak etmək məqsədilə bu ölkədə səfərdədir.**




Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, dəniz təhlükəsizliyi və müdafiə sahəsində beynəlxalq təcrübə mübadiləsi üçün mühüm platforma hesab olunan "DIMDEX 2026" sərgisinin rəsmi açılış mərasimindən sonra general-polkovnik K.Vəliyev və digər ölkələrdən olan rəsmi nümayəndə heyətləri sərgi pavilyonlarında yerləşən stendlərə baxış keçiriblər.

# Qrenlandiya böyük güclərin "şahmat taxtası"na çevrilir

**Qrenlandiya ətrafında diplomatik gərginlik artır. ABŞ Prezidenti Donald Trampın Qrenlandiya məsələsini yenidən gündəmə gətirməsi şimal qütbünü qlobal güclərin toqquşma poliqonuna çevirib. Arktikadakı nəhəng resurslar və strateji mövqe uğrunda mübarizə artıq gizli danışıqlardan çıxaraq açıq qarşıdurma müstəvisinə keçib. ABŞ Prezidenti Donald Tramp bildirib ki, Qrenlandiyanın ilhaqının vaxtı çatıb. Onun sözlərinə görə, Danimarka hökuməti 20 il ərzində Rusiya tərəfindən Qrenlandiyaya qarşı yaradılan təhlükəni aradan qaldıra bilməyib: "NATO 20 ildir Danimarkaya deyir ki, Qrenlandiyaya qarşı Rusiya təhlükəsini aradan qaldırmalısınız. Təəssüf ki, Danimarka bununla bağlı heç nə edə bilmədi".**





Tramp Qrenlandiya məsələsində taktikasını dəyişərək Avropadakı müttəfiqlərinə qarşı iqtisadi təzyiqləri də işə salıb. O bəyan edib ki, ABŞ-yə Qrenlandiyanı almağa icazə verilənə qədər Avropa ölkələrinə qarşı gömrük rüsumlarını artıracaq. Trampın sözlərinə görə, fevralın 1-dən etibarən Danimarka, Norveç, İsveç, Fransa, Almaniya, Niderland, Finlandiya və Böyük Britaniyadan idxal olunan mallara əlavə 10 faiz gömrük rüsumu tətbiq ediləcək. Ağ Ev rəhbəri xəbərdarlıq edib ki, əgər Qrenlandiyanın ABŞ-yə satılması ilə bağlı razılıq əldə olunmasa, iyunun 1-dən bu rüsumlar 25 faizə qaldırılacaq. Niderlandın xarici işlər naziri David van Vil deyib ki, ticarət rüsumlarından siyasi və ya hərbi təzyiq aləti kimi istifadə edilməsi qəbuledilməzdir.

ABŞ-nin maliyyə naziri Skott Bessent NBC telekanalında çıxışı zamanı bildirib ki, Avropanın "zəifliyi" qlobal sabitliyin təmin olunması üçün Qrenlandiyaya nəzarəti zəruri edir. Onun sözlərinə görə, Qrenlandiya Rusiya və Çinlə aparılan geosiyasi qarşıdurmada mühüm əhəmiyyət daşıyır. Bessent bildirib ki, Qrenlandiyanın ABŞ-nin nəzarətinə keçməsi bu "geosiyasi şahmat oyunu"nda Vaşinqton üçün həlledici addımdır.

ABŞ Konqresində isə Tramp administrasiyasının Qrenlandiya ilə bağlı siyasətinə qarşı narazılıqlar səsləndirilib. Kentukki ştatından olan respublikaçı senator Rend Pol bildirib ki, Qrenlandiyada fövqəladə vəziyyət olmadığı halda gücdən istifadəni əsaslandırmaq absurddur. Onun fikrincə, fövqəladə vəziyyətin qarşısını almaq üçün fövqəladə səlahiyyətlərin elan edilməsi məntiqsizdir.

NATO-nun Baş katibi Mark Rutte ABŞ Prezidenti Donald Trampla Qrenlandiyanın təhlükəsizlik vəziyyəti və Arktika regionu barədə danışıb. Rutte bu barədə "X" sosial şəbəkəsində paylaşım edib: "ABŞ Prezidenti ilə Qrenlandiya və Arktikadakı təhlükəsizlik məsələsini müzakirə etdik. Davosda onunla görüşü səbirsizliklə gözləyirəm".

Avropa İttifaqına üzv ölkələr isə Qrenlandiya məsələsi ilə əlaqədar ABŞ-yə qarşı 93 milyard avro həcmində cavab tədbirlərinin tətbiqi imkanını nəzərdən keçirirlər. "Financial Times" nəşrinin məlumatına görə, Aİ-nin cavab addımlarının ikinci variantı Amerika şirkətlərinin vahid Avropa bazarına çıxışının məhdudlaşdırılmasını nəzərdə tutur.

Qrenlandiya məsələsi Davosdakı görüşün gündəliyini də dəyişib. Qərb ölkələrinin liderlərinin milli təhlükəsizlik üzrə müşavirləri Dünya İqtisadi Forumu çərçivəsində Davosda keçiriləcək görüşlərin gündəliyinə Qrenlandiya məsələsinin daxil edilməsi üçün dəyişiklik ediblər. İlkin olaraq görüşün Ukraynadakı münaqişənin nizamlanmasına həsr olunması nəzərdə tutulurdu. Lakin sonradan planlar yenilənib və müşavirlərin Qrenlandiya mövzusunu da müzakirə etməsi qərara alınıb.

Qeyd edək ki, Danimarkanın muxtar ərazisi olan Qrenlandiya və Danimarka rəsmiləri adanın satılmadığını və ABŞ-nin tərkibinə keçmək niyyətində olmadıqlarını dəfələrlə bəyan ediblər. Tramp isə adanın mülkiyyət hüququndan aşağı heç bir təkliflə razılaşmayacağını israrla vurğulayır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Müasir İncəsənət Muzeyində "Qeyzer" adlı müasir incəsənət sərgisinin açılışı olub





**Heydər Əliyev Fondunun dəstəyi, BP şirkətinin sponsorluğu və Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Neft bumu hamıya gülümsəyir" festivalı çərçivəsində yanvarın 17-də Müasir İncəsənət Muzeyində "Qeyzer" adlı müasir incəsənət sərgisinin açılışı olub.**



AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, rəsmi qonaqlar, tanınmış incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

2025-ci ilin noyabrından 2026-cı ilin fevralına qədər keçirilən "Neft bumu hamıya gülümsəyir" festivalı Azərbaycanın görkəmli yazıçısı Maqsud İbrahimbəyovun yaradıcılıq irsinə həsr olunub və neft bumu dövrünün mədəni və tarixi konteksti ətrafında qurulub. Müxtəlif incəsənət sahələrini bir araya gətirən festival müəllifin ədəbi mətnlərində yer alan transformasiya, gözlənti və daxili gərginlik mövzularına müraciət edir.

"Qeyzer" müasir incəsənət sərgisi festivalın əsas layihələrindən biridir. "Neft bumu hamıya gülümsəyir" pyesinə konseptual istinad kimi yanaşaraq, o, şəxsi təcrübə ilə kollektiv tarixin qovuşduğu anlayışa immersiv baxış təqdim edir.

Sərginin açılışında çıxış edən Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova bu günün festival üçün xüsusi əhəmiyyət daşıdığını deyib: "Bu gün həqiqətən möhtəşəm bir hadisədir, çünki festivalda gənc və istedadlı rəssamlar iştirak edirlər. Məni xüsusilə sevindirən məqam iştirakçıların bir çoxunun sadəcə, çıxış etməsi deyil, həm də ideyalar üzərində dərindən düşünməsi və Maqsud İbrahimbəyovun kitablarına müraciət etməsidir".

Anna İbrahimbəyova qeyd edib ki, təqdim olunan əsərlər daha çox təəssürat, şəxsi interpretasiya və bədii reaksiyadır, sözlərin və obrazların vizual sənət dilinə çevrilməsidir.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxışında tədbirin ərsəyə gəlməsində əməyi olan bütün heyətə təşəkkürünü bildirib. O, 2025-ci ilin noyabr ayından bəri keçirilən "Neft bumu hamıya gülümsəyir" festivalının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb: "Festival çərçivəsində təqdim olunan tədbirlər və tamaşalar böyük önəm daşıyır. Ümid edirəm ki, bu, ənənəvi bir hal alacaq. Bu gün rəssamlarla görüşdüm. Onların bir-birindən gözəl əsərləri təqdim olunur. Gələcək yaradıcılıqlarında hər birinə uğurlar arzu edirəm".

Sonra çıxış edən BP-nin Xəzər regionu üzrə kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bildirib ki, bu gün indiyədək mövcud olmuş və gələcəkdə də davam edəcək bayramlardan biri - incəsənət və ədəbiyyatın kəsişməsində yaranan bayram qeyd edilir. O, BP şirkəti olaraq belə gözəl bir tədbirin ərsəyə gəlməsində iştirak etməkdən məmnunluğunu bildirib.

Sərginin kuratoru Nigar Rzayeva çıxışında deyib ki, Maqsud İbrahimbəyovun yaradıcılığı o qədər canlı və müasirdir ki, layihə və təqdim olunan işlər rəssamlar üçün böyük ilham mənbəyinə çevrilib. O, bütün yaradıcı heyətə, eləcə də göstərilən dəstəyə görə Heydər Əliyev Fonduna, BP şirkətinə və Müasir İncəsənət Muzeyinə təşəkkürünü bildirib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Layihədə neft Bakının ritmini, insanların talelərini və bütövlükdə ölkənin inkişafını müəyyənləşdirən real qüvvə kimi çıxış edir. O, ölkə tarixi boyunca insan münasibətlərinin formalaşdığı mühiti yaradır.

"Qeyzer" adı neft fontanına, yəni təzyiq altında neftin yer səthinə çıxmasına, həmçinin qeyzerin yığılıb qalmış enerjini azad etməsi prinsipinə işarə edir. Eyni impuls Maqsud İbrahimbəyovun pyesi tərəfindən verilib və layihənin bədii işlərində inkişaf etdirilib.

Sərgidə doqquz rəssam iştirak edir. Ekspozisiya bir-biri ilə əlaqəli iki şərti hissədən ibarətdir: arxiv materiallarının yenidən işlənməsinə əsaslanan konseptual video-iş və əsas bədii məkanı formalaşdıran müasir rəssamların əsərləri.

Bununla yanaşı, sərgidə festivalın təşəbbüskarı və təşkilatçısı, Maqsud İbrahimbəyovun həyat yoldaşı Anna İbrahimbəyovanın foto işi də təqdim olunur. Bu iş sərginin əsas iştirakçı tərkibindən kənar təqdim olunur.

İştirakçılar Fidan Sadıq, İrina Eldarova, Kənan Əliyev, Müşfiq Heydərov, Nəzrin Məmmədova, Nigar Familsoy, Orxan Qarayev, Sərxan Hacıyev və Vüsalə Ağarazıyevadır.

Fidan Sadıq "Adsız" əsəri ilə neft bumunun yaşandığı dövrdə qadının görünməyən mövcudluğuna toxunur. Üzü olmayan qadın fiquru fərdiliyin itirilməsinin obrazına çevrilir, bədən qadının daxili vəziyyəti ilə sosial təzyiq arasında sərhəd kimi çıxış edir. Neft dövrünün Bakı fraqmentlərini əks etdirən naxış üzün yerini tutur və sənaye ilə tarixin izini bədəndə sabitləyir. Qadın fiquru şəxsin səsinin demək olar ki, eşidilmədiyi bir vəziyyətdə təqdim olunur.

İrina Eldarovanın "Drakaris. Atəşpərəstlər" əsəri Günəş enerjisinə həyatın ilkin mənbəyi və Odlar yurdunun simvolu kimi müraciət edir. Burada anilik hissi aradan qalxır və yerini davamlı enerji impulsu tutur. İnsan kollektiv obraz kimi təqdim olunur. O, alovu ram etmiş və onun ötürülməsi üçün yerin dərinliklərindən qlobal məkana qədər uzanan sistemlər yaratmış titan kimi göstərilir. Əsər müasir dünyanı formalaşdıran enerjinin miqyası və gücü haqqında vizual ifadə kimi qurulub.

Kənan Əliyevin "Gözlənti" heykəltaraşlıq işi yüksəliş və gözlənti hissi üzərində qurulub. Postamentdən xaotik şəkildə qalxan borular qapalı kvadrat yaradır, bu isə neftin şərti vahidinə, kuba işarə edir. Bu konstruksiyadan kənara doğru uzanan ayrı-ayrı borularla səs yayılır. Onlara yaxınlaşan tamaşaçı daxildən artan hərəkəti eşidir, sanki nəsə yuxarı qalxmaq və bayıra çıxmaq istəyir. Əsər neft yüksəlişi dövründə Bakının yaşadığı təcrübəyə müraciət edir, həmin dövrdə neftin püskürməsinə yaxın eşidilən səs gələcək dəyişikliklərin əlaməti kimi qəbul olunurdu.

Bu hiss rəssam üçün şəxsi təcrübə ilə bağlıdır. 1990-cı illərdə, Bakıda su qıtlığının yaşandığı dövrdə, o, gözlənti, gərginlik və sevinc hisslərini öz üzərində yaşayıb: "Kranı dəfələrlə açıb qulaq asardım. O səsi gözləyirdim. Su gələndə sadəcə, xoşbəxt olurdum".

Müşfiq Heydərov "Postinsan" əsəri ilə konseptual heykəl cinsi və fərdi xüsusiyyətlərdən məhrum edilmiş insan obrazını təqdim edir. Fiqurun böyük ölçüsü onun postinsan xarakterli, müasir dövr tərəfindən formalaşdırılmış bir obyekt kimi qəbul edilməsini gücləndirir. Rəssam enerji, texnologiya və informasiyanın zamanla insanın yaşama və özünü dərketmə biçimlərini dəyişdirərək yeni reallıqlar yaratdığı fikrinə işarə edir.

Bu kontekstdə neft bünövrə rolunu oynayır: sənaye və rəqəmsal sistemlərin üzərində qurulduğu əsas enerji mənbəyi kimi. Məhz bu enerji transformasiya proseslərini hərəkətə gətirir və nəticədə insanın tədricən bədən və sosial müəyyənliyini itirərək universal, şəxsiyyətsiz funksional daşıyıcıya çevrilməsi riski ortaya çıxır.

Nəzrin Məmmədovanın "Qeyzer" abstrakt əsəri gizli enerjinin səthə çıxaraq insanın daxili hallarını dəyişdirməyə başladığı anı təsbit edir. Yeraltı qatlarından qalxan enerji tanış xətləri pozur və dağılma ilə formalaşma arasında qeyri-sabit hallar yaradır.

Rəssamı keçid anının gərginliyi maraqlandırır: köhnə emosional strukturlar dağılır, yeniləri isə hələ formalaşmağa macal tapmır. Bu proses yığılmış enerjinin qəfil boşalması kimi özünü göstərir.

Əsərin strukturunda rəng, forma və dərinlik vasitəsilə Abşeron landşaftı ilə bağlı assosiasiyalar sezilir.

Nigar Familsoyun "Yan təsir" rəsm əsərinin mərkəzi obrazı tarixi dəyişikliklərin və dönüş nöqtələrinin müşahidəçisi olan qarğadır. O, tərəqqinin gözqamaşdırıcı işığı kimi təsir göstərən aqressiv sarı sahənin içində meydana çıxır.

Əsər neft və texnoloji bumunun geri dönməz xarakterini ön plana çıxarır. Ümumi rifah illüziyası nəticələrin reallığı ilə toqquşur. Bu toqquşmada qarğa hərəkətsiz şahid olaraq qalır və tərəqqinin hər iki üzünü eyni anda özündə saxlayır.

Orxan Qarayev "Pərdə" əsəri ilə neft bumunu parlaq inkişafla gündəlik əməyin görünməz reallığı arasında formalaşan ziddiyyətlər sahəsi kimi təhlil edir. Üçbucaqlı lamellərdən ibarət konstruksiya iki vizual səth yaradır; bu səthlərin hər biri yalnız müəyyən baxış bucağından açılır və fiziki zəhmətlə zahiri parıltını qarşı-qarşıya qoyur.

Birbaşa baxış zamanı təsvir dağılaraq abstrakt görüntüyə çevrilir. Bu optik "korluq" illüziya və fraqmentar qavrayışın metaforası kimi çıxış edir. Məna yalnız hərəkət prosesində formalaşır: tamaşaçı bütövü dərk etmək üçün mövqeyini dəyişməyə məcbur qalır. Həyatda olduğu kimi, aydınlıq da ayrı-ayrı fraqmentlərin birləşməsi nəticəsində yaranır.

Sərxan Hacıyevin əsəri olan "Aralıq" bədii videofantaziya maddi və rəqəmsal reallıqlar arasındakı vəziyyəti təsvir edir. Reallıqların dəyişməsi insan üçün tədricən və demək olar ki, hiss olunmadan baş verir, dəqiq başlanğıc və tamamlanma anı yoxdur. Bu fon üzərində neft ilkin materiya və qədim həyatın yaddaşı kimi ortaya çıxır və ondan şüur və ruhu xatırladan kəpənək obrazı yaranır.

Neft və süni intellekt obrazları insanın maddi yaddaşla rəqəmsal reallıq arasında qaldığı mövqeyi ifadə edən vizual dili formalaşdırır.

İkinci videoart Azərbaycan Dövlət Film Fondunun arxiv materialları əsasında hazırlanmışdır, nefti real həyatın və tarixin ayrılmaz bir hissəsi kimi təqdim edir.

Vüsalə Ağarazıyevanın "Sahə" əsəri neft bumunun dövrünə aid tarixi-sənədli obrazlara əsaslanır: neftin içində dizə qədər dayanan, bədənlə maddə arasında sərhədin itdiyi ağır və yapışqan mühitdə çalışan insanlar. Rəssamın sahə adlandırdığı bu məkanda insan və neft eyni varlığın elementlərinə çevrilir. Bu monumental rəsm əsəri pafos və idealizasiya iddiası daşımır. Rəssam insanın fiziki, bədən təcrübəsi vasitəsilə baş verənləri qəbul edərək tarixi prosesə birbaşa daxil olmasına diqqət yönəldir.

Bu məntiq "Mərkəz" adlı instalyasiyada da davam etdirilir. Dairəvi taxta forma əl əməyinə və bu əməyin baş verdiyi torpaq mühitə işarə edir. Fırlanan mərkəz fasiləsiz hərəkət yaradır. Onun üzərindəki bir cüt neftçi əlcəyi insan varlığının səssiz şahidi, əməyə və bir çox insanın zəhmətinə dair xatirədir.

"Qeyzer" adlı müasir incəsənət sərgisi fevralın 2-dək davam edəcək.

# Azərbaycanın sülh diplomatiyası və Zayed Mükafatı



**Müasir dünya nizamında hərbi qələbəni dayanıqlı sülhə çevirmək hər bir liderin qarşısında duran çətin və ali missiyadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən layiq görüldüyü "Zayed İnsan Qardaşlığı Mükafatı" məhz bu missiyanın qlobal səviyyədə təqdir olunmasının bariz nümunəsidir. Bu mükafat sadəcə, diplomatik uğurun deyil, həm də Azərbaycanın sülh gündəliyinin dünya tərəfindən qəbul edilməsinin təsdiqidir.**

AZƏRTAC mövzu ilə bağlı məqaləni təqdim edir.

## Şeyx Zayed Fondu: Humanizm və qlobal həmrəylik rəmzi

Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsa Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər şəxslər var.

Onu da qeyd edək ki, fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi isə Azərbaycanın həm regional, həm də qlobal miqyasda sülh quruculuğu prosesindəki aparıcı roluna beynəlxalq səviyyədə verilən yüksək qiymətdir.

## Müharibədə Qalib Lider, sülhdə Qalib Dövlət

Tarix sübut edir ki, güclü sərkərdələr çoxdur, lakin onlardan yalnız bir neçəsi qazandığı hərbi zəfəri siyasi sülhə çevirməyi bacarıb. Azərbaycanın 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində əldə etdiyi mütləq Qələbə beynəlxalq hüququn bərpası idi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiya göstərdi ki, döyüş meydanında qazanılan uğur, həm də uzaqgörən diplomatik manevrlərlə möhkəmləndirilməlidir. Azərbaycan sadəcə, torpaqlarını azad etmədi, həm də regionda yeni geosiyasi reallıq yaradaraq uzunmüddətli sülhün təməlini qoydu. Bu prosesdə hərbi gücün beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılması ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsinə şərait yaratdı.

Zəfərdən sonra həyata keçirilən genişmiqyaslı quruculuq işləri və "Böyük qayıdış" proqramı hərbi Qələbənin necə mülki tərəqqiyə çevrilməsinin ən bariz nümunəsidir. Beləliklə, Azərbaycan dövləti sübut etdi ki, əsl sərkərdəlik məharəti yalnız müharibədə qalib gəlmək deyil, həm də sülh yaratmaq və gələcək nəsillər üçün sabitlik təmin etməkdədir.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə münaqişədən sonrakı dövrdə "məğlub tərəfi əzmək" deyil, "regionun inkişafı üçün sülh təklif etmək" yolunu seçdi. Bu, qalib tərəfin nümayiş etdirdiyi ən böyük siyasi iradə və humanizm nümunəsidir.

Bakının təklif etdiyi prinsiplər üzərində qurulan sülh gündəmi bölgədəki bütün xalqların rifahına xidmət edən yeni iqtisadi modelin əsasını qoyur. Dağıdıcı müharibə ritorikasını quruculuq və bərpa prosesi ilə əvəz edən Azərbaycan Cənubi Qafqazın nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün real imkanlar yaradır. Bu yanaşma dövlətimizin yalnız hərbi qüdrətini deyil, həm də strateji baxışını və beynəlxalq təhlükəsizliyə sadiqliyini bütün dünyaya nümayiş etdirir. Beləliklə, sülh təşəbbüsləri regionda nifrət səhifəsini bağlayaraq, qarşılıqlı hörmətə əsaslanan yeni dövrün qapılarını açır.

## Revanşizmə qarşı qətiyyətli mövqe

Müstəqil siyasət yürüdən Azərbaycan bölgədə sabitliyin əsas təminatçısı kimi strateji hədəflərinə doğru inamla irəliləməkdə davam edir. Lakin Azərbaycanın sülh əlini uzatmasına baxmayaraq, regionda hələ də Ermənistanı revanşizmə sürükləmək istəyən qüvvələr mövcuddur. Xarici dairələrin Ermənistanı silahlandırmaq və regionu yeni qarşıdurmaya sövq etmək cəhdləri bölgədəki kövrək sülhü təhdid edir. Bu cür təzyiqlər və süni gərginlik yaratmaq cəhdləri Azərbaycanın sarsılmaz iradəsi və hərbi hazırlığı qarşısında hər zaman iflasa məhkumdur. Rəsmi Bakı dəfələrlə qeyd edib ki, Ermənistan öz gələcəyini xarici qüvvələrin maraqlarına qurban verməməlidir, sülh müqaviləsini imzalayaraq regional əməkdaşlığa qoşulmaq onun üçün yeganə çıxış yoludur.

Prezident İlham Əliyevin prinsipial və qətiyyətli siyasəti bu kimi cəhdlərin qarşısında keçilməz bir səddə çevrilib - Azərbaycan öz suverenliyini tam bərpa edərək diktə edən tərəf statusunu qoruyub. Həmçinin regionda "boz zonalar"a və



separatizm qalıqlarına son qoyulub. Bütün təzyiqlərə baxmayaraq, milli maraqlar hər şeydən üstün tutulub.

## Vaşinqton görüşü: İllərin münaqişəsinə tarixi son

Sülh prosesinin ən mühüm mərhələlərindən biri kimi, 2025-ci ilin avqust ayında keçirilən Vaşinqton görüşünü qeyd etmək olar. Bu görüşdə məsələyə faktiki olaraq nöqtə qoyulması Azərbaycanın iradəsinin dünya gücləri tərəfindən qəbul edildiyini göstərdi. Bu sadəcə, bir sülh sazişinin paraflanması deyil, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam və şərtsiz tanıması, revanşist xülyalardan rəsmən imtina etməsi demək idi.

Bu diplomatik qələbə göstərdi ki, Azərbaycanın hərbi sahədəki qətiyyəti artıq beynəlxalq hüquqi sənədlərdə öz əksini tapan mütləq reallığa çevrilib. Vaşinqtonda əldə olunan razılaşma Cənubi Qafqazda kənar manipulyasiyaların qarşısını alaraq, birbaşa dialoqun və qarşılıqlı etimadın ən yüksək zirvəsi hesab olunur. Ermənistanın bu rəsmi öhdəliyi regionun iqtisadi dirçəlişi üçün illərdir gözlənilən maneələri aradan qaldırdı və genişmiqyaslı əməkdaşlıq üçün hüquqi zəmin yaratdı. Beləliklə, dünya birliyi Azərbaycanın haqlı mövqeyini və yeni regional düzənin qurucusu olduğunu bir daha təsdiqləmiş oldu.

## Münaqişənin həllində Azərbaycan modeli

Azərbaycanın mütləq Qələbəsi və ondan sonrakı sülh quruculuğu prosesi dünya üçün nümunəvi təcrübədir. Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiyini Azərbaycan təkbaşına, həm döyüş meydanında, həm də diplomatik masada həll etdi.

- Hərbi güclə beynəlxalq hüququn uzlaşdırılması;
- İşğaldan azad edilmiş ərazilərin sürətli bərpası ("Böyük qayıdış");
- Qonşu dövlətlərlə balanslı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq.

Azərbaycanın sadalanan bu istiqamətlərdə əldə etdiyi təcrübə göstərdi ki, beynəlxalq hüququn dondurulmuş münaqişələr qarşısındakı acizliyi yalnız milli iradə və güclü dövlət strategiyası ilə aradan qaldırıla bilər. Azərbaycanın tətbiq etdiyi model həm hərbi əməliyyatların dəqiqliyi, həm də mülki əhalinin təhlükəsizliyinin qorunması baxımından müasir hərb tarixinə yeni standart gətirdi. Ölkəmiz sübut etdi ki, ədalətli sülhə gedən yol status-kvonu qəbul etməkdən deyil, işğala son qoyaraq əsl legitimliyi bərpa etməkdən keçir. Beləliklə, Bakının nümayiş etdirdiyi qətiyyət dünyada suverenlik və ərazi bütövlüyü uğrunda mübarizə aparan digər dövlətlər üçün mənəvi və siyasi mayaka çevrildi.

Dövlətimizin başçısının layiq görüldüyü Şeyx Zayed Fondunun mükafatı bu böyük iradənin, ədalətli sülhün və Azərbaycanın seçdiyi əməkdaşlıq yolunun rəmzidir. Prezident İlham Əliyevin diplomatik məharəti sayəsində Cənubi Qafqaz artıq münaqişə zonası deyil, qlobal sabitlik, logistika və enerji mərkəzinə çevrilməkdədir.

Eyni zamanda bu nüfuzlu mükafat Azərbaycanın humanist addımlarına və sülh quruculuğuna verilən yüksək qiymətin təzahürüdür. Ölkəmiz artıq yalnız enerji resursları ilə deyil, həm də regionda təhlükəsizliyin əsas dayağı kimi qlobal miqyasda nüfuz qazanıb. Zəngəzur dəhlizi kimi strateji layihələrin reallaşması ilə Azərbaycanın beynəlxalq tranzit xəritəsindəki yeri daha da möhkəmlənir və bu, bütün Avrasiya regionu üçün yeni inkişaf imkanları vəd edir. Beləliklə, qazanılan hər bir uğur Azərbaycanın suveren gücünün və sülhsevər siyasətinin sarsılmazlığını bir daha təsdiq edir.

# İlham Əliyevin sülh modeli

## Qlobal səviyyədə dəyərləndirilir və təqdir olunur

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi Zəfər regionda onilliklər boyu davam edən münaqişəyə son qoyaraq, sülh erasının əsasını qoydu. Bu mütləq qələbə təkcə ərazi bütövlüyünün bərpası deyil, həm də beynəlxalq hüququn aliliyinin və ədalətin zəfəri kimi dünya tarixinə düşdü. Azərbaycanın təqdim etdiyi sülh modeli münaqişələrin həllində hərbi qüdrətlə diplomatik uzaqgörənliyin vəhdətini nümayiş etdirən nümunəvi bir təcrübə oldu. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondunun Azərbaycanın bu nailiyyətini ali mükafatla təltif etməsi Prezident İlham Əliyevin sülh quruculuğu missiyasının qlobal miqyasda ən yüksək səviyyədə qəbul edildiyinin bariz göstəricisidir.**

Şeyx Zayed Fondu 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qaliblərinin adlarını açıqlayıb. Mükafata layiq görülənlər arasında Azərbaycan Prezidenti İlham Əliyev də var. Mükafat İlham Əliyevə Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib. Bu tarixi hadisə Azərbaycan diplomatiyasının və Prezident İlham Əliyevin sülh quruculuğu missiyasının qlobal miqyasda ən yüksək səviyyədə təsdiqi hesab oluna bilər.

2026-cı ilin mükafatçıları dialoq və birgəyaşayış sahəsində tanınmış şəxslər və mütəxəssislərdən ibarət müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən seçilib.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər komitəsinin üzvü və Mükafatın baş katibi Məhəmməd Əbdülsəlam deyib ki, Ermənistan və Azərbaycan arasında tarixi sülh sazışının paraflanması mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir: "Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur".

Mükafatlar bu il fevral ayının 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq. Bu tarix həm də beynəlxalq "İnsan Qardaşlığı Günü" kimi qeyd olunur və Azərbaycanın adının bu siyahıda olması qürurvericidir.

Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsa Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər nüfuzlu şəxslər var. Fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi isə Azərbaycanın həm regional, həm də qlobal miqyasda sülh quruculuğu prosesindəki aparıcı roluna beynəlxalq səviyyədə verilən yüksək qiymətdir.

Prezident İlham Əliyevin sülh siyasəti sadəcə, münaqişəyə son qoyulması deyil, regionun gələcək onilliklər üçün təhlükəsizlik arxitekturasının qurulması strategiyasıdır. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad edəndən sonra gözləmə mövqeyi tutmadı, əksinə, Ermənistana 5 baza prinsipi əsasında sülh müqaviləsi təklif edərək gündəmi diktə edən tərəf oldu. Dünya tarixində nadir hallarda rast gəlinir ki, hərbi yolla öz torpaqlarını azad edən tərəf dərhal sonra qarşı tərəfə genişmiqyaslı sülh təklif etsin. Azərbaycan savaşda qələbə qazanaraq, həm də regionu inkişaf və əməkdaşlıq məkanına çevirməyi hədəflədi.

Əlbəttə, sülhə gedən yol heç də hamar olmadı. Bu yolda Azərbaycan dövləti həm regional, həm də qlobal səviyyədə bir çox maneə ilə üzləşdi. Müharibədən sonrakı dövrdə Ermənistandakı radikal qüvvələr və revanş xəyalları ilə yaşayan dairələr regionu yenidən alova bürüməyə çalışdılar. Bəzi Qərb dövlətləri və ermənipərəst mərkəzlər regionda sülhü deyil, münaqişənin dondurulmuş vəziyyətdə qalmasını və Azərbaycanın suverenliyinə kölgə salmağı hədəflədilər. Sülhə gedən yolda Ermənistanın və ona havadarlıq edən bəzi xarici dairələrin regionu yenidən qarşıdurmaya sürükləmək cəhdləri Prezident İlham Əliyevin prinsipial mövqeyi ilə dəf edildi.

Azərbaycan öz iradəsini diktə edərək, beynəlxalq hüququn prinsiplərinə söykənən ədalətli sülhü regiona gətirdi. 2023-cü ilin sentyabr ayında antiterror tədbirləri sülh prosesinə mane olan qanunsuz ünsürləri tamamilə təmizləyərək, yekun saziş üçün yolu açdı. Prezident İlham Əliyev yalnız Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi, həm də Cənubi Qafqazda onilliklər boyu həlli mümkün görünməyən davamlı sülhün formulasını kəşf etdi.

Həqiqi güc təkcə müharibədə qalib gəlmək deyil, həm də o qələbəni daimi və ədalətli sülhə çevirə bilmək bacarığıdır. Dünya hərb tarixi sübut edib ki, bir çox lider müharibədə qalib gəlsə də, sülh prosesində strateji səhvlərə yol verərək qələbənin bəhrələrini itirib. Prezident İlham Əliyev "müharibədə qalib gələn lider sülhdə də qalibdir" tezisini real siyasətdə sübuta yetirdi. Dövlət başçısının düşünülmüş siyasəti sübut etdi ki, dayanıqlı sülh yalnız suverenlik və sərhədlərin toxunulmazlığı şərti ilə mümkündür. Prezidentin "diplomatik şahmat" taxtasında hər addımını dəqiqliklə hesablaması Azərbaycanın ədalətli sülh prinsipini legitimləşdirdi.

Dövlət başçısının sülh gündəliyi beynəlxalq münasibətlər sistemində münaqişələrin həlli üzrə "Azərbaycan modeli" kimi tarixə düşdü. Azərbaycan sübut etdi ki, hərbi qələbə yalnız başlanğıcdır. Əsl məharət hərbi üstünlüyü beynəlxalq səviyyədə tanınan hüquqi və siyasi reallığa çevirməkdir. Dövlətimiz kənar təzyiqlərə boyun əymədən, sülhün yalnız ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diktə etdi. BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrini özü icra edərək, beynəlxalq hüququn işlək olduğunu dünyaya göstərdi. Eyni zamanda Azərbaycan sübut etdi ki, mütləq qələbə yalnız qarşı tərəfi məğlub etmək deyil, həm də onu sülhün qaçılmazlığına inandırmaq və regionun gələcək əmin-amanlığını təmin etməkdir. Ermənistanı revanşizmə sürükləyənlərin qarşısında sarsılmaz bir sədd kimi dayanan Azərbaycan lideri sülh gündəmi ilə regiona həm də iqtisadi və mənəvi dirçəliş gətirdi.

Mükafat göstərir ki, dünya gücləri və nüfuzlu mərkəzlər regionun gələcəyini qarşıdurmada deyil, Prezident İlham Əliyevin təklif etdiyi sülh gündəliyində, birgəyaşayış və kommunikasiyaların açılması layihəsində görürlər. Sülh gündəliyi həm də nəqliyyat dəhlizlərinin açılması və iqtisadi əməkdaşlıq vədinə söykənir. Bu, Ermənistanı təcrid edən deyil, onu sivil və inkişaf edən Cənubi Qafqazın bir hissəsinə çevirmək məqsədi daşıyan humanist bir yanaşmadır. O baxımdan, mükafat həm də münaqişə tərəfləri arasında humanitar əzablara son qoyulmasına, insanların yenidən birgəyaşayış imkanlarının yaradılmasına verilən yüksək qiymətdir. Mükafatın adında yer alan "İnsan Qardaşlığı" ifadəsi Prezidentin Azərbaycanı müxtəlif dinlərin və mədəniyyətlərin dinc yanaşı yaşadığı bir mərkəz kimi inkişaf etdirməsinin də nəticəsidir.

Prezident İlham Əliyevin "İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın son illərdə yürütdüyü aktiv sülh diplomatiyasının və regionda yaratdığı yeni reallıqların beynəlxalq səviyyədə ali təsdiqidir. Bu təkcə bir təltif deyil, Azərbaycan dövlətinin sülh modelinin dünya tərəfindən qəbul edilməsidir. Dəyərli mükafat isə bu ədalətli sülhün qlobal möhürüdür.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Avrasiyanın iqtisadi kimliyinin formalaşmasında mühüm yer tutur

**Qlobal məkana sürətlə inteqrasiya olunan Azərbaycan bir sıra nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməklə yanaşı, dünya miqyasında cərəyan edən sosial-iqtisadi proseslərdə də fəal mövqe nümayiş etdirir. Bu baxımdan ölkəmizin iştirak etdiyi beynəlxalq platformalar sırasında Davos Dünya İqtisadi Forumu xüsusi əhəmiyyət kəsb edir. Ənənəvi olaraq hər il təşkil olunan və cari ildə 56-cı iclasını keçirən forum çərçivəsində qlobal iqtisadi gündəliyin aktual məsələləri üzrə dərin müzakirələr aparılır, müxtəlif mövzular ətrafında panel sessiyaları keçirilir və beynəlxalq ictimaiyyətə mühüm çağırışlar ünvanlanır.**

AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaydığı məlumata istinadən xəbər verir ki, Azərbaycan Davos Forumunda ilk dəfə 1995-ci ildə iştirak edib və həmin dövrdən bu ənənə davam etdirilir. Xüsusilə, 2007-ci ildən etibarən Prezident İlham Əliyevin bu tədbirlərdə mütəmadi iştirakı Azərbaycanın mövqeyini daha da möhkəmləndirir, ölkəmizin sosial-iqtisadi, siyasi, enerji, nəqliyyat və digər sahələrdə əldə etdiyi uğurları dünyaya təqdim edir.

19-23 yanvar tarixində İsveçrənin Davos şəhərində keçirilən 56-cı Dünya İqtisadi Forumu "Dialoq ruhu - qlobal mürəkkəblik və bölünmə şəraitində fikir mübadiləsi və anlaşma daha vacibdir" devizi altında dünya liderlərini, dünyanın aparıcı iş adamlarını bir araya gətirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də hal-hazırda 56-cı forumda iştirak etmək üçün Davosdadır və dövlət başçısının forumun ikinci günü - 20 yanvar tarixində "Avrasiyanın iqtisadi




kimliyinin müəyyənləşdirilməsi" panelində çıxışı nəzərdə tutulur. Bu paneldə çıxış edən liderlər Qərbdən Şərqə qədər uzanan rəqabətli maraqlar fonunda Qafqaz və Mərkəzi Asiyada təsir və güc balansının yenidən formalaşması kontekstində "Region bu genişlənən marşrutlardan maksimum fayda əldə etmək və onların daxilində öz rolunu möhkəmləndirmək üçün hansı addımları atmalıdır?" sualı ətrafında öz fikirlərini bölüşəcəklər. Qeyd edək ki, 56-cı forumda ABŞ Prezidenti Donald Trampın da çıxışı və "Xüsusi müraciəti" nəzərdə tutulur ki, bu da forumun əhəmiyyətini daha da artırır.

Ümumilikdə, Davos Dünya İqtisadi Forumunun 56-cı iclasında 130-dan artıq ölkədən 3000 nümayəndə iştirak edir. Tədbirə 65 dövlət və hökumət başçısı daxil olmaqla, 400 siyasi lider, 850-dən çox iri şirkət rəhbəri, eləcə də qabaqcıl texnologiya sahəsində fəaliyyət göstərən nüfuzlu liderlər qatılıb. Bu geniş təmsilçilik forumun qlobal miqyasda dialoq və əməkdaşlıq üçün mühüm platforma olduğunu bir daha təsdiqləyir.

Forumun 2026-cı il toplantısı çərçivəsində qlobal çağırışlara cavab olaraq beş əsas prioritet müəyyən edilib. Bu prioritetlər qlobal iqtisadi artım tempinin zəiflədiyi bir şəraitdə ticarət və investisiya imkanlarının genişləndirilməsi yolu ilə yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasını, innovasiyaların, xüsusilə süni intellektin tətbiqi zamanı onların biznesə və məşğulluğa təsirinin qiymətləndirilməsini, habelə bu texnologiyalardan istifadəyə dair normativ və etik çərçivələrin müəyyənləşdirilməsini əhatə edir. Eyni zamanda beynəlxalq müstəvidə və cəmiyyət daxilində etimadın bərpası məqsədilə yeni əməkdaşlıq mexanizmlərinin araşdırılması, insan kapitalının inkişafının təşviqi və bu sahəyə investisiyaların artırılması yolu ilə əmək bazarının transformasiyası və dayanıqlılığın gücləndirilməsi əsas istiqamətlər sırasında yer alır. Prioritetlər çərçivəsində həmçinin bərpaolunan, inkluziv, dairəvi və təbiətə əsaslanan iqtisadi modellər vasitəsilə uzunmüddətli rifahın təmin edilməsi xüsusi diqqət mərkəzində saxlanılır.

Müəyyən edilən istiqamətlər göstərir ki, innovasiyaların tətbiqi, müasir tələblərə cavab verən insan kapitalının formalaşdırılması, çoxtərəfli əməkdaşlığın gücləndirilməsi və cəmiyyətlə təbiət arasında balansın qorunması aktual olaraq qalır və gələcəyin əsas çağırışları kimi dəyərləndirilir. Bu yanaşmalar forumun əsas məqsədlərində də öz əksini tapır. Belə ki, tədbirin başlıca hədəfləri qlobal iqtisadi və geosiyasi problemlərin həlli yollarının müzakirəsi üçün fikir mübadiləsinin təşkili, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, innovasiya və texnoloji inkişafa dəstəyin artırılması, eləcə də davamlı və inklüziv inkişaf üzrə effektiv həll yollarının müəyyənləşdirilməsindən ibarətdir.

Azərbaycan Davos İqtisadi Forumunda hər zaman fəal iştirak edib, o cümlədən 56-cı forumda da bu ənənə davam etdirilir. Beləliklə də Azərbaycan beynəlxalq əməkdaşlıq və inkişafa öz töhfəsini verməklə həm də qlobal mühitdə mövqeyi möhkəmləndirir, gələcəkdə daha sürətli tərəqqi üçün etibarlı təcrübə formalaşdırır.




# Qürur tariximiz



**20 Yanvar faciəsindən 36 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Bakıda və Azərbaycanın ayrı-ayrı bölgələrində qanlı qırğınlar törətdiyi o məşum saatlarda doğulmuş körpələrin artıq 36 yaşı var. Gənc nəsil üçün o günlər Bakıdakı Şəhidlər xiyabanında, paytaxtda və regionlarda 20 Yanvar şəhidlərinin xatirəsini yaşadan abidələrdə, adlarda simvollaşan tarixdir.**

Bu tarixi yaşadıb nəsillərdən-nəsillərə ötürmək hər bir azərbaycanlının öz milli varlığı qarşısındakı mənəvi borcudur. Çünki 20 Yanvar bütün ağrı-acılarına, məşəqqətlərinə, verdiyimiz itkilərə rəğmən çoxəsrlik tariximizin ən qürurlu anlarındandır. O gecə haqq nahaqqa, ədalət zora, sevgi zalıma qalib gəldi, Bakı küçələrində ölümsaçan sovet tanklarının qarşısına əliyalın çıxmış Azərbaycan insanlarının fədakarlığı, igidliyi, milli qeyrəti qarşısında böyük bir imperiya tarix səhnəsində təslim oldu.

Bütün dünya ictimaiyyəti heç bir ölçüyə sığmayan haqsızlığın miqyasının, faciəyə aparan ədalətsiz siyasətin, daha doğrusu, xəyanətkarlığın hüdud tanımadığının şahidinə çevrildi. Bu qanlı tarixi unutdurmaq üçün vaxtilə nə qədər təşəbbüslər oldu: qəzetlər buraxılmadı, dövlət televiziyasının enerji bloku partladıldı, ölkənin bütün kütləvi informasiya vasitələri iflic vəziyyətinə salındı. Hətta 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr bilərəkdən təhrif edilərək yanlış yozuma və unutqanlığa məhkum olundu. Lakin xəyanətkarlar nədənsə anlamırdılar ki, Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, vətənin azadlığı və müstəqilliyi uğrunda ən ağır sınaqlara dözmək, hətta şəhid vermək şücaətini bütün dünyaya göstərmək əzmindədir.

Bu qanlı tarix - 20 Yanvar faciəsi həm də SSRİ adlanan nəhəng imperiyanın iflasında əsas amillərdən biri oldu.

Həmin gün 147 dinc insanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, 744 vətəndaşımızın yaralanması xalqımız üçün böyük dərd idi. Lakin bu hadisə eyni zamanda insanlarımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin dönüş nöqtəsinə çevrildi. O gecə xalq həm də vətən uğrunda həlak olan qəhrəmanlarını tanıdı.

## Müstəqillik mübarizəsinin simvolu

Ötən əsrin 80-ci illərinin sonlarına doğru keçmiş Sovet İttifaqı dərin iqtisadi-siyasi böhran keçirirdi. Sovet İttifaqının beynəlxalq səhnədən də təcrid edilməsi güclənmişdi. SSRİ-nin xarici siyasətindəki tənəzzül, xüsusilə Avropa və digər bölgələrdəki müstəqillik hərəkatları sovetlərin nüfuzunu xeyli zəiflətmişdi. 1989-cu ildə Berlin divarının yıxılması və Şərqi Avropadakı inqilablar Sovet İttifaqının artıq keçmiş gücünü qorumaqda çətinlik çəkdiyini göstərirdi. Bu beynəlxalq təzyiqlər də Sovet İttifaqının daxili çətinliklərinə əlavə olaraq, onun dağılması prosesini yaxınlaşdırırdı. Yarıtmaz fəaliyyəti ilə böhranı daha da kəskinləşdirən M.S.Qorbaçov özünəməxsus avantürizmlə vəziyyəti "yenidənqurma" və "şəffaflıq" kimi boş ifadələrlə dəyişməyə çalışsa da, gözlənilənlərin tamam əksi oldu. İslahat cəhdləri milli respublikalar arasında, o cümlədən Azərbaycanda müstəqillik istəyini daha da gücləndirdi. Bu istək təbii idi, çünki reallıqları aydın müşahidə edib obyektiv dəyərləndirməyi bacaran hər kəs birlik, ittifaq adı altında Azərbaycana qarşı necə haqsızlıqların edildiyini, ermənilərin ərazi iddialarının mərkəzdən necə körükləndiyini, onlara nələrinsə qarşılığında ən yüksək səviyyədə böyük dəstək verildiyini yaxşı görürdü.

Üstəlik, Azərbaycanın zəngin sərvətləri illərlə yağıcasına qarət edilib aparılırdı, resurslarımız respublikamızın inkişafına sərf olunmurdu. Bunun nəticəsində nəinki ucqar əyalətlərdə, hətta Bakıya yaxın qəsəbə və kəndlərdə belə yaşayış üçün normal infrastruktur yox idi.

Ümummilli Lider Heydər Əliyevin SSRİ rəhbərliyindəki vəzifəsindən qərəzli şəkildə uzaqlaşdırılmasından dərhal sonra erməni separatçılarının Kremldən aldıqları dəstəklə onların ərazi iddialarına cavab olaraq Azərbaycan Sovet İttifaqının siyasi quruluşuna qarşı güclü müstəqillik hərəkatının başladığı respublika kimi ön plana çıxdı. Rejimin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda bu dalğanın yüksəlməsinin qarşısını müəyyən qədər alsa da, əhalinin narazılığını qətiyyən boğa bilmədi. Millətin səbri artıq tükənmişdi.

1988-ci ildən etibarən Azərbaycanda müstəqillik istəyini açıq şəkildə ortaya qoyan və sovet rəhbərliyinin təzyiqlərinə dözməyən siyasi-sosial hərəkatlar gücləndi. Azərbaycan xalqı xüsusilə 20 Yanvar faciəsi zamanı sovet rejiminin qəddar hərbi müdaxiləsinə cavab olaraq öz istiqlal haqqını müdafiə etdi və bu qəhrəmanlıq mübarizəsi digər respublikalara da ilham verdi. Bu mənada 20 Yanvar faciəsi bütün keçmiş SSRİ məkanında müstəqillik mübarizəsinin simvoluna çevrildi.

## Tarix şərtlərlə danışmağı sevmir

Hər dəfə Şəhidlər xiyabanını ziyarət edəndə başdaşlarından boylanan o məsum baxışları görüncə düşünürsən ki, görəsən 20 Yanvar faciəsi baş verməyə bilərdimi? Tarix şərtlərlə danışmağı sevmir, zamanın çarxını geri çevirib, baş verənlərin ssenarisini istəklərinə uyğun yazmaq, əfsuslar olsun ki, mümkün deyil. Amma bəzi ssenariləri nəzərdən keçirəndə fikirləşirsən ki, sovet və Azərbaycan rəhbərliyi arasında daha çox danışıqlar, anlaşmalar, müzakirələr bəlkə də hərbi müdaxilənin qarşısını alardı, bu boyda faciə baş verməzdi. Amma o dövrdə Azərbaycana rəhbərlik edənlərin yarıtmazlığı, kölgəsindən qorxması, xalqın taleyini deyil, şəxsi mənafelərini düşünməsi, xəyanətkar xisləti bu ssenarini istisna edirdi.

Azərbaycanda xalqın apardığı müstəqillik mübarizəsi o zaman beynəlxalq ictimaiyyət tərəfindən daha çox dəstəklənsəydi, Sovet İttifaqı belə bir hərbi müdaxiləyə bəlkə də cəsarət etməzdi. Bununla belə Azərbaycanda yüzlərlə dinc vətəndaşın vəhşicəsinə qətlinə verilən bəzi beynəlxalq reaksiyalar, ayrı-ayrı böyük güclərin dərhal hadisə üzərində öz regional oyunlarını qurub xalqımızın deyil, zorun, SSRİ-nin totalitar dövlət aparatının yanında görünməsi bu ehtimala da yer qoymurdu.

Sovet İttifaqının öz daxilindəki zəifliklər, siyasi dəyişikliklər, dərin çatlar bəlkə də tədricən məntiqi iflas sonluğuna çatıb 20 Yanvar faciəsinin qarşısını ala bilərdi. Amma buna hələ xeyli vaxt vardı, keçmiş SSRİ zəifləsə də, qanlı dişləri hələ tökülməmişdi.

Bu düşüncələr içində özün üçün qət edirsən ki, 20 Yanvar faciəsi o dövrün siyasi və hərbi şəraitinə görə müəyyən dərəcədə qaçılmaz idi. Xalqımızın müstəqillik mübarizəsi Sovet İttifaqının totalitar rejimi tərəfindən ciddi şəkildə təqib edildiyi bir dövrdə baş verirdi. Sovet rəhbərliyi Azərbaycandakı müstəqillik və azadlıq hərəkatını heç bir vəchlə qəbul etmir, onun qarşısını almağa çalışırdı.

20 Yanvar faciəsi Azərbaycanın müstəqilliyinin necə və hansı çətinliklər hesabına başa gəldiyini, xalqımızın və dövlətimizin tarixində yalnız bir faciə olmaqla qalmadığını, həm də bir çox mənəvi və siyasi əhəmiyyətli nəticəyə gətirib çıxardığını göstərir. Bu hadisə Azərbaycan müstəqilliyinə gedən yolda mühüm bir dönəm oldu və xalqın iradəsinin möhkəmliyini, dövlətin müstəqillik əzmini simvolizə etdi.

Tarixə bir nəzər: o zaman Dağlıq Qarabağın idarə olunması mərkəzin nümayəndəsi A.İ.Volskinin başçılığı ilə yaradılmış Xüsusi İdarəetmə Komitəsinə həvalə olunmuşdu. SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədlərdə belə bir təsəvvür yaratmağa çalışırdı ki, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə bərabərlik mövqeyindən çıxış edir. Halbuki Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibət açıq-aşkar göz qabağında idi. Azərbaycanlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. Bu, 1988-ci ildə Ermənistanda, eləcə də DQMV-də başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi də hesab edilə bilərdi.

Ermənistanda yaşayan azərbaycanlılar misli görünməmiş qəddarlıqla ata-baba yurdlarından çıxarılmağa məcbur edilən zaman neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. Bütün bunlar SSRİ rəsmiləri tərəfindən tam sükutla müşayiət olunurdu. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Bu xəyanətkar planların həyata keçirilməsinin qarşısını almaq üçün xalq ayağa qalxdı. SSRİ rəhbərliyi isə hüququ pozulan azərbaycanlılara divan tutmaq yolunu seçdi.

O gecə nəbzi Azərbaycan adı ilə döyünən hər kəs Vətənin istiqlalı uğrunda döyüşürdü. Soydaşlarımızın əllərində silah yox idi, silah zalımlarda - imperiya nökərlərində idi, amma əliyalın sovet tanklarının qarşısına çıxmış insanların qəlbindəki sevgi bu silahlardan, onların ölümsaçan güllələrindən çox-çox güclü idi. Qətlə yetirilərkən ürəyinin üstündən bir parça kağıza yazdığı "And" çıxan Ülvi Bünyadzadəni, İlham və Fərizənin qüssəli sevgi hekayətini, başqa şəhidlərimizin yarımçıq qırılmış ömrünü, həmin gecə yaralanmış unudulmaz müəllimimiz Əliş Nəbilini, 20 Yanvar faciəsindən bir neçə gün sonra ürəyi partlayan görkəmli aktyorumuz Hamlet Xanızadəni və digər mərd, vətənpərvər insanlarımızı kim unudar?!

O məşum gecə bitmişdi, təqvim də yerini yeni səhərlərə, yeni gecələrə vermişdi, amma istiqlal mübarizəsi davam edirdi.

## Heydər Əliyev qətiyyəti

20 Yanvar faciəsi Azərbaycanın müstəqillik mübarizəsini daha da gücləndirdi. Faciə nəticəsində xalqın birliyi və azadlıq istəyi daha da möhkəmləndi. Verilən qurbanlar müstəqillik uğrunda mübarizəni daha da alovlandırdı və bunun daha geniş kütlələrə yayılmasına səbəb oldu. Sovet İttifaqının Azərbaycan üzərindəki azadlıq istəklərinə qarşı sərt reaksiyası ölkədə müstəqillik istəyinin hər keçən gün daha da artmasına şərait yaratdı. 20 Yanvar faciəsindən bir müddət sonra - 1991-ci ilin 18 oktyabrında Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyini elan edərək istiqlalına qovuşdu.

20 Yanvar hadisəsi xalqın qəhrəmanlıq ruhunu yüksəltdi. Şəhidlərin xatirəsi müstəqil Azərbaycan üçün simvolik bir mənaya çevrildi.

20 Yanvar faciəsi beynəlxalq ictimaiyyətin diqqətini çəkdi. Bu hadisə dünya səviyyəsində böyük səs-küyə səbəb oldu və dünya güclərinin məkrli oyunlarına, ikrah doğuran mövqelərinə rəğmən milyonlarla sadə insan Sovet İttifaqının Azərbaycanın müstəqilliyinə qarşı hərbi müdaxiləsini, dinc insanları qətlə yetirməsini qətiyyətlə pislədi.

Bu faciənin beynəlxalq əks-sədasında həmin dövrdə Moskvada qeyri-rəsmi təcrid vəziyyətində yaşayan Ümummilli Lider Heydər Əliyevin böyük rolu oldu. Faciənin səhəri günü bütün çətinliklərə, maneələrə, təxribat ehtimallarına, hətta sui-qəsd riskinə baxmayaraq, Ulu Öndər ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Xalqımızla həmrəylik nümayiş etdirdi. Xarici media mənsublarının iştirakı ilə Azərbaycan nümayəndəliyində geniş mətbuat konfransı keçirib faciənin səbəbkarlarını, həmçinin 20 Yanvar canisi M.S.Qorbaçovu beynəlxalq ictimaiyyət önündə ifşa etdi.

Ulu Öndər Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər lider oldu. Sarsıntı içərisində yaşayan xalqımız Ümummilli Liderin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı gördü. Bəyanatda Azərbaycan xalqına qarşı cinayət törədən şəxslərin ciddi şəkildə cəzalandırılması qarşıya qoyuldu. Həmin məsələ Ümummilli Liderin fəaliyyətinin bütün sonrakı mərhələlərində də aktuallığını qoruyub saxladı. Heydər Əliyev həmişə bu mövqedə olmuşdur ki, xalqa qarşı törədilən hər hansı cinayət cəzasız qalmamalıdır. Təsadüfi deyil ki, hadisəyə ilk hüquqi-siyasi qiymət də 1991-ci ilin noyabr ayında - onun Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtda verildi. Həmin il noyabrın 21-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi tərəfindən qəbul edilmiş müvafiq qərarda 20 Yanvarın Milli Matəm Günü kimi qeyd olunması əksini tapdı. Sənəddə ilk dəfə olaraq faciənin əsas günahkarları adbaad sadalandı və onların birbaşa məsuliyyət daşıdıqları göstərildi. Bu, hadisəyə verilən ilk rəsmi hüquqi-siyasi qiymət idi.

Ölkə rəhbərinin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı imzaladığı fərmanda Milli Məclisə tövsiyə olundu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin.

Azərbaycan Respublikasının Milli Məclisi həmin məsələyə xüsusi sessiya həsr edərək bir neçə gün davam edən iclaslarda 20 Yanvar hadisələrinin əsl səbəblərini açıqladı. Bu, xalqımızın, dövlətimizin milli tariximiz qarşısında müqəddəs borcu idi. Xalqımız milli azadlıq mübarizəsini şanlı tariximizin fonunda yenidən qiymətləndirdi. 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" xüsusi qərar qəbul edildi. Ümummilli Liderin 2000-ci ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilirdi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir.

20 Yanvar faciəsi Azərbaycanda insan hüquqları və demokratiya uğrunda mübarizənin də simvoluna çevrildi. Bu tarixin qürur dolu hekayəsi, mənəvi enerjisi müstəqil ölkəmizdə aparılan dövlət quruculuğu proseslərində, vətəndaş cəmiyyətinin formalaşmasında, gənc nəslin vətənpərvərlik tərbiyəsində çox mühüm rol oynadı. 2020-ci ildə 44 günlük Vətən müharibəsində, 2023-cü ildə antiterror əməliyyatında ordumuzun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti ermənilərin və onların havadarlarının bölgədəki siyasətinin iflası ilə nəticələndi. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, Azərbaycan Qələbə qazandı, suverenliyini, ərazi bütövlüyünü tam bərpa etdi.

Prezident İlham Əliyevin liderliyi ilə bu gün ərazi bütövlüyünü, suverenliyini tam təmin etmiş tarixin ən güclü Azərbaycanının müstəqillik salnaməsində 20 Yanvar şanlı şərəf səhifəsidir.

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin müqəddəs xatirəsi, bu amal uğrunda yaralanmış, sağlamlığını qurban vermiş həmvətənlərimizin qəhrəmanlıq örnəyi bizi xalq olaraq daha da böyüdür, hər bir kəsə milli hədəflərimizə doğru yolumuzda tükənməz güc verir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## *Birol AKGÜN:* "20 Yanvar tarixi Azərbaycan xalqının azadlıq və müstəqillik yolunda göstərdiyi milli iradənin təzahürüdür"



**"20 Yanvar tarixi Azərbaycan xalqının azadlıq və müstəqillik yolunda göstərdiyi milli iradənin təzahürüdür. O çətin günlərdə Azərbaycan xalqı hər zaman olduğu kimi, öz müstəqillik və suverenlik iradəsini nümayiş etdirdi".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün söyləyib.

O bildirib ki, Bakıda sovet əsgərləri amansız davrandılar, qadın, kişi, gənc və yaşlı demədən insanları gülləyə tutdular. 130 nəfərdən çox insan şəhid oldu. 700-dən çoxu yaralandı.

"Bu tarix həm də Azərbaycanın milli hökumətinin formalaşması və bu günlərə gəlməsi baxımından son dərəcə önəmli və anlamlıdır. 44 günlük Vətən müharibəsində Qələbə qazanan Azərbaycan bütün ərazilərində suverenliyini bərpa edərək, həm də şəhidlərin arzusunu yerinə yetirmiş oldu. Biz onlara çox şey borcluyuq. Azad və müstəqil Azərbaycan, Azərbaycan-Türkiyə qardaşlığı daim yaşasın", - deyə səfir vurğulayıb.

## *Mehmet Qiyas AZƏRTÜRK:* "20 Yanvar şəhidlərinin qəhrəmanlığı unudulmayacaq"



**"1990-cı ilin yanvar ayında bütün dünya Azərbaycan xalqının ədalətsizliyi aradan qaldırmaq, azadlığı və müstəqilliyi bərpa etmək əzminin şahidi oldu".**

Bu fikri Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının (TADDEF) sədri Mehmet Qiyas Azərtürk 20 Yanvar faciəsinin 36-cı ildönümü ərəfəsində AZƏRTAC-a verdiyi müsahibədə ifadə edib.

TADDEF rəhbəri 20 Yanvar şəhidlərinin xatirəsini ehtiramla yad edərək Azərbaycanın müstəqilliyinin və suverenliyinin toxunulmazlığını vurğulayıb. "20 Yanvar təkcə matəm günü deyil, həm də Azərbaycan tarixində qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqının oğul və qızlarının qəhrəmanlığı və dözümlülüyü yeni nailiyyətlərə və qələbələrə yol açdı ki, bunun da tarixi mərhələsi işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi oldu", - deyə o qeyd edib.

Federasiya rəhbərinin sözlərinə görə, 1990-cı ilin yanvarında Azərbaycanda 1918-ci ildə dövlətçiliyi əlindən alınan xalqın ölməz ruhu dirçəldi.

"20 Yanvar şəhidlərinin vəsiyyət etdiyi müstəqillik Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi işığında Azərbaycan və Türkiyənin birliyi ilə əbədi olaraq möhkəmləndirilir", - deyə TADDEF rəhbəri vurğulayıb.

O, müasir Azərbaycanın zülm dövrünü geridə qoyan və inkişaf yolunda inamla irəliləyən müstəqil, güclü bir dövlət olduğunu deyib.

"Əminəm ki, 20 Yanvar şəhidlərinin qəhrəmanlığı unudulmayacaq", - deyə M.Q.Azərtürk bildirib.

## *Akkan SUVER:* "20 Yanvar bütün bəşəriyyət üçün insanlıq dramıdır"

**"Yanvarın 20-si Azərbaycan tarixində həm dərin faciə, həm də milli iradənin sarsılmazlığını özündə ehtiva edən mühüm günlərdən biridir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dinc əhaliyə qarşı törədilmiş kütləvi qırğından 36 il ötür. Tarixə "Bakı qətliamı", "Qara Yanvar" kimi düşən bu hadisə Azərbaycan xalqının yaddaşında həm də "Qərənfillərin ağladığı gecə" adı ilə əbədi həkk olunub".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri professor Akkan Suver deyib.

O qeyd edib ki, həmin gecə SSRİ-nin ali rəhbərliyi tərəfindən "Azərbaycanda ermənilərin və rusların təhlükəsizliyi təhdid altındadır" bəhanəsi ilə fövqəladə vəziyyət elan edilib və Bakıya dörd istiqamətdən yeridilən sovet ordusu dinc və silahsız əhaliyə qarşı misli görünməmiş vəhşilik törədib: "O gecə 131 insan qətlə yetirildi, yüzlərlə insan həbs olundu. Şəhərin küçələrində axıdılan qan qar üzərinə səpələnmiş qərənfillərlə yadda qaldı və bu səbəbdən həmin gecə tarixə "Qərənfillərin ağladığı gecə" kimi düşdü".

Akkan Suver vurğulayıb ki, 20 Yanvar hadisələrinin kökündə Ermənistanın ərazi iddiaları və bu iddialara qarşı Azərbaycan xalqının etirazı dayanırdı. Sovet rəhbərliyi isə bu haqlı etirazı zorakılıqla boğmaq yolunu seçdi: "Qısa zaman ərzində 186 min azərbaycanlı Ermənistandan, öz doğma yurdlarından didərgin salındı. Bu, mahiyyət etibarilə açıq-aşkar etnik təmizləmə siyasəti idi".

Onun sözlərinə görə, 20 Yanvar faciəsi Qarabağda sonradan baş verəcək hadisələrin, o cümlədən 1992-ci il fevralın 26-da Xocalıda törədilmiş soyqırımının ssenarisinin ilkin mərhələsi idi: "Sovet İttifaqının 1956-cı ildə Macarıstana, 1968-ci ildə Çexoslovakiyaya, 1979-cu ildə Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxilələrin oxşarı bu dəfə özünün əsas respublikalarından biri olan Azərbaycanda təkrarlandı".

Akkan Suver xatırladıb ki, 1995-ci il aprelin 27-də İstanbulda Çırağan sarayında çıxış edən Mixail Qorbaçov 20 Yanvar hadisələrini öz siyasi həyatının ən böyük səhvi adlandırsa da, artıq gec idi: "Qətliamlar törədilmiş, insanlar öldürülmüş, yüz minlərlə insan yurd-yuvasından didərgin düşmüşdü. Təəssüf ki, bu gün də 20 Yanvar və onun davamı olan Xocalı faciəsi dünya miqyasında layiq olduğu səviyyədə qınanmamışdır. 20 Yanvarda törədilənlər yalnız Azərbaycan xalqına və ya türk dünyasına qarşı deyil, bütün bəşəriyyətə, insanlığa qarşı törədilmiş cinayətdir. Bu həqiqəti yalnız regional yox, qlobal miqyasda dərk etmək lazımdır. 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla anılmalı, bu faciə gələcək nəsillərə unudulmayan dərs kimi ötürülməlidir", - deyə sonda Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri bildirib.




# İmperiya xalqımızın iradəsini sındıra bilmədi

**20 Yanvar hadisələri Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda verdiyi ilk böyük qurbanlarla tariximizə həkk olundu. Sovet rəhbərliyi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə qarşı xalqın göstərdiyi kütləvi müqaviməti sındırmaq məqsədilə qanlı qırğın törətdi. Bu hadisə təsadüfi deyil, əvvəlcədən planlaşdırılmış, dövlət səviyyəli ağır hərbi cinayət idi.**

1990-cı il yanvarın ortalarından etibarən SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və digər xüsusi təyinatlı hərbi birləşmələrə məxsus 66 mindən çox əsgər və zabit Bakı şəhərinə gətirilmiş, Qala və "Nasoslu" aerodromlarında, Respublika stadionunda, eləcə də Salyan kazarmasında yerləşdirilmişdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun birbaşa əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir sıra rayonlarına yeridildi. Dinc əhali ağır hərbi texnika və müxtəlif növ silahlardan atəşə tutuldu, nəticədə çoxsaylı günahsız insanlar kütləvi şəkildə qətlə yetirildi. Fövqəladə vəziyyətin 1990-cı il yanvarın 20-də saat 00:00-da tətbiq edilməsi elan olunsa da, hərbi hissələr şəhərə bundan xeyli əvvəl - yanvarın 19-da saat 21:00-dan etibarən, əsasən Türkan-Qala istiqamətindən daxil olmağa başlamışdı. "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın birinci bəndinə əsasən, fövqəladə vəziyyət tətbiq edilərkən əhali bu barədə dərhal və rəsmi şəkildə məlumatlandırılmalı idi, lakin həmin gecə Azərbaycan xalqı tətbiq olunan fövqəladə vəziyyət barədə heç bir xəbərdarlıq almamışdı.

Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların böyük kontingentinin Bakını zəbt etməsi misilsiz qəddarlıqla həyata keçirilmişdi. Bu hərbi əməliyyata birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin və SSRİ DTK sədrinin müavini Filipp Bobkov rəhbərlik edirdilər.

Qırğın öncədən hazırlanmış ssenari üzrə icra olunurdu. Belə ki, fövqəladə vəziyyətin tətbiqi əhaliyə rəsmən elan olunanadək hərbi qulluqçular artıq 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri isə ağır yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən xeyli sonra - 1990-cı il yanvarın 20-si səhər saat 05:30-da Bakı şəhərinin komendantı V.Dubinyak radio vasitəsilə fövqəladə vəziyyətin elan edildiyi barədə rəsmi məlumat verdi. Halbuki yanvarın 20-nə keçən gecə saat 00:00-dan etibarən tanklar və zirehli texnika şəhərə yeridilmiş, Xəzər Hərbi Donanmasının gəmilərindən sahilə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra da qətliamlar davam etdirilmiş, yanvarın 20-də və sonrakı günlərdə Bakıda daha 21 nəfər qətlə yetirilmişdi. Qanlı Yanvar hadisələrinin əks-sədası bölgələrdə də hiss olundu: yanvarın 25-də Neftçalada, 26-da Lənkəranda, fövqəladə vəziyyət rejimi tətbiq olunmayan ərazilərdə daha 8 dinc sakin öldürüldü. Ümumilikdə respublika üzrə 147 nəfər şəhid olmuş, 744 nəfər yaralanmış, 841 nəfər isə qanunsuz şəkildə həbs edilmişdi. Hücum zamanı 200 ev və mənzil,



80 avtomaşın, o cümlədən təcili yardım kimi dövlət və şəxsi əmlak vəhşicəsinə məhv edilmişdi. Dövlətə və vətəndaşlara həmin dövrün qiymətləri ilə 5,6 milyon rubldan çox maddi ziyan vurulmuşdu.

Bu hadisələr xalqın Sov.İKP-yə və mövcud rejimə olan nifrətini son həddə çatdırdı. İnsanlar kütləvi şəkildə partiya biletlərini yandıraraq onun sıralarını tərk etməyə başladılar. Bu qanlı faciə həm də siyasi reallıqları üzə çıxardı. Xalqın mübarizəsini və tökülən qanı öz siyasi niyyətləri üçün vasitəyə çevirən Azərbaycan Xalq Cəbhəsi rəhbərliyinin iç üzü zamanla aydınlaşdı. 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən AXC hakimiyyətə gəldikdən sonra bu məsələni arxa plana keçirdi və əlindəki imkanlardan istifadə edərək faciəyə lazımi siyasi-hüquqi qiymətin verilməsini təmin etmədi.

1990-cı il yanvarın 21-də sovet rejiminin qadağalarına və şəxsi həyatına yönələn təhlükələrə rəğmən Ulu Öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında açıq şəkildə ittiham etdi. Ulu Öndər verdiyi cəsarətli bəyanatla əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya və humanizmə zidd bir addım, həmçinin Moskvanın və respublika rəhbərliyinin buraxdığı kobud siyasi səhv kimi ifşa etdi. Beləliklə, xalqımızın başına gətirilən bu dəhşətli müsibətə ilk siyasi-hüquqi qiymət məhz Ümummilli Lider tərəfindən verildi. Heydər Əliyev Bakıya əlavə qoşun yeridilməsini kəskin tənqid edərək bildirirdi ki, respublikada kifayət qədər daxili hərbi qüvvə olduğu halda kənardan ordu gətirilməsi xalqa qarşı törədilmiş qəsd idi. O, bu qərarı qəbul edən SSRİ rəhbərliyini və öz xalqını taleyin ümidinə buraxıb qaçan ozamankı respublika rəhbəri Vəzirovu məsuliyyətə səsləyirdi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Yanvar faciəsinin tədqiqi dövlət səviyyəsində diqqət mərkəzinə alındı. Onun təşəbbüsü və göstərişləri ilə 1994-cü il martın 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" xüsusi qərar qəbul etdi. Heydər Əliyev faciənin başvermə səbəblərinin və günahkarların araşdırılması istiqamətində qətiyyətli addımlar ataraq, illərboyu gizli saxlanılan həqiqətlərin üzə çıxarılmasını təmin etdi. 1998-ci ildə Ümummilli Liderin imzaladığı müvafiq fərmanla ölkəmizdə "20 Yanvar Şəhidi" fəxri adı təsis olundu. Bu gün Ulu Öndərin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin xatirəsinin uca tutulması və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə xüsusi qayğı ilə yanaşır. Dövlət başçısının təşəbbüsləri sayəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün effektiv sosial təminat sistemi formalaşdırılmışdır. 2006-cı ildə təsis edilmiş Azərbaycan Respublikası Prezidentinin təqaüdü bu qayğının bariz nümunəsidir. Şəhidlər xiyabanında aparılan genişmiqyaslı abadlıq işləri ilə yanaşı, Bakının Yasamal rayonunda Qanlı Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış memorial abidə kompleksi xalqımızın qəhrəmanlıq tarixinə verilən ehtiramın rəmzidir. Hər il yanvarın 20-də saat 12:00-da ölkə ərazisində şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilir, dövlət bayraqları endirilir və hüzn əlaməti olaraq səs siqnalları verilir. Azərbaycan dövləti və xalqı öz azadlığı uğrunda canından keçən övladlarının şücaətini daim yüksək qiymətləndirir və onların əziz xatirəsini qəlbində uca tutur.

Bu gün 20 Yanvar faciəsi xalqımızın yaddaşında təkcə kədərli bir gün kimi deyil, həm də azadlıq mübarizəmizin ən şərəfli səhifələrindən biri kimi qalmaqdadır. Artıq 36 ildir ki, Bakının ən uca nöqtəsində yerləşən Şəhidlər xiyabanı hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmişdir. Prezident İlham Əliyevin xalqımıza Şuşanın azad olunması müjdəsini məhz Şəhidlər xiyabanından verməsi böyük rəmzi məna daşıyırdı. Bu tarixi hadisə ilə həm 20 Yanvar şəhidlərinin, həm də Birinci Qarabağ müharibəsi qəhrəmanlarının narahat ruhları nəhayət ki, dinclik tapdı. 20 Yanvar qırğını Azərbaycan xalqına ağır zərbə vursa da, onun iradəsini sındıra bilmədi. Əksinə, düşmən öz vəhşiliyi ilə qarşısına qoyduğu heç bir məqsədə çata bilmədi. Otuz il ərzində torpaqlarımızı işğal altında saxlayan Ermənistanın və onun havadarlarının planları puça çıxdı. Bu gün üçrəngli bayrağımız həm Şəhidlər xiyabanında, həm də bütün Qarabağda qürurla dalğalanır.

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***



# Qanla yazılmış şərəfli səhifə

**Yanvarın 20-si təqvimdə adi bir tarix deyil. Bu tarix xalqımızın yaddaşına qara hərflərlə yazılsa da, ruhumuzda işıq kimi parlayan bir gecənin simvoludur. O gecə Bakı səması azadlıq uğrunda küçələrə çıxmış insanlara tuşlanan güllə səsləri ilə yaralandı, şəhərin küçələri tankların soyuq dəmiri ilə titrədi. O gecə Bakı həm də qürur dolu bir gün yaşadı. Qaranlıq gecənin bağrına bir həqiqət doldu: azadlıq qorxudan güclüdür.**

20 Yanvar gecəsində imperiya gücü xalq iradəsi ilə üz-üzə gəldi. Silahsız insanlar öz haqlarını müdafiə etmək üçün küçələrə çıxdılar. Azadlığa təşnə olan insanlar vicdanı, inamı və Vətən sevgisi ilə silahlanmışdılar. Tankların qarşısında sinəsini sipər edən bu insanlar tarixə adlarını qanla deyil, şərəflə yazdılar. Bakı küçələrinə doldurulan zirehli texnika azadlıqsevərlərin bədənlərini əzsə də, iradələrini sındıra bilmədi. İllərlə əlimizdən alınan azadlığımız əzilən cismimizdən sağlam ruh kimi çıxdı.

Şəhidlərin qanı torpağa düşdüyü an Vətən daha da cana gəldi. Artıq bu torpaq susqunluğun, qorxunun deyil, cəsarətin torpağına çevrildi. Mərd oğullarını, ciyərparalarını yola salan analar sinələrinə göz yaşlarını axıdaraq həm də "Azadlıq" hayqırdılar. Atalar dik duraraq sükutla taleyin üzünə baxmadılar; ölümün gözünə dik baxa-baxa gənclərə azadlığın yolunu göstərdilər. 20 Yanvar bir gecənin faciəsi kimi tariximizə yazılmadı, bir millətin oyanış dastanı olaraq yaddaşımıza əbədi möhrünü vurdu.

20 Yanvar həm də həqiqətin sınağı idi. O gecə dünya susdu, amma Azərbaycan danışdı. Qanlı səhnələrin fonunda haqqın səsi eşidildi. O gecə imperiyaya rəhbərlik edənlər anladılar ki, nə etsələr də, xalqın iradəsi tapdanmaz, azadlıq güllə ilə boğulmaz. Bu səs sonradan meydanlarda, tribunalarda, beynəlxalq kürsülərdə eşidildi, nəhayət, dövlət müstəqilliyinin möhürünü vurdu.

20 Yanvar faciəsinin ən ağır və taleyüklü anlarında SSRİ rəhbərliyi tərəfindən siyasi təcridə məruz qalan Ulu Öndər Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyinə gəlişi yalnız bir siyasi etiraz aktı deyildi. Bu, Ümummilli Liderin ürəyindən qopan hayqırtı, xalqına qarşı törədilən cinayətə susmayan böyük şəxsiyyətin vicdanının çağırışı idi. Heydər Əliyev həyatını real təhlükə altına ataraq imperiya qorxusunu yarıb haqqın səsini dünyaya çatdırdı, Qanlı Yanvarın məsuliyyətinin açıq şəkildə SSRİ rəhbərliyinin üzərində olduğunu qətiyyətlə qeyd etdi. Həmin tarixi çıxış bir insanın deyil, bir millətin qeyrətinin və gələcək müstəqilliyin bünövrəsinə çevrilən cəsarətli mövqeyinin təcəssümü idi.

Zaman keçdikcə yaralar sağalır. Taleyimizə, tariximizə tuşlanan güllənin, qəsdin acısı yaddaşımızda sağalmamalıdır. Çünki yaddaş itərsə, tarix təkrar olunar. 20 Yanvar bizə bir dərs verdi: azadlıq pay verilmir, qanla alınır. Onu qorumaq daha böyük məsuliyyətdir.

Bu gün Şəhidlər xiyabanında atılan hər addım bir anddır. Bu hər bir gəncin, ahılın, Azərbaycan vətəndaşının andı olmalıdır ki, o gecənin qurbanları unudulmasın, o qan hesabına qazanılan azadlıq heç vaxt ucuzlaşdırılmasın. 20 Yanvar - matəm olduğu qədər də qürur günüdür. Çünki o gecə Azərbaycan diz çökmədi, ayağa qalxdı. Qaranlıqdan işığa gedən yolun başlanğıcı məhz o gecə başladı.

Ruhunuz şad olsun, azadlığın keşikçiləri! Sizin susqun qəhrəmanlığınız bu xalqın ən yüksək səsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Yarımçıq qalan arzular...



*Oğul, aralı ollam,*
*Başı qaralı ollam,*
*Yanında yer qalmayıb, -*
*Bə mən haralı ollam?!*

Bu misralar kağız üzərində yazılmış adi sözlər deyil, 20 Yanvar gecəsi şəhid olan 23 yaşlı Azərin vaxtsız ölümünə atası Nəsib Ələkbərovun qəlbindən qopan fəryadıdır. O fəryad ki, 20 Yanvar gecəsi başladı, illər keçsə də, sönmədi, zaman ötsə də, səngimədi. Ta ki 2008-ci ildə şəhid oğlunun doğum günündə gözlərini əbədiyyətə yumana qədər...

1990-cı ilin 20 Yanvarı bir tarix deyil, bir yaradır. Hər il qanayan, hər il yenidən sızlayan... Həmin gecə yüzlərlə evə qara xəbər gəldi, minlərlə ürəyə sağalmaz yara vuruldu.

O məşum gecə Bakının üzərinə çökən zülmət yalnız gecənin qaranlığı deyildi. Tank və güllələrin səsi, insanların çarəsiz harayı şəhəri bürüyərkən sovet imperiyası öz son nəfəsində bir xalqın azadlıq istəyinə qanla cavab verdi. Həmin gecə atılan güllələr təkcə insan bədənlərini deyil, evlərin işığını, anaların ümidini, ataların dayaq bildiyi övladlarını da hədəf aldı.

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış səhifədir. Şəhid olan hər bir insanın arxasında yarımçıq bir həyat hekayəsi qaldı. Onlardan biri də 23 yaşlı Azər Ələkbərov idi.

Azər 1967-ci il avqustun 9-da Gəncədə tanınmış jurnalist Nəsib Ələkbərovun ailəsində dünyaya göz açıb. 1985-ci ildə məktəbi bitirən istedadlı yeniyetmə 1987-ci ildə Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Mədəni-maarif fakültəsinin kütləvi bayramlar və tamaşalar rejissoru ixtisasına daxil olub. 1987-ci ilin yanvar ayından Rusiyanın Moskva şəhərinin Volodnı vilayətinə hərbi xidmətə yollanan Azər 1989-cu ilin payızında geri dönərək təhsilini davam etdirir.

Əbədiyyətə qovuşanda Azər üçüncü kurs tələbəsi idi. Arzuları, xəyalları vardı. Sənətə, yaradıcılığa bağlı idi. Bir neçə gün sonra Dövlət Televiziyasında işə başlayacaqdı. Amma həmin gecə...

Şəhidin bacısı Gülsəda Ələkbərzadə qardaşından bəhs edərkən sanki həmin günü yenidən yaşayır: "Yanvarın 19-u adi gün kimi başlamışdı. Xalamgil Gəncədən bizə qonaq gəlmişdilər. Azər imtahandan gəldi, hamımız birlikdə söhbət etdik, dedik-güldük. Axşam 20:00 idi, qonaqlar artıq getmişdi. Birdən televiziyada yayım kəsildi. Nə baş verdiyini öyrənmək üçün atam yoldaşlarıyla, akademiyanın əməkdaşlarıyla görüşməyə getdi. Artıq gecə düşürdü, mən yerləri açırdım. Bir də gördük küçədə dəhşətli səs-küy qopdu. Eyvanın qapısı açıq idi. Güllə, qışqırıq səsləri gəlirdi. Mən də qışqırdım ki, müharibə başladı..."



Bunları görən Azər atasını tapmaq üçün tələsik evdən çıxır. Evdəkilər nə qədər mane olmağa çalışsalar da, onu saxlaya bilmirlər. O, gedəndən 15-20 dəqiqə sonra atası evə qayıdır. Səhərə kimi gözləsələr də, övladlarının geri qayıtmadığını görən valideynləri onu axtarmağa başlayırlar.

"Anam küçədəki meyitləri görəndə dedi ki, inanmıram Azər sağ ola. Ümidimizi hər yerdən üzmüşdük. Atam Mərkəzi Komitəyə zəng elədi və dedi ki, oğlumun öldüyündən, qaldığından bir xəbər verin. Evə zəng gəldi ki, bəs "Semaşko"ya (indiki Kliniki Tibbi Mərkəz) meyitlər aparıblar, bəlkə ordadır. Xalam oğlu Rişad xəstəxanada həkim işləyirdi. Elə Azərin cansız bədənini də ilk o görür. Atam Rişadı görəndə qardaşımın orada olduğunu anlayıb. Azəri Gəncədə dəfn etmək istəyirdik. Hətta xəbər də göndərmişdik ki, hazırlıq görün, gətiririk. Amma qoymadılar, dedilər ki, Şəhidlər xiyabanında dəfn olunacaq".

Azərin şəhidliyi ailənin həyatını kökündən dəyişdi. Bacısı deyir ki, o gecədən sonra heç nə əvvəlki kimi olmadı. Evdə gülüş kəsildi, sevinc olmadı. Ananın saçları bir gecədə ağardı, atanın beli büküldü. Nəsib Ələkbərov illərlə oğul dərdi ilə yaşadı. O, oğluna həsr etdiyi yazılarda bu dərdi böyük ürək ağrısı ilə qələmə aldı. "Aman allah, oğul dərdi nə yaman olurmuş. O, bizi odalova salıb getdi. Onun yeri soyuq məzar, odlu-alovlu bu gen dünya bizim qəbrimiz!" deyə yaralı ata bir yazısını belə bitirmişdi. Bu sözlər təkcə bir atanın yox, bütün şəhid ailələrinin içində yanan odu təsvir edirdi.

Azərin bacısı deyir ki, illər keçsə də, hər sevinc anı içində bir nisgil daşıyır: "Bu illər ərzində hər xoş günümdə - ailə quranda da, övladlarım dünyaya göz açanda da gələnlərin, xeyir-dua verənlərin arasında gözüm qardaşımı axtarır. Ona görə də yanvar ayını heç sevmirəm. Bu ay mənə kədər gətirib, həmin gün bütün həyatımız alt-üst oldu. Toylarda, şənliklərdə, ailə yığıncaqlarında gözüm həmişə qardaşımı axtarır. Elə hey öz-özümə "görəsən nə deyərdi, necə hərəkət edərdi" deyə düşünürəm. Kaş yadigarı qalmış olaydı. Kimsə yanımda qardaşının nişanından, toyundan danışanda boğazım düyünlənir, qəhər məni boğur".

Bu gün Şəhidlər xiyabanında dalğalanan üçrəngli bayrağımız, sükut içində oxunan dualar, qırmızı qərənfillər Azər kimi gənclərin yarımçıq qalan arzularının davamıdır. Onlar yaşaya bilmədikləri sabahları bizə əmanət etdilər. Elə buna görə də 20 Yanvar təkcə matəm günü deyil, həm də qürur günüdür. O gecə xalqımız qorxmadı, geri çəkilmədi. Tankların qarşısına sinə gərən insanlar azadlığın bünövrəsini qoydular. Şəhidlərin qanı azadlıq yolunu işıqlandırdı. Bu gün müstəqil Azərbaycanda yaşayırıqsa, bu, Azər kimi gənclərin sayəsindədir. Onlar arzularını yarımçıq qoyub, gələcək nəsillərin azad yaşaması üçün can verdilər. Şəhidlərimizin xatirəsi yaşadıqca, bu tarix unudulmayacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***






# Müstəqil yaşamaq istəyinin təcəssümü

**Azərbaycan xalqı əsrlər boyu çox keşməkeşli tale yaşamışdır. Əlverişli coğrafi mövqe, yeraltı və yerüstü sərvətlər, xalqımızın qonaqpərvər xisləti, dostluğa sadiq olması, qonşularla münasibətlərini müsbət istiqamətdə inkişaf etdirməsi hər zaman bəzi qüvvələr tərəfindən narahatlıqla qarşılanmışdır. Bu baxımdan Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq böyük planın tərkib hissəsi, türk coğrafiyasının parçalanması demək idi.**



Bu, imperialist qüvvələrin, böyük dövlətlərin maraqlarına xidmət edirdi. Lakin tarix hər zaman elə bir sərkərdə, elə bir siyasətçi yetişdirir ki, bu böyük oyunların öhdəsindən gəlir. Bu məsələyə toxunmadan öncə qeyd etməliyik ki, müstəqillik uğrunda canından keçən Azərbaycan xalqı qədim dövlətçilik ənənələrinə malikdir. Bu ənənələr əsrlərin yaddaşından süzülərək gəlib. Azərbaycan xalqının bugünkü dövlət institutlarının təməlində dayanan məhz bu amil və prinsipdir. Müstəqillik əzmimizi, müstəqil yaşamaq istəyimizi qırmaq istiqamətində imperialist qüvvələrin tarixboyu bir neçə məkrli planları, çirkin həmlələri olmuşdur. Buna baxmayaraq, Azərbaycanın igid, mərd oğul və qızları bu planların qarşısında sinələrini sipər etmişdilər.

20 Yanvar hadisələri Azərbaycan xalqının müstəqil yaşamaq arzusunun təcəssümü idi. Bu əzmi, ruhu sındırmağa çalışan qüvvələrin qarşısında Azərbaycan xalqı dik dayandı. Digər yandan sovet imperiyasının çökməsi, onun süquta uğraması da qaçılmaz idi. Bunu aydın görən Moskva imperiyanın müxtəlif istiqamətlərinə ordusunu göndərir, beləliklə, xalqları bir daha özündən asılı vəziyyətə salaraq, gözünü qorxudur, müstəqilliyə gedən yolun qarşısını almaq niyyəti və məqsədi güdürdü. 20 Yanvar hadisələri sovet imperiyasının bünövrədən laxlaması, çökməsi demək idi. Çünki məhz bundan sonra xalqımız ayağa qalxdı və nəinki postsovet məkanına, bütün dünyaya bəyan oldu ki, artıq xalqları əzmək, onların sərvətlərini sümürmək mümkün deyil. Hər bir dövlət və xalq öz müstəqilliyi, milli kimliyi, sərvəti uğrunda mübarizə aparır, bütün ülvi istəkləri uğrunda canlarından keçirdilər.

20 Yanvar hadisələri Azərbaycan xalqının qəlbində həm dərin kədərlə, həm də böyük qürurla daim anılacaqdır. Məhz bu hadisələr bir daha sübut etdi ki, heç bir imperialist qüvvə böyük xalqımızın qarşısında dayana bilməz. Böyük sərkərdələri yetişdirən xalqımız məhz həmin çətinliklərə sinə gərib. Məhz bütün dünyaya öz zəkası ilə işıq saçan Ümummilli Lider Heydər Əliyevin atdığı cəsarətli addımlar sayəsində milli kimliyimiz daha da möhkəmləndi. 20 Yanvar hadisələrinə cavab olaraq Kommunist Partiyasının biletini cırıb atmaq o dövr üçün həm cəsarətli, həm də çox təhlükəli addım idi. Buna baxmayaraq, Heydər Əliyev həyatı bahasına bu addımı atdı, bu məkrli planın icraçılarını ifşa etdi. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti nəticəsində 20 Yanvar hadisələrinə hüquqi qiymət verildi.

1990-cı ilin 20 Yanvar faciəsi birdən baş vermədi. Bu uzun müddətdən bəri düşünülmüş böyük planın, ən amansız, canlar almağa hesablanan məkrli ssenarinin tərkib hissəsi idi. Bu qanlı gecəni yetişdirən məqamlar yavaş-yavaş toplanmışdı. 1990-cı ilin Yanvar faciəsinin işartıları azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı bir dövrdən - 1987-ci ildən başlamışdı. Xalqlar arasında bilərəkdən gərginlik yaradılır, bu gərginlikdən istifadə etmək üçünsə fürsətlər axtarılırdı. Belə bir zamanda artan gərginliyin qarşısını almaq yerinə sovet rəhbərliyi xalqımıza qarşı dəhşətli cinayət törətdi. Azərbaycan xalqının üzərinə yeridilən erməni zabit və əsgərləri, hərbi məktəblərdə xüsusi təhsil alan, təlim keçən erməni kursantları dəhşətli qətliam törətdilər. Bütövlükdə 66 min nəfərdən çox əsgər və zabit Azərbaycanın müxtəlif istiqamətlərində yerləşdirildi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxil İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yerləşdirildi. Dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq qətlə yetirildilər. Bir gün əvvəl tətbiq edilmiş fövqəladə vəziyyət haqqında isə əhaliyə heç bir xəbər verilməmişdi. Qətl zamanı xüsusi qəddarlıq nümayiş etdirilirdi. Hətta fövqəladə vəziyyət elan edildikdən sonra yanvarın 20-də və növbəti günlərdə Bakı şəhərində 21 nəfər öldürüldü. Respublika üzrə bütövlükdə 147 nəfər öldürüldü, 744 nəfər yaralandı. 841 nəfər qanunsuz həbs edildi. 200 ev və mənzil, 80 avtomaşın, təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Həmin dövrün qiymətləri ilə 5.637.286 rubl miqdarında maddi ziyan vuruldu. Amma yenə də imperiya öz məqsədinə çata bilmədi. Əslində, 20 Yanvar hadisələrini törətməklə sovet imperiyası Azərbaycanda özünün siyasi və hüquqi dayaqlarını itirdi. İnsanlar artıq kütləvi şəkildə partiya biletlərini ataraq onun sıralarını tərk etdilər. Bütün məkrli niyyətlər ifşa olunmuşdu.

Xalq Cəhbəsi hakimiyyətə gəldikdən sonra 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi unuduldu. Yalnız Ümummilli Lider Heydər Əliyev tərəfindən bu faciəyə siyasi hüquqi qiymət verildi. Ulu Öndər Heydər Əliyev dövrün bütün çətinliklərinə baxmayaraq, SSRİ rəhbərliyini kəskin tənqid edirdi və bu cinayətin törədilməsi ilə bağlı onlardan rəsmi açıqlamalar tələb edirdi. Bu, məhz onun siyasi xadimi olduqca ötkəm, qətiyyətli xasiyyətə malik olmasında, habelə vətənə, torpağa, xalqına bağlılığında özünü büruzə verirdi. Dövlətin gördüyü işlər bununla kifayətlənmədi. Ümummilli Lider Heydər Əliyev Bakı şəhərindəki Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksinin ucaldılması ilə xalqının qəlbində ən uca mərtəbədə qərar tutdu. "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi isə xalq tərəfindən olduqca yüksək dəyərləndirildi, təqdir edildi. Bəli, 20 Yanvar tariximizin kədərli və faciəli bir səhifəsidir. Amma eyni zamanda bu tarix həm də qəhrəmanlıq və rəşadət salnaməsidir.

Ümummilli Liderimiz Heydər Əliyevin də dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. Xalqa Zəfər bəxş edən məhz Ümummilli Lider Heydər Əliyev ideallarıdır. 20 Yanvarda Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Xalqın birliyi və milli ləyaqət hissi tanklara, məkrli planlara qalib gəldi. 44 günlük Vətən savaşında, antiterror əməliyyatlarında Zəfər salnaməsi yazan övladlar məhz 20 Yanvarda, o qanlı gecədə sınmayan, əzilməyən, məhv olmayan nəslin davamçılarıdır. 44 gün nəinki Azərbaycan tarixində, dünya tarixində olduqca şərəfli günlərdir. Biz bir daha bütün xalqlara, millətlərə nümunə olduq ki, torpaq hər şeydən - candan da şirindir.

20 Yanvar hadisələri dünya azərbaycanlılarının təşkilatlanmasına da səbəb oldu. İlk dəfə olaraq, milli faciəmizin tanıdılması naminə azərbaycanlılar yaşadıqları müxtəlif ölkələrdə təşkilatlanmağa başladılar. 20 Yanvar hadisələri həm də milli kimliyin formalaşdırılmasında mütləq əhəmiyyətə malikdir. Xalq öz gələcəyini yalnız müstəqil yaşamaqda görürdü.

Bu gün bütün ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı qürurla dalğalanır. Bütün bunların təməlində Azərbaycan xalqının sarsılmaz iradəsi dayanır.

***Azər BADAMOV,***
***Milli Məclisin deputatı***

# Azərbaycan xalqının milli yaddaşı və qəhrəmanlıq salnaməsi

**Xalqımızın XX əsr tarixində ən faciəli və eyni zamanda ən şərəfli səhifələrindən biri 20 Yanvar faciəsidir. Bu qanlı hadisə yalnız günahsız insanların qətlə yetirilməsi ilə deyil, həm də xalqımızın azadlıq, müstəqillik və milli ləyaqət uğrunda apardığı mübarizənin zirvə nöqtəsi kimi tarixə həkk olunub. 20 Yanvar faciəsindən 36 il keçməsinə baxmayaraq, bu hadisə xalqın yaddaşında silinməz iz buraxıb, milli şüurun formalaşmasında həlledici rol oynayıb.**





1990-cı il 20 Yanvar faciəsinə aparan yol 1987-ci ildən başlayaraq azərbaycanlıların Ermənistan ərazisindəki tarixi torpaqlarından kütləvi deportasiyası, Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi cəhdləri və erməni millətçi dairələrin açıq separatçı fəaliyyətləri ilə müşayiət olundu. Gərginliyin artmasına baxmayaraq, Sovet İttifaqının rəhbərliyi vəziyyəti sabitləşdirmək, dinc əhalinin təhlükəsizliyini təmin etmək əvəzinə Azərbaycan xalqına qarşı misli görünməmiş və əvvəlcədən planlaşdırılmış hərbi cinayət törətdi.

20 Yanvar hadisələri insanlıq əleyhinə yönəlmiş, məqsədyönlü və planlı şəkildə həyata keçirilmiş hərbi əməliyyat idi. Azərbaycana yeridilən sovet qoşunlarının tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, eləcə də hərbi məktəblərdə təhsil alan erməni kursantları da daxil edilmişdi. 1990-cı il yanvarın ortalarından etibarən SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, habelə digər xüsusi təyinatlı hərbi birləşmələrin 66 mindən artıq əsgər və zabiti Bakı şəhərinə gətirilərək müxtəlif hərbi obyektlərdə yerləşdirilmişdi. Bu faktlar Bakıya qarşı genişmiqyaslı hərbi müdaxilənin əvvəlcədən planlaşdırıldığını açıq şəkildə sübut edirdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridildi. Qadın, qoca və uşağa belə fərq qoymadan dinc əhali tanklardan, zirehli döyüş maşınlarından və müxtəlif tipli silahlardan atəşə tuldu. Tarixə "Bakı əməliyyatı" adı ilə düşən bu hərbi təcavüz xüsusi qəddarlıqla həyata keçirildi, fövqəladə vəziyyət elan olunmadan əvvəl belə onlarca insan amansızcasına qətlə yetirildi.

Kütləvi insan qırğını törədildikdən sonra yalnız 1990-cı il yanvarın 20-si səhər saat 5:30-da radio vasitəsilə Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edildiyi elan edildi. Halbuki həmin vaxta qədər şəhərin mərkəzində hərbi texnika hərəkət edib, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Nəticədə respublika üzrə 147 nəfər şəhid olmuş, 744 nəfər yaralanmışdı, 841 nəfər qanunsuz həbs edilmiş, yüzlərlə ev, nəqliyyat vasitəsi və dövlət əmlakı məhv edilmişdi. Bu hadisə totalitar sovet rejiminin əsl mahiyyətini bütün çılpaqlığı ilə üzə çıxardı.

20 Yanvar faciəsi sovet imperiyasının Azərbaycandakı siyasi və mənəvi dayaqlarını sarsıtdı. Xalqın Sov.İKP-yə və mövcud rejimə nifrəti son həddə çatdı, minlərlə insan partiya sıralarını tərk etdi. Bu qanlı hadisə Azərbaycan xalqının azadlıq iradəsini qıra bilmədi, əksinə, milli mübarizəni daha da gücləndirdi.

20 Yanvar hadisələrinə ilk qəti və prinsipial siyasi-hüquqi qiymət Ümummilli Lider Heydər Əliyev tərəfindən verildi. Faciənin ertəsi günü 1990-cı il yanvarın 21-də Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək Sovet rəhbərliyini açıq şəkildə ittiham etdi, bu hadisəni hüquqa, demokratiyaya və humanizmə zidd olan cinayət adlandırdı. Onun bu cəsarətli mövqeyi Kremlin informasiya blokadasına baxmayaraq, dünya ictimaiyyətində geniş əks-səda doğurdu və Azərbaycan xalqına böyük mənəvi dəstək oldu.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi. 1994-cü il martın 29-da isə Milli Məclis səviyyəsində qəbul edilən qərarla bu qanlı aksiya Azərbaycan xalqına qarşı törədilmiş hərbi təcavüz və cinayət kimi rəsmən tanındı. Bu qərar 20 Yanvar faciəsinə verilən ilk tam və obyektiv dövlət qiyməti oldu.

1990-cı il 20 Yanvar şəhidlərinin xatirəsi Azərbaycan dövləti tərəfindən əbədiləşdirilib. Bakı şəhərində Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucaldılıb, "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib. Hər il yanvarın 20-si Ümumxalq Hüzn Günü kimi qeyd olunur və Azərbaycan xalqı şəhidlərin xatirəsini dərin ehtiramla yad edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinin sosial müdafiəsi daim gücləndirilir, onların rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Son illərdə icra olunan sosial islahatlar çərçivəsində 20 Yanvar şəhidlərinin ailələri və əlilliyi olan şəxslər üçün təqaüdlər və müavinətlər dəfələrlə artırılıb, onlara mənzil və avtomobillər verilib. Bu siyasət dövlətin şəhidlərə olan ali ehtiramının bariz nümunəsidir.

20 Yanvar faciəsi Azərbaycan xalqı üçün təkcə böyük bir faciə deyil, həm də bir qəhrəmanlıq və rəşadət salnaməsidir. 1990-cı ilin 20 Yanvar tarixi Azərbaycan xalqının müstəqillik yolunda dönüş nöqtəsi olub. 2020-ci ildə əldə edilən tarixi Zəfər və 2023-cü ildə suverenliyimizin tam bərpası bir daha sübut edir ki, 20 Yanvar şəhidlərinin qanı yerdə qalmadı.

20 Yanvar günü ləyaqətini qoruyan, azadlıq uğrunda ölümə belə hazır olan xalqın tarixində əbədi qalacaq şərəfli bir gündür. Bu tarix həm faciə, həm də milli qürur mənbəyidir və Azərbaycan xalqının yaddaşında daim yaşayacaqdır.

***Vasif QAFAROV,***
***Milli Məclisin deputatı***







# QANLI YANVAR -36 İL



# Şəhidlər xiyabanından Zəfər meydanına

## 1990-cı ilin Qanlı Yanvarından başlanan azadlıq yolu xalqımızı Bütöv Azərbaycana yetirdi

1990-cı il yanvarın 20-si…

Bu tarix Azərbaycanın müstəqillik yoluna qanla yazılmış imzasıdır.

Bu gün azadlıq və demokratiya uğrunda ayağa qalxan bir xalqın sarsılmaz iradəsinin, sınmayan qürurunun qəhrəmanlıq salnaməsidir.

Bu gün zülmə, istibdada, haqsızlığa qarşı yalın əllə üsyana qalxan oğul və qızlarımızın əbədiyyətə ucaldığı gündür.

Bu gün həm faciədir, həm də milli oyanışın qan yaddaşıdır.

### Vətən tarixi

O gecə xalqımızın inamını sındırmaq, milli azadlıq eşqini boğmaq istədilər. Güllə ilə qorxutmaq, tankla iradəsini tapdalamaq istədilər. Amma bilmədilər ki, azadlıq eşqi güllədən də, tankdan da güclüdür. 20 Yanvar gecəsi Azərbaycan xalqı ölümü seçdi, əsarəti yox. Və həmin seçimlə tarix yazdı.

Tarix bəzən susur, bəzən də qanla danışır… 1990-cı ilin Qanlı Yanvarı məhz belə danışan tarixlərdəndir. O gecədən 36 il keçir. Amma o gecənin harayı azadlıq istəyən bir xalqın sarsılmayan iradəsinin, sınmayan ruhunun səsinə çevrildi. O məşum gün bir xalqın azadlığa olan inamını boğa biləcəklərini düşündülər, amma yanıldılar. Çünki həmin gecə Azərbaycan xalqı nəinki qorxuya, ölümün özünə meydan oxudu. Sinələrini zülmün topuna, gülləsinə sipər edən oğul və qızlarımız bilsələr də ki, bu yolun sonu ölümdür, yenə də geri çəkilmədilər, 1990-cı ilin 20 Yanvarını Vətənin qan yaddaşına çevirdilər. Sabir Abbasovların, Musa Adilovların, İlham Allahverdiyevlərin, Telman Bağırovların, İlkin Cavanşirovların, Vəfadar Eminovların, Azad Rzayevlərin... adı bu yaddaşa qızıl hərflərlə həkk olundu.

### Müqəddəs andımıza sadiq qaldıq

Düz 36 il əvvəl Vətənin azadlığı naminə şəhadət zirvəsinə ucalan oğul və qızlarımızı haqqın dərgahına yola salarkən Şəhidlər xiyabanında müqəddəs and içmişdik. O Qanlı Yanvar gecəsində sovet imperiyasının dəmir rejiminə qarşı yalın əllə mübarizə aparan, dirənc göstərən, gözünü qırpmadan şəhidliyi seçən qəhrəmanlarımızın ruhu qarşısında söz vermişdik ki, Azərbaycan müstəqil olacaq. Torpaqlarımıza göz dikən düşmənin layiqli cavabını verəcək, ərazi bütövlüyümüzü qoruyacaq, şəhidlərimizin qanını yerdə qoymayacağıq. Demişdik ki, bu Vətən qalib olacaq.

İndi dünyada yaşayan bütün azərbaycanlılar həmin müqəddəs andımızın yerinə yetməsinin qüruru içərisindədirlər.

2020-ci il noyabrın 8-də Şuşada, 2023-cü il sentyabrın 20-də Xankəndidə çalınan zəfər zəngləri 20 Yanvarın yarımçıq qalan harayına cavab oldu, düz bir qərinə idi ki, qanayan yaralarımıza məlhəm çəkdi. İki əsr boyu xalqımıza qarşı qətliamlar, soyqırımları törədən erməni vandalizmi diz çökdürüldü. Qarabağda quldur yuvası dağıdıldı, separatçılar Azərbaycan xalqının iradəsi qarşısında baş əyməyə, yalvarmağa məcbur edildi. Bu, təkcə hərbi qələbə deyildi. Bu, haqqın öz yerini tapması idi. Bu, şəhidlərin ruhuna verilən cavab, onların intiqamının alınması demək idi. 2020-ci ildə Azərbaycan əsgəri yalnız torpaqlarımızı işğaldan azad etmədi, həm də ana torpaq uğrunda şəhid olan oğul və qızlarımızın yarımçıq qalan missiyalarını başa çatdırdı. 2023-cü il 19-20 sentyabr tarixlərində suverenliyimizin tam bərpası, Konstitusiyamızın bütün ərazilərimizdə hüquqi qüvvəyə minməsi ilə tarixi ədalət bərqərar oldu.

2020-ci il noyabrın 8-də Şuşanın azadlıq müjdəsi təsadüfən Şəhidlər xiyabanından verilməmişdi. O gün Qarabağın xilaskarı İlham Əliyev xalqımıza zəfərin xoş xəbərini, torpaqlarımızın işğaldan əbədi qurtulduğunu belə yetirdi: "Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

Bəli, 2020-ci ildə Şəhidlər xiyabanından ucalan Zəfər səsi bütün dünyaya "Qarabağ Azərbaycandır" həqiqətinin bəyanı idi. Bu, Azərbaycan xalqının məğlubedilməzlik dastanının Zəfər nidası idi. Azadlığı üçün ölümü belə seçməyi bacaran xalqın mütləq qalib gələcəyinin formulu idi.

### Qan yerdə qalmadı

Bu tarixi zəfərə yetənə qədər isə xalqımız çox faciələrlə üzləşdi. 1980-ci illərin sonlarından açıq müstəviyə keçən erməni fitnəsinə qarşı alovlanan azadlıq hərəkatımızı, haqq səsimizi boğmaq üçün üstümüzə qoşun yeridən sovet imperiyası ilə yalın əllə çarpışmalı, 20 Yanvar faciəsini yaşamalı olduq.

1987-ci ilin axırlarında yenidən ortaya atılmış qondarma "Dağlıq Qarabağ" problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda, o cümlədən Qarabağın dağlıq hissəsində yaşayan yüz minlərlə azərbaycanlının öz dədə-baba torpağından qovulmasına yönəlmişdi. Ermənistanın təcavüzkar hərəkətlərindən və ovaxtkı SSRİ rəhbərliyinin ermənilərə açıq şəkildə havadarlıq etməsindən hiddətlənən xalqımız azadlıq hərəkatına başlayaraq, Bakının küçələrinə və meydanlarına axışıb, gecə-gündüz haqlı etirazını bildirirdi. 1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusu millətimizin azadlıq uğrunda mübarizəsini dayandırmaq, haqq səsini boğmaq üçün geniş xalq kütləsinə qarşı hərbi əməliyyatlara başladı. Sovet ordusunun böyük hərbi heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi.

Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi.

1990-cı il yanvarın 20-də gecə baş verən sovet zülmünə qarşı etiraz edən qəzəbli insan izdihamı Azadlıq meydanına axışaraq şəhidlərin cənazələrinin Bakının ən hündür nöqtəsində torpağa tapşırılmasını istədilər.

Qərara gəlindi ki, Şəhidlər xiyabanı kimi 1918-ci il şəhidlərinin dəfn olunduğu yer - Dağüstü park seçilsin. Bu həm də tarixi yaddaşın təzələnməsi olsun.

Yanvarın 22-si saat 12.00-da şəhidlərin cənazələri insanların çiyinlərində Azadlıq meydanından izdihamla paytaxtın küçələrindən keçməklə indiki Şəhidlər xiyabanına gətirildi. Dəfn mərasimi 5 saat çəkdi.

### Faciəyə ilk siyasi-hüquqi qiyməti Ulu Öndər Heydər Əliyev verdi

1990-cı il yanvarın 20-də Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə ilk siyasi-hüquqi qiyməti Ümummilli Lider Heydər Əliyev verdi. Təhlükələrə baxmayaraq, Ulu Öndər ölkəmizdə baş verən qanlı hadisənin ertəsi günü Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi.

"Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır", - deyə SSRİ rəhbərliyinin qərarını kəskin tənqid edərək, rəsmi açıqlama tələb edən Heydər Əliyev cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il mart ayının 29-da isə Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi.

### Vətən azaddır, bütövdür...

1988-ci ilin 20 fevralında ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin sessiyasını çağıraraq qərar qəbul etmişdilər ki, DQMV Azərbaycanın tərkibindən çıxır və Ermənistana birləşdirilir. Bu bədnam qərarın qəbul edildiyi tarixə görə isə həmin iclasın keçirildiyi binanın qarşısındakı meydana "20 Fevral adına Dirçəliş Meydanı" adı vermişdilər. Bu meydanda hərəkata başlayan erməni şovinistləri xalqımızın başına çox müsibətlər açmışdılar.

Düz 35 ildən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan bayrağını məhz həmin meydanda - Zəfər meydanımızda əbədi ucaltdı.

2023-cü il oktyabrın 15-də Qarabağın xilaskarı İlham Əliyev Xankəndidə Zəfər meydanından bütün dünyaya bəyan etdi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bəli, Qanlı Yanvar faciə idi... Amma o faciədən doğan sarsılmaz iradə Zəfərə çevrildi. Şəhidlər Xiyabanından azadlığa uzanan yol Qarabağda - Zəfər meydanında zirvəsinə çatdı.

Bu gün Şəhidlər xiyabanına, ölkəmizin dörd bir yanındakı şəhid məzarlıqlarına fərqli hisslərlə üz tuturuq. Bu dəfə göz yaşlarımızla yanaşı, ürəyimizdə qürur da var. Bu dəfə kədərin içində təsvirəgəlməz mənəvi rahatlıq da var. Bilirik ki, Vətən azaddır, bütövdür...

Şəhidlərimizin qanı yerdə qalmayıb...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Arzusu həkim olmaq idi



**Xalqımızın qəhrəmanlıq tarixinin şanlı səhifələrindən biri, ən yeni tariximizin ilk səhifəsi hesab edə biləcəyimiz 1990-cı ilin 20 Yanvarından 36 il keçir. Azadlıq tariximiz də o gündən başlayır, müstəqilliyə gedən yoldakı qətiyyətimiz də. Mərhum Xalq şairimiz Bəxtiyar Vahabzadə əbəs yerə deməmişdi: "Torpağın qoynuna cəsədləriylə Azadlıq toxumu əkdi şəhidlər".**

O da həmin şəhidlərdən biridir. Ayaq izləri qalıb Salyanda. Məzarı da dünyaya göz açdığı, boya-baş çatdığı torpaqdadır. Surəti isə onu tanıyanların, sevənlərin, qədirbilən xalqımızın qəlbində əbədi yurd salıb.

20 Yanvar 1990-cı il hadisəsi zamanı qanlı imperiya ilə mübarizədə nakam gedən qurbanlardan biri - Elçin İmanovdan söz açırıq. Zəhmətkeş və ziyalı ailədə boy atmışdı. Ürəyində gələcəkdə həkim olmaq, xalqa, Vətənə xidmət etmək arzusu var idi. Buna görə də dərslərinə münasibəti gündən-günə ciddiləşirdi. Hər gün məktəbdən gələr, azacıq istirahət etdikdən sonra kitabları qarşısına tökərdi. Bütün fənləri lazımınca öyrənmək üçün özünə rejim cədvəli də tərtib etmişdi. Kimya, biologiya, fizika, Azərbaycan dili, ədəbiyyat dərslərinin sadədən tutmuş mürəkkəbə qədər hər bir sirrinə mükəmməl yiyələnməyə səy göstərirdi. Vaxt tapanda isə məhəllə yoldaşları ilə futbol da oynayardı.

Elçinin nümunəvi davranışı, dərslərdəki əzmi valideynlərini də, müəllimlərini də sevindirirdi. Bir gün atası Beydulla kişi dərslərini hazırlayan Elçinin otağına gəlir, başına sığal çəkib ondan "Gələcəkdə hansı sənətin sahibi olmaq istəyirsən?" deyə soruşur. O zaman 9-cu sinif şagirdi olan Elçin əmisi Sahib kimi diş həkimi olmaq istədiyini bildirir. Atası gülümsəyərək əyilib oğlunun üzündən öpür və qardaşı ilə görüşlərin birində Elçinin də onun kimi diş həkimi olmaq arzusunda olduğunu söyləyir. Sahib həkim bu xəbərdən məmnun olur, nəsildə peşəsinin davamçısı yetişəcəyindən sevinir.

Günlər, aylar, illər bir-birini əvəz edir. Elçin orta təhsilini başa vurub elə həmin il - 1986-cı ilin yayında sənədlərini ovaxtkı N.Nərimanov adına Tibb İnstitutunun Stomatologiya fakültəsinə verir. Tələbə adını qazanır. Tələbə biletini, qiymət kitabçasını əlinə alanda sevinci yerə-göyə sığmır. Hər iki sənəddə "İmanov Elçin Beydulla oğlu. N.Nərimanov adına Azərbaycan Tibb İnstitutu Stomatologiya fakültəsi. Birinci kurs, 445-ci qrup" sözləri yazılmışdı.

Həmin dövrün qayda-qanununa görə ali məktəblərdən də hərbi xidmətə çağırırdılar. Odur ki, Elçin birinci kursu başa vurduqdan sonra hərbi xidmətə gedir. Əvvəl Rusiyanın Volqoqrad vilayətində, bir neçə ay sonra isə Almaniyada xidməti borcunu yerinə yetirir. Əsgərlik illərində də Elçin arzularından bir an olsun belə ayrı düşmür. Məktublarının birində kitablarının bağlama ilə göndərilməsini xahiş edir.

Əsgərlik həyatı onu təhsildən müəyyən vaxt geri atsa da, xeyri də dəyir. Bərkə-boşa düşür, ağı qaradan, yaxşını yamandan ayırd etməyi öyrənir. Başqa millətdən olan əsgər yoldaşlarının yanında öz valideynlərinin, doğulub boya-başa çatdığı Vətənin - Azərbaycanın adını ucaltmağa çalışır. Buna görə dəfələrlə komandanlığın təşəkkürnaməsini alır.

İki il ötüb keçir. Elçin əsgərlik borcunu yerinə yetirib Vətənə qayıdır. Yenidən qayğılı tələbəlik illəri başlanır.

Elçin və ovaxtkı Xalq Təsərrüfatı İnstitutunda oxuyan qardaşı Fuadla indiki Cəlil Məmmədquluzadə küçəsində olurdular. Ataları ailələrinin maddi imkanını nəzərə alıb onlar üçün ucuz qiymətə birotaqlı həyət evi kirayə etmişdi. Özü də ayda bir-iki dəfə Bakıya gəlib oğlanlarının dərdini-sərini öyrənər, dərsləri ilə maraqlanar, rayondan gətirdiyi ərzağı verib geri qayıdardı. Lakin tələbəliyin ən şirin anlarını özündə yaşadan yataqxana həyatı onları maqnit kimi həmişə çəkirdi. Odur ki, vaxt tapan kimi Elçin tələbə yataqxanasına - qrup yoldaşlarının yanına gedər, birlikdə seminar və imtahanlara hazırlaşar, maraqlı diskusiyalar aparardılar. Çox vaxt qardaşı Fuad da ona qoşulardı. Bu o vaxtlar idi ki, Bakı qaynar qazanı xatırladırdı. Torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsi, respublikaya rəhbərlik edənlərin Moskva qarşısında acizlik göstərmələri, heç bir təsirli tədbir həyata keçirə bilməmələri, yalnız öz vəzifə kürsülərini qorumaq cəhdləri xalqı sözün əsl mənasında hövsələdən çıxarmışdı. Xalq öz sözünü demək üçün Azadlıq meydanına toplaşır, vəziyyətdən çıxış yolu tapmaqdan ötrü mitinqlər keçirirdi.

Həmin hadisələr vaxtı mitinq iştirakçılarının demək olar ki, çox hissəsini tələbələr təşkil edirdi. Gənclər bütün ölkələrdə tarixin dönüş nöqtələrində aparıcı qüvvə olublar. O zaman Bakıda da belə idi. Əksər ali məktəblərin tələbələri kimi indiki Tibb Universitetində təhsil alan gənclər də ictimai-siyasi hərəkatda fəal iştirak edirdilər.

Elçinin qardaşı Fuad deyir ki, qış sessiyası idi. Elçin yanvarın 19-da növbəti imtahandan "əla" qiymət almışdı. Ovqatı yaxşı idi. Lakin baş verən hadisələr bütün tələbələr kimi onu da narahat edirdi. Söz-söhbət gəzirdi ki, rus qoşunları şəhərə girəcək. Ehtimallar düz çıxdı. Axşamüstü tələbə gənclər televizorun qarşısında oturub hadisələrin gedişini izləyirdilər. Birdən-birə televizor söndü. Elçin qardaşı Fuadla həmin vaxt tələbə dostlarının yanında idi. Yataqxananın həyətində bir neçə avtobus dayanmışdı. Nə məqsədlə bilən yox idi. O zaman cəmiyyətdə belə bir fikir formalaşmışdı ki, sovet ordusu, o vaxt deyildiyi kimi, Qızıl Ordu öz xalqına əl qaldırmaz. Baş verəcəklərdən, imperiyanın qanlı, məkrli planlarından heç kəsin xəbəri yox idi. Bilən yox idi ki, bu Qırmızı ordu ermənipərəst - cinayətkarlardan təşkil olunmuş xüsusi dəstə Azərbaycan xalqının gözünü qorxutmaq, xalqımızı qanına qəltan etmək üçün gəlmişdi. Bu, bədnam M. Qorbaçovun xüsusi hazırlanmış planı idi.

Həyətə düşən tələbələrə avtobuslara oturmaq komandası verildi. Keçmiş Çapayevlə L.Şmidt küçələrinin kəsişməsində avtobuslardan düşən tələbələr silahlı ordu tərəfindən atəşə tutuldular. Gecənin bağrını dəlib keçən güllələrdən biri də Elçin İmanova tuş gəldi. Qardaşı Fuad, tələbə dostları Səlim, Cavid, Əlipaşa onu təcili yardım maşını ilə 4 saylı xəstəxanaya çatdırsalar da, həkimlər gənci xilas edə bilmədilər. Elçin 20 Yanvar gecəsi saat 12 radələrində aldığı güllə yarasından keçindi.

Gecə vaxtı çətinliklə də olsa, onu Salyana gətirdilər. Səhəri gün bütün Salyan camaatı yığışaraq Elçin İmanovu böyük kədər və ehtiramla son mənzilə yola saldı. Şəhid adı, ömrün şəhidlik zirvəsi ifadəsi o gündən leksikonumuzda ən müqəddəs sözə çevrildi. Ailə üzvlərinin, rayon ictimaiyyətinin yaxından iştirakı ilə yüksək səviyyədə hüzn mərasimi keçirildi. Qəbri üstündə abidə tikildi.

Ulu Tanrı tərəfindən hər kəsə bir ömür payı verilir. Kiminə az, kiminə çox. Sonda isə bir gün gələnlər bir gün də tərk edir bu dünyanı. Fərq ondadır ki, verilən ömür payını necə yaşamısan, özündən sonra hansı izi qoyub getmisən. Şəhidlərimizin çoxu gənc yaşlarında həyatdan köç ediblər. Onların ürəklərində bəslədikləri neçə-neçə şirin arzuları sona çatmayıb, yarı yolda qalıb. Əksər hissəsi heç ailə həyatı da qurmayıb. Elçin İmanov üçün də el adəti ilə elçi gediləcək, qırmızı xonçalar bəzənəcək, toy olacaqdı. Bütün gənclər kimi, onun da gözaltısı, seçib sevdiyi qız vardı. 20 gün əvvəl Yeni il münasibətilə onu təbrik edib bir dəstə gül də bağışlamışdı. Sevinc, xoşbəxtlik, vüsal rəmzi olan qərənfillər respublikamızda görüşə, təbrikə aparılan, bəlkə də son güllər idi. Qanlı Yanvar faciəsindən sonra onların da təyinatı, ünvanı dəyişdi.

Ali təhsilini başa vurduqdan sonra ailə həyatı qurmaq, ev-eşik sahibi olmaq, ata-ana borcunu qaytarmaq, işləyib həkim kimi cəmiyyətə xeyir vermək Elçinin ən ülvi və pak arzuları idi. Amma nə edəsən ki, ürəyində bəslədiyi şirin duyğular namərd gülləsinə tuş gəldi, arzuları yarı yolda qaldı. Əvəzində ömrünün 24-cü qışında şəhidlik zirvəsinə ucaldı, əbədiyyətə qovuşdu.

İllər, qərinələr, əsrlər keçəcək, adları Azərbaycanın müstəqillik tarixi salnaməsinə qızıl hərflərlə yazılan şəhidlərin xatirəsi gələcək nəsillər tərəfindən həmişə böyük minnətdarlıq hissi ilə yad ediləcək. Çünki onlar ölümləri ilə ölməzlik qazanıblar:

*Siz ey Vətən yolunda şirin canından keçib,*
*İgidliyi, mərdliyi özünə amal secib,*
*Ömrün bahar çağında həyatdan erkən köçüb,*
*Ölümüylə bu yurdu, torpağı yaşadanlar,*
*Yaşayan hər ömürdə qanınız, canınız var!*

*Səs verdiniz Vətənin harayına, səsinə,*
*Yüksəldiniz müqəddəs şəhidlik zirvəsinə.*
*Məzarınız dönübdür ziyarət türbəsinə.*
*İnanın, and içirik, qanınız alınacaq,*
*Xatirəniz, ruhunuz həmişə anılacaq!*

*Bir ata övladından el oğluna döndünüz,*
*Kim deyir ki, öldünüz, kim deyir ki, söndünüz?!*
*Gələcək nəsillərə yetəcəkdir ününüz.*
*Siz bu gün də, sabah da, əsrlərlə sağsınız!*
*Bu yurdun sinəsində vüqarsınız, dağsınız!*

*Siz yazdınız millətin tarixini qan ilə,*
*Sinənizdə yurd saldı yurda atılan güllə.*
*Məzarınız tutulub min çələngə, min gülə.*
*Tərsiniz çiçək kimi, həmişə baharsınız!*
*Azərbaycan köksündə əbədi yaşarsınız!*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***






# Şəhid ailələrinə və əlillərə dövlət qayğısı daimidir

**Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan bütün bunlara beynəlxalq hüquq normalarına uyğun olaraq öz gücü hesabına nail olub. Vətən müharibəsindən ötən beş ildə qlobal siyasi arenada əldə olunan uğurlar, həmçinin Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətindəki irəliləyişlər qətiyyətli iradə, əzm və düşünülmüş, praqmatik xarici siyasət sayəsində mümkün olub.**

İşğaldan azad olunmuş ərazilər artıq yenidən qurulur, bərpa edilir, əzəli sahiblərinin qayıdışı ilə o torpaqlara həyat qayıdır. Bütün bunlar illərin həsrətinə son qoyur, amma ötən dövrdə yaşanan acıları, itkiləri, xalqın başına gətirilən müsibətləri unutdurmur. Həmçinin ağır zamanında vətənin müdafiəsinə qalxanlar, uğrunda canını qurban verənlər, bu yolda sağlamlıqlarını itirənlər, şəhadətə yüksələnlər unudulmurlar. Şəhid ailələri, qazilər, əlilliyi müəyyən olunmuş şəxslər davamlı dövlət qayğısı ilə əhatə olunurlar. Bu baxımdan Qanlı Yanvar faciəsi ilə əlaqədar şəhid ailəsi üzvlərinə, əlil olmuş insanlara da dövlət tərəfindən hər zaman dəstək göstərilib.

20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət ilk dəfə Ümummilli Lider Heydər Əliyev tərəfindən verilib. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il martın 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edib. 1998-ci ildə Heydər Əliyevin imzaladığı müvafiq fərmanla "20 Yanvar Şəhidi" fəxri adı təsis olunub. Ulu Öndər tərəfindən həssas qrupdan olan insanların hərtərəfli qayğı ilə əhatə olunması üçün bir sıra qərarlar qəbul edilib. Daha sonra bu siyasi xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib.

Dövlət başçısının 2006-cı il 19 yanvar tarixli fərmanı ilə "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilib. Azərbaycanın azadlığı, suverenliyi uğrunda həlak olanların əziz xatirəsini yad edərək, şəhid ailəsi üzvlərinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə "20 Yanvar Şəhidi" fəxri adı almış insanların ailə üzvlərinə aylıq 300 manat Prezident təqaüdü təyin olunub. Bu kateqoriyadan olan şəxslərin sosial təminat sistemi ilə əhatə olunması üçün görülən tədbirlər Prezident İlham Əliyevin həssas qruplara xüsusi diqqət və qayğısı nəticəsində ildən-ilə davam etdirilərək daha da gücləndirilib. Hazırda Prezidentin aylıq təqaüdü ilə təmin olunan 20 Yanvar şəhidlərinin ailələri üçün müvafiq olaraq 700 manat, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər üçün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə 600 manat, 61-80 faiz pozulmasına görə 500 manat, 31-60 faiz pozulmasına görə 400 manat ödənilir.

Bununla yanaşı, əlilliyi olan şəxslərə orqanizmin funksiyalarının pozulma faizinə müvafiq olaraq 300 manat, 250 manat və 180 manat müavinət, həmçinin orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi olan şəxslərə qulluğa görə 120 manat Prezidentin aylıq təqaüdü də təyin edilib.

Həmçinin ötən dövrdə dövlət tərəfindən 20 Yanvar şəhidlərinin ailələrinə, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olanlara 140-dan çox mənzil, eyni zamanda əlilliyi olan şəxslərə 100-dək avtomobil təqdim edilib. Bütün bunlar həssas təbəqədən olan insanların həyat şəraitinin asanlaşdırılması, rifah halının yüksəldilməsi məqsədi daşıyır. Həmçinin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər reabilitasiya vasitələri və reabilitasiya xidmətləri ilə də təmin edilirlər.

Ümumiyyətlə, bu kateqoriyadan olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılması, şəhid övladlarının təhsili və sağlamlığını itirənlərin müdafiəsi dövlətin daim nəzarətindədir və bu istiqamətdə ardıcıl işlər görülür. Sosial islahatlar zamanı həmin şəxslərin sosial müdafiəsi məsələsi xüsusilə ön planda olur ki, bunu da verilən qərarlardan aydın görmək mümkündür.

20 Yanvar şəhidlərinin əmək pensiyası almaq hüququ olmayan ailə üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlərə görə, 20 Yanvar əlillərinin 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar 18 yaşınadək) uşaqlarının hər birinə aylıq sosial müavinətlər verilir. Prezidentin 18 mart 2014-cü il tarixli sərəncamı ilə digər müvafiq kateqoriyalardan olanlar kimi, 20 Yanvar əlilləri və şəhidlərinin də respublikanın ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan uşaqları təhsil haqqından azad olunublar.

Vətən müharibəsindən sonra da müharibədə şəhid olanların ailələrinə, həmçinin yaralananlara göstərilən diqqət və qayğı da göstərir ki, həssas təbəqədən olan şəxslər daim dövlət qayığısı ilə əhatə olunurlar. Bu istiqamətdə həyata keçirilən tədbirlər, davamlı layihələr də onlara göstərilən xüsusi diqqətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin verdiyi sərəncam, fərmanlara əsasən, ölkəmizdə bu kateqoriyadan olan şəxslərin effektli sosial müdafiə sistemi formalaşıb. 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər, habelə 20 Yanvar şəhidlərinin ailə üzvləri üçün həmçinin qanunvericilikdə bir sıra imtiyaz və güzəştlər də nəzərdə tutulub.

1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılan, and yerimiz olan Şəhidlər xiyabanı da şəhidlərimizə böyük ehtiramın təzahürüdür. Hər il yanvarın 20-də minlərlə insan şəhidlərin uyuduğu bu müqəddəs məkana baş çəkərək onları bir daha anır, ruhları qarşısında baş əyir.

Heydər Əliyevin 5 avqust 1998-ci il tarixli sərəncamına əsasən, Şəhidlər xiyabanında yaradılan "Əbədi məşəl" abidə kompleksinin açılışı elə həmin il oktyabrın 9-da baş tutub. 2007-ci ildə isə Prezident İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanı rekonstruksiya olunarkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirilib, abidədəki səkkizguşəli ulduz və məsamələri qızılla işlənilib. 20 yanvar 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən açılışı olan "20 Yanvar Abidə-Kompleksi" də faciə qurbanlarının xatirələrinin daim uca tutulduğunun təsdiqidir. Ümumi sahəsi 1500 kvadratmetr olan kompleks üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı və Heydər Əliyevin "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" sözləri qızılı hərflərlə həkk edilib.

1990-cı il Qanlı Yanvardan ötən 36 ildə şəhid ailələri və faciə ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxslərə göstərilən diqqət bir daha göstərir ki, azadlıq mübarizəmizin fədailəri unudulmur, sağlamlıqlarını bu yolda qurban verənlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar. Bu kateqoriyadan olanların sosial müdafiə sisteminin gücləndirilməsi, onlara bütün sahələrdə öncüllük verilməsi isə dövlət qurumlarının əsas vəzifələrindən biridir. Bunu Prezident İlham Əliyev bir vəzifə kimi qarşıya qoyub və fəaliyyət istiqamətində özünün borcu kimi müəyyənləşdirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# 20 Yanvarın şahidi və şəhidi - qanla suvarılan qərənfil




**20 Yanvar faciəsi Azərbaycan tarixinin qanlı və unudulmaz səhifələrindən biridir. 1990-cı ilin bu qara günündə xalqımız öz azadlıq və müstəqillik arzusu uğrunda böyük itkilər verdi. Qərənfil gülü isə həmin faciənin həm şahidi, həm də şəhidi oldu. Üstəlik də qəhrəmanlığın, şücaətin və vətən sevgisinin simvoluna çevrildi.**

O gündən sonra xalqın dəyərləri də fərqli məna qazandı. Xüsusilə də qərənfil gülü sevincin simvolu olmaqdan çıxdı, kədərin, hüznün, itkinin və şəhid qanının rəmzinə çevrildi. Bu gün Şəhidlər xiyabanından səssiz boylanan hər qərənfil 20 Yanvarın hüznünü və xalqın sarsılmaz iradəsini göz önünə gətirir. Azərbaycan xalqının qanla yazılmış tarixini xatırladır və şəhidlərin əbədi xatirəsini yaşadır.

Vaxt var idi qərənfil gülləri dünyanın ən yaxşı çiçəkləri sayılırdı. Bir ədəd qərənfillə bir "işi aşırmaq" olurdu. Bir dəstə qərənfil bir ömürlük səadət, xoşbəxtlik rəmzinin göstəricisinə çevrilir, iki gəncin həyatını dəyişir, iki ürəyin birlikdə döyünməsinə stimul verirdi. Bu o vaxtlar idi ki, qərənfil gülü SSRİ məkanında Azərbaycan brendi idi. O qədər əziz, o qədər sevimli idi ki, insan onun rəngi, zərifliyi, gözəlliyi qarşısında heyran olurdu.

Amma gün gəldi, qərənfil sevgi rəmzi olmaqdan çıxdı. Bu sevgili çiçək qana boyandı, hüzn onun "qəlbinə" çökdü, qəmkədər rəngini soldurdu.1990-cı ilin 20 yanvarından sonra bu çiçək "təyinatını dəyişdi". Həmin zamana qədər insanın əlində qərənfil olanda gözlərindən sevgi süzülürdü. Amma indi bu sevgini göz yaşı əvəz edib. Qərənfil 36 ildir başqa bir duyğu ilə "yüklənib". Bu sevgili gül şəhidlərə ağı deyir, ağlar gözlərə şahidlik edir. Təbii ki, bu ağı da müqəddəsdir, bu çiçək də. Çünki vətən uğrunda canını verən igidlər son mənzilə qərənfillə yola salınır, qəhrəman oğullarla bərabər torpağa sərilir. 36 ildir bu hüzn çiçəyi Şəhidlər xiyabanının daimi sakinidir, şəhid ruhları ilə birlikdə Azərbaycanın başı üzərində dolaşır, torpaqda uyuyan oğullara "nəfəs verir". Hər qərənfil ləçəyi bir ömrün yarımçıq qalan hekayəsi kimi görünür. Ana fəryadı, ata sükutu, xalqın kədəri bu çiçəyin üzərinə hopub. Qərənfil sevincli mərasimlərdən çəkilib, matəm yürüşlərinin önündə yer alıb, xalqın sınmayan iradəsinin simvoluna çevrilib.

20 Yanvardan sonra hər məzara səpilən qərənfil azadlıq uğrunda can verənlərin səssiz andı kimi qəbul olundu. O gecə Bakı küçələri qırmızı qərənfillərlə örtüldü. İnsanlar etirazlarını çiçəklərlə ifadə etdilər. Sovet tanklarının qarşısına çıxan insanların əlində silah əvəzinə qərənfil vardı. Zirehli texnikanın qarşısında duran bu çiçək gücün silahda deyil, haqda olduğunu göstərirdi. İnsanlar əllərində qərənfil ölümün üzünə dik baxır, ləyaqətlərini tapdalamamağa and içirdilər.

20 Yanvardan sonrakı günlərdə tanklar gül düzülmüş küçələri əzəndə qərənfillər yaddaşları oyadırdı. Çiçək əzilsə də, mənası əzilmirdi. Əlində qərənfil tutan insanın ürəyi titrəsə də, iradəsi sınmırdı. Məhz buna görə qərənfil 20 Yanvarın həm də məğrurluq simvoludur. Zaman keçsə də, onun daşıdığı məna solmur. Hər ləçəyi, hər yarpağı ilə bu gül xalqın yaddaşını qoruyur, o mənhus gecənin ağrısını unutmamağa çağırır. Qərənfil sadəcə gözəl bir çiçək deyil, qanla yazılmış tariximizin, qəhrəmanlıq dastanımızın və azadlıq eşqimizin yaddaşıdır.

Bu gün Şəhidlər xiyabanı, həmçinin bu məkana gedən yollar yenə qərənfillərlə "bəzənib". Şəhidlərin məzarlarından boylanan qərənfillər sanki deyir: "Biz hələ buradayıq". Qərənfilin qırmızı rəngi şəhid qanını və vətən uğrunda verilən əbədi andı xatırladır. İnsanlar ona baxanda ağlayır, xatırlayır, amma eyni zamanda qürur duyurlar. Bu çiçək hər zaman vətən sevgisinin, məğrur iradənin və xalqın sarsılmaz birliyinin rəmzi olacaq. Qərənfil susur, amma minlərlə şəhidin fədakarlığını, anaların fəryadını, uşaqların göz yaşını, xalqın qəm və qürurunu daşıyır. Zamanla solsa da, onun mənası əbədidir. Hər qərənfil bir dərs, bir vəd kimidir - bizə unutmamağı, vətənə və azadlığa bağlı qalmağı xatırladır.

Qərənfil I Qarabağ müharibəsinin, eləcə də 44 günlük Vətən müharibəsi şəhidlərinin də nişanəsidir. Şəhidlərin gənc ömrü, anaların fəryadı, vətən uğrunda can verənlərin qəhrəmanlığı hər ləçəkdə yaşayır. Qərənfil həm hüzn, həm də qürur simvoludur. O, sadəcə bir çiçək deyil, Azərbaycan xalqının iradəsinin, qəhrəmanlıq tarixinin və vətən sevgisinin canlı rəmzidir.

*Qərənfil - şəhid qanı,*
*Ağla, qərənfil, ağla!*
*Ağla, inlət meydanı,*
*Ağla, qərənfil, ağla!*

Misraların müəllifi şair Məmməd Aslan faciə günlərində "ağla, qərənfil, ağla" desə də, bu gün onun hər ləçəyi bir ömrün hekayəsi, qırmızı, sarı, ağ rəngi isə qəhrəmanlığın izidir. Şəhid məzarlarındakı qərənfillər solsa da, daşıdığı mənalar, xatirələr və dərslər əbədidir. Xalqın yaddaşında yaşayır, gələcək nəsillərə vətənin, azadlığın və qəhrəmanlığın rəmzi olaraq ötürülür.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Ayağa qalxmaq istəyəndə ayağımın qan içində olduğunu gördüm..."

**O gecə Bakı daha narahat və izdihamlı idi. Küçələrdə həmişəkindən daha çox insan var idi. Şahlar işdən qayıdandan sonra bir qədər dincəlmək istəyirdi. Həmin gün gecə saat 12-də Salyan kazarmasının yaxınlığındakı dairədə sovet qoşunlarının şəhərə girməsinin qarşısını almaq üçün növbə çəkən iş yoldaşlarını əvəz etməli idi. O, işdən sonra Alatavada kirayədə yaşadığı mənzilə getsə də, özünü narahat hiss edib, növbəni dəyişmək vaxtından xeyli əvvəl yoldaşlarının yanına gəlib.**



"Qış olsa da, hava o qədər də soyuq deyildi. Paltosuz-kurtkasız, başıaçıq olanlar da var idi", - deyə Şahlar 1990-cı il yanvarın 19-u gecəsini xatırlayır: "Təxminən saat 12-nin yarısında göyə fişəng buraxıldığını gördük. Bundan bir az sonra bir də təkrar olundu. Növbəni qəbul edib, yoldaşları əvəz etdik. Ətrafda tonqal qalanmışdı, hər şeydən xəbərsiz halda küçədə dayanmışdıq. Bir qədər sonra yenə də çoxlu fişənglərin atıldığını gördük. Salyan kazarması tərəfdən də fişənglər atıldı. Gecədən xeyli keçmiş bir tank gəlib, əliyalın adamların dayandığı dairənin yaxınlığından dövrə vurub qayıtdı. Gecənin yarısı fişənglərin camaata doğru atılmasına başlanıldı, bundan sonra yüzlərlə insanın dayandığı ərazini tərk edənlər olsa da, orada yenə də xeyli adam var idi. Bir az sonra ətrafda işıqlar söndü və camaatın dayandığı əraziyə tüstü verən atəş açıldı. Salyan kazarmasından tanklar çıxmağa başladı. Qəflətən həm kazarmanın içindən, həm də haradansa camaatı atəşə tutdular. Bir də onda hiss etdim ki, yanımda dayananların hamısı yerə yıxıldı. Mən də yaxınlıqdakı çalaya yıxıldım. Təxminən on dəqiqə müxtəlif silahlardan camaatın üstünə atəş açıldı. Sakitlik yaranan kimi ayağa qalxmaq istəyəndə gördüm ki, tanklardan düşüb gələn silahlı rus əsgərləri avtomatın qundağı ilə ətrafda qətlə yetirilənlərin bir neçəsinin cənazəsini o yan-bu yana çevirib baxdılar və sonra çıxıb getdilər. Çalaya düşdüyüm və güllələnmiş avtobusun arxasında olduğum üçün məni görmədilər. Ayağa qalxmaq istəsəm də, bacarmadım, əlimi ayağıma doğru uzadanda qan içində olduğumu gördüm. Ətrafda təkəm-seyrək addım səsləri eşidilirdi. Sağ qalanlar və yüngül yaralananlar hadisə yerindən uzaqlaşmağa başlayırdılar. Yaxınlıqdan keçənləri kömək etməyə çağırdım, onlar məni həmin ərazidə olan həyət evlərindən birinə gətirdilər. İçəri girəndə mənzilin yaralılarla dolu olduğunu gördüm. Yerli sakinlər mənzildə olan yorğanın, döşəyin üzünü cırıb onların yaralarını sarıyırdılar. Burada mənə də ilkin tibbi yardım göstərildi. Səhərə yaxın hava işıqlaşanda bizi ara yollarla taxtaların üstündə Kliniki Tibbi Mərkəzə çatdırdılar. Dilim-ağzım quruduğundan yolboyu tez-tez su istəyirdim".

Şahlar Həsənov gənclik illərində qalan həmin dəhşətli hadisəyə dair AZƏRTAC-ın müxbiri ilə söhbətinə belə davam edib: "Xəstəxana yaralılarla dolu olduğundan palatalarda boş yer yox idi. İki gün xəstəxananın dəhlizində qaldım. Yaram getdikcə daha çox incidirdi. Həkimlər gecəli-gündüzlü əməliyyat aparsalar da, yaralıların sayı azalmırdı. Yalnız yanvarın 23-də cərrah-travmotoloqlar Cavidan Bektaş və Vaqif Hüseynov məni əməliyyata götürdülər. Güllə topuğumdan dəyib dizimə qədər işləmişdi. Həkimlər ayaq sümüyümün zədələnmiş 7 santimetrlik hissəsini kəsib götürsələr də, amputasiya olunmaq istəmirdim. Xəstəxanada səkkiz ay müalicə olunsam da, yaram sağalmırdı. Tez-tez irinləyir, dava-dərman edəndən sonra bir müddət yaxşılaşır, sonra yenidən irin əmələ gəlirdi. Həkimlərin icazəsi ilə iki ay doğma Kəlbəcərə getdim, hərəkət etmək yalnız çəliyin köməyi ilə mümkün idi. Bir gün xəstəxanadan zəng edərək Kurqandan məşhur cərrah-ortoped Qavril İlizarovun tələbələrindən olan Əhməd Əhmədzadə adlı bir həkimin məni əməliyyata dəvət etdiyini xəbər verdilər. O, məni əməliyyat edib ayaq sümüyümü uzatsa da, üstündən uzun müddət keçməsinə baxmayaq, bitişmə alınmadı. 1991-ci ilin avqustunda məni əməliyyat üçün Türkiyəyə göndərdilər. İstanbulda əməliyyat olundum, bir ay xəstəxanada, iki ay Zeytunburnu sanatoriyasında müalicə olunandan sonra, nəhayət ki, çəliksiz yeriməyə başladım".

Üstündən uzun illər keçsə də, Şahların aldığı yara hələ də tam sağalmayıb, üç-dörd ildən bir müalicələrini davam etdirir. O, 1989-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və mülki tikinti fakültəsini bitirəndən sonra təyinatla göndərildiyi Neft-Qaz Layihə İnstitutunda mühəndis-konstruktor işləyib. Məşum gecədə aldığı yara onun bütün arzularını ürəyində qoyub, Şahların həyatını dəyişib. Qəbul etdiyi dava-dərmanlar onun mədə-bağırsaq sistemində də kəskin dəyişikliyə səbəb olub, indi o, həm də xroniki pankreatit xəstəsidir. "Azadlıq uğrunda mübariz" medalına layiq görülən ilk qəhrəmanlardan olan Şahlar ötən il əlilliyə görə təqaüdə çıxıb. Üçüncü dərəcəli əlildir. 20 Yanvar hadisələrində yaralandığına görə 2012-ci ildə "NAZ-Lifan" markalı avtomobillə təmin olunub, Prezident təqaüdü alır.

İki qız atası olan Şahlar baba olmaq arzusu ilə yaşayır. Böyük qızı Şəhla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını, kiçik qızı Gülxar Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. Hər ikisi xoşbəxt ailə həyatı qurub. 25 yaşında tuş gəldiyi hadisə - sovet qoşunlarının heç bir xəbərdarlıq etmədən əliyalın sakinləri gülləboran etməsi onun qəlbində ən ağrılı və unudulmaz hadisə kimi silinməz iz qoyub. O, tez-tez Şəhidlər xiyabanına üz tutur, torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qalxan günahsız qurbanların əziz xatirəsini yad edir.

20 Yanvar hadisələrinin şahidi deyir: "Mənə ən çox xoş gələn odur ki, 36 il keçməsinə baxmayaraq, xalqımız həmin gecənin qurbanlarını unutmur, hər il böyük hörmət və ehtiramla onları ziyarət edir, xatirələri həmişə əziz tutulur. Bir də ən çox ona sevinirəm ki, onların arzuları yerdə qalmadı. Bu gün Azərbaycan müstəqildir, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub, torpaqlarımız azaddır. Hesab edirəm ki, bundan böyük nemət ola bilməz".




# Qanla yazılan tarix heç vaxt unudulmur



**36 ildir 20 Yanvar faciəsinin ağrı-acıları qəlbimizi göynədir, ürəyimizi yandırır. Keçmiş sovet imperiyasının başımıza gətirdiyi bu qanlı faciənin üstündən illər ötüb keçsə də, Azərbaycan xalqı müstəqilliyi və azadlığı uğrunda şəhid olan övladlarını heç vaxt unutmur, daim onları hörmət və ehtiramla xatırlayır.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ölkəmizin paytaxtı Bakı şəhərində Azərbaycan tarixinin qanlı hadisələrindən biri baş verdi. Keçmiş ittifaqın ağır silahlarla təchiz olunmuş ordusu gözlənilmədən, heç bir xəbərdarlıq etmədən müxtəlif istiqamətlərdən ölkəmizin paytaxtı üzərinə hücuma keçərək dinc şəhər sakinlərini güllələbaran etdi.

Xalqımız 1990-cı ilin 20 yanvarının səhərini güllə səslərinə açdı. Hər gün insanların mehribancasına, əmin-amanlıq içində gəzdiyi, səhərlər işə, axşamlar evə tələsdiyi küçə və prospektlərdən atəş səsləri eşidilirdi. Havadan barıt iyi gəlirdi. Keçidlər, küçə və yollar qana bulanmışdı. Yaşamaq, qurub-yaratmaq arzusunda olan neçə-neçə insanın həyat yolu həmin gecə sovet əsgərlərinin atdığı güllələrdən yarıda qırılmışdı. İnsanlara ölüm gətirən güllələr şəhidlərimizi harada gəldi yaxalamışdı. Çox böyük qəddarlıqla sovet hərbçiləri binaların divarlarını da, yol kənarında dayanmış avtomobilləri də güllədən keçirmişdilər. Faciənin qanlı mənzərələrinə baxdıqca nifrətimiz, qəzəbimiz aşıb-daşırdı. İnsan qanına susamış bu qəddar zabit və əsgərlər heç kəsə aman verməmiş, kimi harada gəldi güllələmişdilər. Olduqca dəhşətli və tükürpədici səhnələr idi. Bu mənzərəni görən gözlər qan ağlayır, ürəklər qəzəblə çırpınırdı.

Dəhşət püskürən 20 Yanvar gecəsində Bakıda, həmçinin ölkəmizin müxtəlif rayonlarında keçmiş imperiya əsgərləri tərəfindən 147 nəfər qətlə yetirildi. 700 nəfərdən çox insan ağır yaralandı və müxtəlif dərəcəli bədən xəsarəti aldı. Bu qanlı faciədə təkcə azərbaycanlılar deyil, ölkəmizdə yaşayan başqa millətlərin nümayəndələri də hərbçilər tərəfindən öldürülmüşdü.

Faktlara, rəqəmlərə göz yaşları içində baxırıq. 20 Yanvar faciəsində 117 nəfər azərbaycanlı, 6 rus, 3 tatar və 3 yəhudi imperiya əsgərlərinin gülləsinə tuş gəlmişdi. Faciəli şəkildə həlak olanların arasında 4 milis işçisi, 1 həkim, 12 tələbə, 1 aspirant, 3 elmlər doktoru var idi. Qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si isə azyaşlı uşaq idi. Faktlar göstərir ki, Bakıya hücum çəkmiş imperiya əsgərləri qarşısına çıxanlara aman verməmiş, onları güllələmişdilər. Məlumdur ki, müharibələrdə adətən təcili yardım maşınları atəşə tutulmur, həkimlər öldürülmür. Amma insani hisslərdən məhrum olmuş sovet əsgərləri yaralıların xilasına tələsən həkimləri də güllələmişdilər, təcili yardım maşınlarını da vurmuşdular.

Yaxşı xatırlayırıq ki, 1990-cı il yanvarın 21-də şəhidlərə məzar qazmaq üçün qocalı, cavanlı hamı xiyabana axışırdı. Ürəyində insanlıq və azadlıq sevgisi olan şəhər sakinləri çiyin-çiyinə verərək bir-birlərinə kömək edə-edə yorulmaq bilmədən işləyirdilər. O günlərdə başımıza gətirilən bu qanlı faciə, ağrı xalqımızı bir yumruq kimi birləşdirmişdi.

36 il əvvəl soyuq bir qış gecəsində baş vermiş 20 Yanvar faciəsi xalqımızın tarixində yalnız kədər və qəm dolu bir gün kimi deyil, eyni zamanda qəhrəmanlıq səhifəsi kimi qalacaq. Bu faciə baş verən həmin axşam Azərbaycan xalqının cəsur oğul və qızları qanları ilə qəhrəmanlıq tariximizə yeni səhifələr yazdılar. Bu tarixin səhifələrini vərəqlədikcə biz müstəqilliyimiz və azadlığımız uğrunda mübarizə aparmış şəhidlərimizi daha da yaxından tanıyırıq. Onların yarımçıq qalmış mübarizə yollarını zəfər və qələbələrlə davam etdiririk.

Uzun illərdir ki, 20 Yanvar ölkəmizdə Hüzn Günü kimi qeyd edilir. İldönümü günlərində bir çox təşkilatda, tədris müəssisəsində, təhsil ocağında şəhidlərin anım mərasimləri keçirilir. Onların göstərdikləri qəhrəmanlıq və igidlik barədə gənclərə ətraflı məlumat verilir. Böyüməkdə olan nəsillər isə həmişə qəhrəmanlıqda müstəqilliyimiz və azadlığımız uğrunda canından keçmiş şəhidlərə oxşamağa çalışırlar.

Xalq şərəf və qürur dolu tarixini, bu tarixi yazmış qəhrəmanlarını heç vaxt unutmur. Daim onları ehtiramla yad edir, xatırlayır, adlarını hörmətlə çəkir. Hər birimizin müqəddəs ziyarətgahına çevrilmiş, and yerimiz olan Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldılıb. Heç vaxt sönməyən, alovlandıqca alovlanan bu məşəl gecəli-gündüzlü şəhidlərin ruhuna keşik çəkir.

Müstəqilliyimiz və azadlığımız uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bu gün şaddır. Çünki onların uğrunda şəhid olduqları müqəddəs amallar çiçək açıb. Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində, ondan sonra şanlı ordumuz tərəfindən uğurla həyata keçirilmiş antiterror əməliyyatları zamanı erməni işğalçıları məhv edilmiş, Qarabağdakı separatçıların kökü birdəfəlik kəsilmişdir. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa edilmişdir. Ona görə də xalqımız şəhidlərinin ziyarətinə alnıaçıq və başıuca gəlir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azadlığın qanla yazılmış manifesti



**Tarix cəmiyyətin kollektiv yaddaşını formalaşdıran, millətin özünüdərkini ifadə edən və gələcək nəsillər üçün mənəvi məsuliyyət yaradan əsas amildir. Azərbaycan xalqının tarixində 20 Yanvar faciəsi azadlıq ideyasının qanla yazılmış manifestidir. 20 Yanvar həm də dəyərlərin gənclər tərəfindən dərk edilməsi üçün mənəvi dərsdir.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının hərbi-siyasi aparatının Azərbaycan xalqına qarşı törətdiyi kütləvi zorakılıq aktı nəticəsində 147 nəfər dinc sakin həlak oldu, yüzlərlə insan yaralandı, neçə-neçə ailənin taleyi dəyişdi. Rəsmi fövqəladə vəziyyət elan edilmədən beynəlxalq hüquq normaları kobud şəkildə pozularaq Bakıya və ölkənin bir sıra bölgələrinə yeridilən sovet ordusu faktiki olaraq öz vətəndaşlarına qarşı müharibə apardı.

Qadınların, uşaqların, yaşlı insanların güllələbaran edilməsi, təcili yardım maşınlarının atəşə tutulması, mətbuatın və informasiya kanallarının susdurulması bu hadisəni sadəcə siyasi repressiya yox, eyni zamanda insanlığa qarşı cinayət kimi tarixə həkk etdi. 20 Yanvar milli iradənin sınmadığı, qorxu üzərində qalib gəldiyi bir dönüş nöqtəsidir. Sovet rejimi silah gücü ilə azadlıq tələblərini boğmaq istəsə də, əslində, Azərbaycan xalqının müstəqillik əzmini daha da möhkəmləndirdi. Bu hadisədən qısa müddət sonra Sovet İttifaqı dağıldı və Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Bu baxımdan 20 Yanvar müstəqilliyin başlanğıc nöqtələrindən biri, azadlıq yolunda ödənilmiş ağır, lakin qaçılmaz bir reallığa çevrildi.

Bu günün gənci üçün 20 Yanvar hadisələrinin qavranılması dəyişən sosial reallıqlar fonunda yeni məna qatları qazanır. Sovet totalitarizmini və həmin dövrün siyasi proseslərini görməyən müstəqil dövlət şəraitində formalaşan gənc nəsil bu faciəni daha çox analitik və informasiyayönümlü yanaşma ilə dərk edir. Bu yanaşma isə gənclərə tarixi emosional impulsdan kənara çıxmaqla səbəb-nəticə əlaqələri əsasında anlamaq, hadisələrin mahiyyətini daha dərindən təhlil etmək imkanı yaradır. Məhz bu baxımdan 20 Yanvar hadisələri gənclər üçün keçmişin faciəsi, azadlığın real dəyərini, onun insan taleləri və milli ləyaqət uğrunda verilmiş qurbanlar hesabına əldə olunduğunu dərk etməyə imkan verən mühüm tarixi təcrübə kimi çıxış edir.

Azadlıq bizə yalnız siyasi suverenlik qazandırmayıb, bu həm də düşüncə azadlığı, söz haqqı, milli kimlik və tarixi yaddaşın bərpası deməkdir. Onu qorumaq üçün gənclərin tarixi bilmək, onu dərk etmək, sual vermək və nəticə çıxarmaq bacarığına sahib olması vacibdir.

Bu faciənin əsl mahiyyəti anım mərasimlərində, gündəlik davranışlarda, vətəndaş mövqeyində, ədalətsizliyə qarşı münasibətdə və milli məsuliyyət hissində yaşamalıdır. Əgər 20 Yanvar faciəsi sadəcə matəm rəmzi kimi qəbul edilərsə, onun verdiyi dərs də yarımçıq qalar. O həm də cəsarət, birlik və haqq uğrunda mübarizə dərsidir.

20 Yanvar faciəsini milli özünüdərk prosesinin kulminasiya nöqtələrindən biri kimi anlamaq gənclərin vətəndaş kimliyinin formalaşmasında mühüm rol oynayır. O gecə küçələrə çıxan insanlar həm sovet tanklarına qarşı, həm də illərlə formalaşdırılmış qorxu hissinə, susqunluğa və siyasi laqeydliyə qarşı mübarizə aparırdılar. Bu mənada 20 Yanvar faciəsi mənəvi oyanışın simvoludur.

Bu günün gənci üçün azadlıq artıq gündəlik həyatın ayrılmaz və təbii tərkib hissəsi kimi qəbul olunur. Sərbəst fikir bildirmək, milli rəmzlərə sahib çıxmaq və müstəqil dövlətin vətəndaşı olmaq gənc nəslin dünyagörüşündə fundamental dəyərlər kimi formalaşıb. Bu reallıq, əslində, 20 Yanvar kimi tarixi hadisələrin nəticəsi olaraq əldə edilən azadlığın gənclərin həyatında normaya çevrildiyini göstərir. Tarixi yaddaşın canlı saxlanılması isə bu nəslə həmin hüquqların hansı çətinliklər və qurbanlar bahasına qazanıldığını daha dərindən anlamaq imkanı yaradır. Gənclər bu tarixi təcrübəni nə qədər şüurlu şəkildə dərk edərsə, müstəqil dövlətçilik anlayışı da onlar üçün bir o qədər dəyərli, qorunmalı və məsuliyyətlə yaşadılan mənəvi prinsiplərə çevrilir.

Eyni zamanda 20 Yanvar hadisələrinə hüquqi və siyasi qiymətin verilməsi məsələsi də bu günün düşünən gənci üçün aktualdır. Ümummilli Lider Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyində verdiyi bəyanat sovet rəhbərliyinin cinayətkar mahiyyətini açıq şəkildə ifşa edən ən cəsarətli siyasi mövqedir. 1994-cü ildə faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Bu fakt gənclərə göstərir ki, tarixi ədalət zaman tələb etsə də, bu, məhz prinsipial mövqe və siyasi iradə ilə bərpa oluna bilər.

Tarix düşüncədə və ictimai şüurda yaşadıqda real ictimai dəyərə çevrilir. Gənclər bu tarixi hadisəni həm keçmişin ağrılı xatirəsi kimi, həm də fəal vətəndaş mövqeyinin, milli həmrəyliyin və azadlıq ideyasının davamlılığı üçün ilham mənbəyi kimi qəbul edirlər. Azadlığın qiymətini dərk etmək isə onu qorumaq üçün gündəlik həyatda şüurlu mövqe nümayiş etdirmək deməkdir. Bu mövqe vicdan, tarixi yaddaş və gələcəyə qarşı məsuliyyət hissi ilə formalaşaraq müasir gəncliyin milli və vətəndaş kimliyinin əsas sütunlarından birinə çevrilir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

**Milli azadlıq uğrunda mübarizə yolunda baş verən tarixi hadisələr yaradıcı insanların hər zaman müraciət etdiyi mövzulardandır. "Kitabi-Dədə Qorqud"dan, Koroğludan, Nizamidən, Füzulidən, Qətran Təbrizidən üzü bəri nəsrdə, poeziyada, hətta musiqi və rəssamlıqda buna dair onlarca nümunə göstərmək mümkündür.**

# Yazarlarımızın qələmində əbədiləşən 20 Yanvar

Tarixdə baş verən ictimai-siyası hadisələri və digər fəlakətləri xalq necə yaşayıbsa, yaradıcı insanlar həmin hadisələri bədii ifadə vasitələri ilə gələcək nəsillərə olduğu kimi çatdırmağa çalışıblar. Bu mənada ötən əsrdə, yəni 36 il öncə - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının əli ilə Azərbaycan xalqının müstəqillik arzusunu boğmaq məqsədilə törədilən qətliam xalqımızın qan yaddaşından heç vaxt silinməyən və qələm sahiblərimizin hər zaman müraciət etdiyi mövzulardandır.

Qürur və ürək ağrısı ilə qeyd etdiyimiz 20 Yanvar faciəsi - Bakının qan gölünə çevrilməsi Azərbaycan ədəbiyyatında istər nəsrdə, istərsə də poeziyada zaman keçdikcə daha qabarıq görünür. O müdhiş şənbə gecəsində dinc əhalinin, günahsız insanların qanlarına qəltan edilməsinə fərman verənlər nifrətlə xatırlanır, yaşından və cinsindən asılı olmayaraq şəhidlik zirvəsinə yüksələn azad ruhlu insanlar ehtiramla anılır. Bu Qanlı Yanvar gecəsinə 36 illik zaman məsafəsindən baxanda o günlərin müdhişliyi, vahiməliyi ilə yanaşı, insanların yenilməzliyinin, azadlıq səsinin imperiya cəlladları tərəfindən batırıla bilməyəcəyinin şahidi olursan. Xalqımız öz azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə meydanlarında mətinlik və əyilməzlik göstərib, tanklar, zirehli texnika və müasir silahlarla təchiz edilmiş əksəriyyəti ermənilərdən ibarət sovet qoşunları ilə əliyalın mübarizəyə çıxmaqla bu yolda şəhid olmaqdan belə çəkinməyib. Paytaxtın ən uca yerində yerləşən Şəhidlər xiyabanının ziyarət məkanına çevrilməsi də məhz inamdan irəli gəlir.

O müdhiş şənbə gecəsinin reallıqları Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Qabilin, Nəbi Xəzrinin, Anarın, Çingiz Abdullayevin, Fikrət Qocanın, Cabir Novruzun, Xəlil Rza Ulutürkün, Mədinə Gülgünün, Mirvarid Dilbazinin, Məmməd Aslanın, Tofiq Mütəllibovun, Şahmar Əkbərzadənin, Nüsrət Kəsəmənlinin, Musa Ələkbərlinin, Musa Urudun, Kəmalə Abıyevanın, Rafiq Səməndərin (adı unudulanlar bizi bağışlasın) və digər vətənpərvər söz və qələm adamlarının elegiyalarında, etiraz ruhlu şeirlərində və püblisistik əsərlərində boy verib boylanmış, dağı-daşı yandırmışdır. Yazıçı-dramaturq Tamara Vəliyevanın Yanvar hadisələrindən bəhs edən "Mənim ağ göyərçinim" tamaşası 1999-cu ildən müxtəlif dövlət teatrlarında səhnələşdirilmişdir.







Hər kəsə məlumdur ki, bu faciə baş verdikdən sonra şairlərimiz, yazıçılarımız qələmə sarılaraq xalqımızın fəryadını dünyaya car çəkmişlər. Şəhidlər xiyabanını al-qırmızıya bələyən qərənfillər Məmməd Aslanın qələmində ağlamış, qərənfil yağışlı, matəm baxışlı misralar anaların ağısına, fəryadına qarışmışdır.

Bu fəryada o gecədən şəhidlərimizin anası obrazına çevrilən Xalq yazıçısı Əzizə Cəfərzadənin dilindən qopan ağı-bayatılar ürəkləri sızlatmışdır... "Sən məni dəryaz kimi biç, nə qədər bacarırsan biç, amma mənim şəhidlərimin qanı torpağa toxum kimi düşüb. Hər yerdən boy verib cücərəcək". Qabilin "Mərsiyə"si, Məmməd Aslanın "Ağla, qərənfil, ağla" şeiri, Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması, Nəriman Həsənzadənin "Şəhidlər xiyabanı" şeiri, Rafiq Səməndərin "Şəhidlər" kitabı və digər bu kimi əsərlər oxucuların stolüstü kıtablarına çevrilmişdir. Zəlimxan Yaqub, Nəbi Xəzri, Cabir Novruz, Xəlil Rza Ulutürk, Məmməd Araz, Sabir Rüstəmxanlı, Fikrət Qoca, Musa Yaqub, Hidayət, Sabir Əhmədli, Arif Abdullazadə, İsi Məlikzadə, Musa Ələkbərli kimi ədiblərimiz, ümumiyyətlə, bölgələrdən belə əli qələm tutan yazarlarımız davamlı olaraq 20 Yanvar faciəsindən yazmışlar. Yazmışlar ki, gələcək nəsillərimiz heç bir vaxt bu faciəni unutmasınlar.

Yaxın illər işıq üzü görən bir çox bədii və araşdırma kitabında da 20 Yanvar faciəsinin mahiyyətindən genişliyi ilə bəhs olunur. Azərbaycan Milli Kitabxanasından verilən məlumata görə, son illər Azərbaycan və rus dillərində Qanlı Yanvar hadisələri ilə bağlı onlarca nəşr kitabxanaya təqdim edilib. Yazıçı Aqil Abbasın "Dolu" romanı, şair Şamxal Rüstəmin "Şəmkir şəhidləri", jurnalist Vahid Məhərrəmovun "Qanlı gecə, qanlı tarix", Niftalı Şıxların "Dünyamızın 20 Yanvar faciəsi", Məzahir Süleymanzadənin "20 Yanvar: güllələnmiş qəzet", Mədinə Qasımovanın "Ağla, qərənfil, ağla" və "İ mertvıe pobejdayut" ("Ölülər də qalib gəlir"), Təhməz Şəmkirlinin (Əliyev) "1990-cı il Qanlı Yanvar izləri" və faciədən bəhs edən digər müəlliflərin əsərləri kitabxananın fondunda yer alıb. Filologiya elmləri doktoru Almaz Binnətova isə şəhid Ülvi Bünyadzadənin əsərlərinə ön söz və şərhlər yazaraq nəşr etdirib. Bu hadisədən bəhs edən adını qeyd etdiyimiz və qeyd edə bilmədiyimiz əsərlərin ideya qayəsinin kökündə həm də o dayanır ki, 20 Yanvar hadisələrinin təfərrüatlarını hər bir azərbaycanlı bilməlidir və unutmamalıdır.

Bədii ədəbiyyatda tarixiləşən bu qəbildən olan əsərlərin ekrana gətirilməsi Azərbaycan kino xadimlərinin də daha çox müraciət etdiyi mövzulardan olmuşdur. Kinoşünas Aydın Kazımzadənin dediyi kimi, hadisələrin baş verdiyi həmin gecə operatorlarımız bu qətliamın ən ağrılı anlarını ekranın yaddaşına köçürmüşlər. Müxtəlif illərdə lentə alınan "Azadlığa gedən yollar", "Qəsd", "Matəm", "Şəhidlərdən şəhidlərə", "Bakıda insan ovu", "Şəhidlər və qazilər", "Şəhidlik zirvəsi", "Cənubda Şimal küləyi" və digər sənədli film nümunələri 20 Yanvar faciəsinin ağrılarını yaşadan sənədli kino əsərləridir.

Bu əsərlərlə tanışlıqdan o da məlum olur ki, Azərbaycan dövləti və xalqı öz şəhidlərini heç vaxtı unutmur. 20 Yanvar hadisələri nəticəsində şəhid olmuş ailələrin sosial vəziyyəti daim dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur".

Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib. Ulu Öndərin sərəncamı ilə 1998-ci il avqustun 5-də Bakı şəhərindəki Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucaldılıb. 2010-cu ildə Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə memorial abidə kompleksi inşa olunub. Kompleksin üzərində faciə zamanı həlak olmuş 147 nəfərin adı və soyadı həkk edilib. Ölkəmizdə həmçinin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşıb.

Yazarlarımızın əbədi mövzusu olan 20 Yanvar faciəsi heç vaxt unudulmur, heç vaxt yaddan çıxmır. Hər il olduğu kimi, bu gün də qədirbilən xalqımız 20 Yanvar facəsi qurbanlarının uyuduğu müqəddəs məkana gedir, Azərbaycanı bugünkü kimi azad, müstəqil və suveren görmək arzusu ilə canlarını fəda etmiş şəhidlərimizi ehtiramla ziyarət edir, ruhlarına dualar oxuyur, məzarları üzərinə gül-çiçək dəstələri qoyurlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Peşə hazırlığı - gələcəyə hesablanmış dövlət siyasəti

**Bir vaxtlar məşğulluq anlayışı daha çox mövcud iş yerlərinin sayına və kəmiyyət göstəricilərinə söykənirdi. Bu gün isə əmək bazarının əsas çağırışı keyfiyyətli insan kapitalının formalaşdırılmasıdır. Qlobal iqtisadi proseslər, texnoloji yeniliklər və istehsal münasibətlərindəki dəyişikliklər artıq işaxtaran şəxsdən yalnız əmək qabiliyyəti deyil, çevik düşüncə, peşə bacarığı və bazar tələblərinə uyğunlaşmanı tələb edir. Bu reallıq fonunda ənənəvi məşğulluq yanaşmaları ilə müasir aktiv məşğulluq siyasəti arasında ciddi fərqlər var.**

Əgər əvvəlki dövrlərdə işsizliyin azaldılması əsasən sosial yardım mexanizmləri üzərindən həyata keçirilirdisə, bu gün dövlət siyasətinin mərkəzində insanın özünü reallaşdırması, peşə potensialının inkişafı və rəqabətqabiliyyətli işçi qüvvəsinin hazırlanması dayanır. Məhz bu baxımdan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan məşğulluq strategiyası passiv dəstək modelindən aktiv məşğulluq modelinə keçidi təmin edir. Bu model işsiz və işaxtaran şəxslərin yalnız sosial müdafiəsini deyil, eyni zamanda onların dayanıqlı gəlir mənbəyinə sahib olmasını hədəfləyir.









Aktiv məşğulluq tədbirləri sırasında peşə hazırlığı xüsusi yer tutur. Çünki əmək bazarında mövcud olan real tələbatla işaxtaranların bilik və bacarıqları arasında yaranan uyğunsuzluğun aradan qaldırılması məhz peşə hazırlığı mexanizmləri vasitəsilə mümkündür. Bir tərəfdən işəgötürənlərin konkret ixtisaslar üzrə tələbləri öyrənilir, digər tərəfdən isə işsiz və işaxtaran şəxslərin potensialı həmin tələblərə uyğun şəkildə formalaşdırılır. Bu yanaşma əvvəlki illərdə tətbiq edilən ümumi və nəticəsiz kurslardan fərqli olaraq, birbaşa məşğulluğa yönəlmiş məqsədli hazırlıq modelini ortaya qoyur.

Beləliklə, məşğulluq siyasətində kəmiyyətin keyfiyyətlə əvəzlənməsi, sosial yardımın isə bacarıq və biliklə tamamlanması dövlətin insan amilinə verdiyi önəmin ən real nümunəsidir. Bu prosesdə peşə hazırlığı təkcə əmək bazarına uyğunlaşma vasitəsi deyil, eyni zamanda sosial rifahın, iqtisadi dayanıqlığın və cəmiyyətin inkişafının əsas dayaqlarından biridir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Məşğulluq Agentliyi (DMA) nəzdində fəaliyyət göstərən 4 peşə hazırlığı mərkəzində (Bakı, Gəncə, Göyçay və Qarabağ), eləcə də Naxçıvan və digər dövlət və özəl peşə hazırlığı müəssisələrində sifariş əsasında əmək bazarı üçün işçi qüvvəsinin hazırlanması həyata keçirilir. Yazını hazırlayarkən Dövlət Məşğulluq Agentliyinin Peşə Hazırlığı Departamentində olduq. Departamentin müdiri Namiq Məmmədov bildirdi ki, ümumilikdə 2025-ci ildə DMA vasitəsilə 18 min nəfərdən artıq işsiz və işaxtaran vətəndaş peşə hazırlığına cəlb edilib. Məzun olmuş şəxslərdən 61,4 faiz işlə təmin olunub. Departament rəhbəri onu da qeyd etdi ki, agentlik tərəfindən təşkil edilən peşə hazırlığı kurslarına müxtəlif yaş və təhsil qrupları, həmçinin həssas kateqoriyadan olan insanlar cəlb edilir.

Bu gün əmək bazarında tələblər çox sürətlə dəyişir və vətəndaşlarımız bu dəyişikliyə çevik reaksiya verməlidirlər, əks halda onların məşğulluğunun təmin edilməsi çətinləşir. N.Məmmədov bildirdi ki, 2025-ci ildə 3700-ə yaxın ali təhsilli müdavim peşə hazırlığına cəlb edilmişdir. Bundan əlavə, 1000 nəfərə yaxın sadəcə ibtidai təhsili olan vətəndaş bu kurslara yazılaraq müəyyən peşələrə sahib olmuşlar. "Həmin kateqoriyadan olan vətəndaşların əmək bazarına inteqrasiyasını təşkil etmək elə də asan deyil, çünki müasir dövrdə süni intellekt, texnoloji yeniliklər və robotlaşma əl əməyindən, yaxud fiziki olaraq istehsal prosesində insanın iştirakını məhdudlaşdırır və belə şəraitdə həmin vətəndaşlara yeni istehsal və xidmət sahələri üzrə müvafiq bacarıqlar aşılamaqla yanaşı, onların müəyyən qədər texnoloji biliklərinin də artırılması üçün əlavə tədbirlər həyata keçirilməlidir. Və yalnız bundan sonra bu vətəndaşlar əmək bazarında rəqabətli ola bilirlər", - deyə həmsöhbətimiz qeyd etdi.

Agentlik peşə hazırlığı dövründə əmək bazarının strukturunda baş verən dəyişikliklər zamanı yeni bilik və bacarıqların mənimsənilməsi zərurətini nəzərə alaraq çevik və dəyişən prinsiplə fəaliyyət göstərir, xüsusən orta və yuxarı yaşlı əhalinin əmək bazarında dayanıqlı qalması üçün əlavə tədbirlər həyata keçirir. Bu məqamda faktlara müraciət etmək yerinə düşər: 2025-ci ildə peşə hazırlığına cəlb edilən 18 mindən çox vətəndaş arasında 9475 nəfəri 15-29, 7700 nəfərdən artıq vətəndaş 30-50, 1130 nəfəri 50-64 yaş arasında olub. Həmçinin əlilliyi olan 500-ə yaxın şəxsin peşə hazırlığına cəlb edilməsi, 300-dən artıq müharibə veteranının, cəzaçəkmə müəssisəsindən azad olunan 50-dən çox vətəndaşın peşə hazırlığına cəlb edilməsini də nəzərə alsaq deyə bilərik ki, bu, 2025-ci il üçün uğurlu nəticədir. Ümumiyyətlə, ötən il agentliyin peşə hazırlığı müəssisələrində 85 ixtisas üzrə kadr hazırlığı aparılıb.

Bu gün gənclər arasında informasiya texnologiyaları (İT) üzrə peşələrə maraq gündən-günə artır. Təbii ki, agentlik bunu da nəzərə alır. Eyni zamanda "Böyük qayıdış" proqramı çərçivəsində hazırda Qarabağda yaradılan sənaye kompleksləri, azad iqtisadi zonalarda fəaliyyət göstərən müəssisələr üçün də kadr hazırlığı istiqamətində müvafiq işlər görülür. Bu prosesdə xüsusən Qarabağ Peşə Hazırlığı Mərkəzinin rolu danılmazdır. Hazırda mərkəz həm qabaqcıl təlim müəssisələri, həm də yerli işəgötürənlərlə birgə proqramlar həyata keçirir. Ümumilikdə 2025-ci ildə "Böyük qayıdış" proqramı çərçivəsində peşə hazırlığına cəlb edilən 356 məzunun əksəriyyəti işlə təmin olunub. Yeri gəlmişkən bildirək ki, bu gün agentliklə birgə həyata keçirilən təlimlərin məzunlarının 65 faizə yaxını əmək bazarında iş tapmaq imkanı qazanır.

Departamentin rəhbəri onu da qeyd etdi ki, hazırda agentliyin əsas hədəflərindən biri də qeyri-formal peşə bacarıqlarının tanınması, İT, "yaşıl enerji" və gələcəyin peşələri istiqamətində kadr hazırlığının genişləndirilməsi, regionlarda peşəkar təlim müəssisələrinin yaradılmasına dəstək verilməsi, iri işəgötürən təşkilatlarla birgə kadr hazırlığı proqramlarının həyata keçirilməsidir. 2026-cı ildə isə əsas hədəflər peşə hazırlığı sahəsində kadr hazırlığı prosesinin keyfiyyətinin yüksəldilməsi, regionlarda təlim imkanlarının genişləndirilməsi, müasir özəl peşə təlimi müəssisələri ilə birgə layihələrin həyata keçirilməsi arealını artırmaq, yeni proqramların istifadəyə verilməsi, əmək bazarının təhlili nəticəsində tələbatı yüksək olan peşələr üzrə yeni təlim proqramlarının yaradılmasıdır.

Bakı Peşə Hazırlığı Mərkəzi Dövlət Məşğulluq Agentliyinin nəzdində fəaliyyət göstərən publik hüquqi şəxsdir. Mərkəzin əsas fəaliyyəti işsiz və işaxtaran şəxslərə müvafiq bilik və bacarıq aşılamaqla qısa müddət ərzində əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanmasını həyata keçirmək və məşğulluğun təminatına dəstək verməkdir.

Bakı Peşə Hazırlığı Mərkəzində də olduq. Mərkəz ölkənin Bakı, Abşeron-Xızı, Quba-Xaçmaz, Lənkəran-Astara və Şirvan-Salyan iqtisadi rayonlarını əhatə edir. Burada regionlar üzrə işəgötürənlərin tələblərinə uyğun, işəgötürənlərin sifarişi əsasında ödənişsiz, adambaşına maliyyələşmə prinsipi əsasında peşə kursları təşkil olunur. Bu da öz növbəsində müasir iqtisadiyyatın və texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə işəgötürənlərin tələblərinə uyğun kadr hazırlığı üçün ən sürətli alətdir.

Mərkəzin direktoru Vüqar Xəlilov bizimlə söhbət zamanı qeyd etdi ki, peşə hazırlığına cəlb olunmaq istəyən şəxslər yaşadıqları ərazi üzrə məşğulluq filiallarına və ya DOST mərkəzlərinə yaxınlaşmaqla qeydiyyatdan keçirlər: "Burada karyera məsləhətçiləri tərəfindən şəxsin məşğulluq imkanları qiymətləndirilir və peşə hazırlığına uyğun tədbir müəyyənləşərsə, peşə seçiminə dəstək göstərilir. Peşəyə cəlb olunacaq şəxslərin müvafiq ixtisaslar üzrə nəzəri və praktiki olaraq hazırlanması məqsədilə əmək bazarının tələblərinə uyğun təlimçilər cəlb edilir. Tədris müddətində müdavimlərə təqaüd ödənilir. Tədris müddəti başa çatdıqdan sonra isə iştirakçıların bilik və bacarıqları imtahan vasitəsilə qiymətləndirilir. Yekun qiymətləndirmə imtahanından uğurla keçən şəxslərə sertifikat təqdim edilir və onların işlə təmin olunmasına dəstək göstərilir".

Öyrəndik ki, daha çox tərəfdaşları proseslərə cəlb etmək üçün Bakı və regionlarda işəgötürənlərlə görüşlər keçirilir, "dəyirmi masa"lar, yarmarkalar təşkil olunur, mərkəzin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilir. Bu görüşlər vasitəsilə müəssisələrin kadr ehtiyacı müəyyənləşdirilir və buna uyğun peşə kurslarının təşkili istiqamətində əməkdaşlıq edilir. Artıq bir sıra dövlət qurumları və özəl sektora daxil olan yüksək reytinqli şirkətlərlə birgə fəaliyyət barəsində razılaşmalar əldə olunub.

Mərkəz tərəfindən mütəmadi olaraq əmək bazarının aktual istiqamətlərinə uyğun olaraq 175 peşə-ixtisas sahəsi üzrə peşə kurslarının tədrisi həyata keçirilir. Bu siyahının təkmilləşdirilməsi məqsədilə işəgötürənlərin də tələbləri nəzərə alınmaqla müasir əmək bazarının təhlili aparılır, yeni ixtisaslarla bağlı təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim olunur. Söhbət zamanı V.Xəlilov vurğuladı ki, ötən il mərkəz tərəfindən ümumilikdə 313 peşə hazırlığı kursu təşkil olunub. Kurslara 3453 işsiz və işaxtaran şəxs cəlb edilib. Araşdırma zamanı müəyyənləşib ki, ötən illər ən çox ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi-xəzinədar, bərbər-vizajist-manikürçü, kompüter operatoru, mühasib, dərzi, tikiş avadanlıqlarının operatoru, dərzi, qeydiyyatçı, insan resursları mütəxəssisi, ofisiant, sığorta agenti üzrə kadrlara əmək bazarında daha çox tələbat olub.

Bu məqamda bir məsələyə də xüsusi diqqət yetirmək yerinə düşər. Bakı Peşə Hazırlığı Mərkəzində sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlara dəstək məqsədilə xüsusi hazırlanmış proqram əsasında kurslar təşkil edilir. Məsələn, 2025-ci ildə mərkəzdə Azərbaycan Gözdən Əlillər Cəmiyyəti İctimai Birliyi ilə birgə kompüter operatoru peşəsi üzrə iki peşə kursu təşkil olunub.

Fürsətdən istifadə edib kurslara cəlb olunan müdavimlərlə söhbət etdik. Nərgiz Cəfərova deyir ki, Bakının Nəsimi rayonunda yaşayır: "Hələ kiçik yaşlarımdan qənnadçılıq sahəsinə marağım olub. Özüm fərdi qaydada müəyyən şirniyyat məhsulları bişirsəm də, peşəkarlığım yox idi. DOST mərkəzinə müraciət etdim. Artıq bir aydır ki, kursa cəlb olunmuşam. Burada ixtisaslı və təcrübəli mütəxəssislər bizi istehsala hazırlayırlar. Əminik ki, buranı bitirdikdən sonra işsiz qalmayacağıq. Hələ peşə hazırlığım davam edir. Bu işin digər üstün tərəfi də odur ki, peşə hazırlığı keçdiyimiz müddətdə bizə təqaüd də verilir. Bütün bunlara görə dövlətimizə minnətdarlığımı bildirirəm".

Aytac Əhmədova Biləcəri qəsəbəsində yaşadığını dedi: "Sentyabr ayında peşə hazırlığı üçün DOST mərkəzinə müraciət etdim. Dekabr ayında məni təlimə çağırdılar. Burada kremli qənnadı məhsullarının, tort və mayalı xəmirin hazırlanmasını nəzəri cəhətdən öyrənirik. Yaxın günlərdə "Azcake" şirkətində praktiki işə cəlb olunacağıq. Ümidvaram ki, peşəmə yaxşı yiyələndiyim üçün işlə təminatımda da problem olmayacaq".

Yasamal rayonunda yaşayan Elnarə Əliyeva deyir ki, peşə hazırlığına cəlb olunmazdan əvvəl müsahibədən keçib: "Bizimlə fərdi qaydada söhbət aparıldı. Hansı sahədə məşğul olmaq arzumuz və müəyyən qədər təcrübəmizin olub-olmaması barədə məlumatlar öyrənildi. Məmnunam ki, peşə hazırlığına cəlb olunmuşam. Həftədə bir dəfə nəzəri kurslar, dörd gün isə praktik işlə məşğul oluruq. "Azcake" qənnadı şirkəti hazırlığımız üçün maddi vəsait xərcləyir. Bu da bizə göstərilən etimaddır. Yanvarın 23-dən "Azcake" şirkətinin şirniyyat sexlərində Şərq şirniyyatının, tort və digər qənnadı məhsullarının hazırlanmasını öyrənəcəyik".

Nəticə etibarilə müasir dövrdə məşğulluq anlayışı artıq sadəcə statistik göstəricilərlə ölçülmür, onun arxasında insan taleyi, peşə seçimi, özünüreallaşdırma və sosial rifah dayanır. Dövlət Məşğulluq Agentliyinin həyata keçirdiyi peşə hazırlığı proqramları sübut edir ki, düzgün planlaşdırılmış və əmək bazarının real tələblərinə söykənən aktiv məşğulluq siyasəti həm fərdin həyatında dönüş yaradır, həm də ölkənin iqtisadi inkişafına dayanıqlı töhfə verir. Bu model insanı sosial yardımın passiv obyekti kimi deyil, bilik və bacarığı ilə dəyər yaradan aktiv subyekt kimi formalaşdırır. Məhz buna görə də peşə hazırlığı təkcə məşğulluq aləti deyil, gələcəyə hesablanmış düşünülmüş dövlət siyasətinin, insan kapitalına verilən dəyərin və sosial ədalətin ən real ifadəsidir.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# “Bakı Marafonu 2026”ya qeydiyyat başlayıb

**Dünəndən "Bakı Marafonu 2026"ya qeydiyyat başlayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2016-cı ildən ənənəvi təşkil edilən marafonda əsas yenilik isə odur ki, yarış yarımarafon deyil, ilk dəfə 42 kilometr məsafədə tam marafon olaraq və fərqli marşrutda keçiriləcək.**




AZƏRTAC xəbər verir ki, Bakı Marafonu mayın 3-də saat 10-da Dövlət Bayrağı Meydanından start götürəcək, finiş xətti isə "Sea Breeze" ərazisində olacaq.

IX Bakı Marafonunun marşrutu: Dövlət Bayrağı Meydanı - Dənizkənarı bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ Şəhər bulvarı - 8 Noyabr prospekti - Yusif Səfərov küçəsi - Heydər Əliyev prospekti - Böyük İpək yolu küçəsi - Müzəffər Nərimanov küçəsi - Ziya Bünyadov prospekti - Böyükşor-Pirşağı yolu - Bilgəh-Pirşağı şosesi - "Sea Breeze".

Marafonda iştirak etmək istəyən şəxslər aprelin 25-dək www.marathon.az saytı vasitəsilə, həmçinin "28 Mall", "Dəniz Mall" və "Gənclik Mall" ticarət mərkəzlərindəki məntəqələrdə ödənişli qaydada qeydiyyatdan keçə bilərlər. Tələbələr üçün isə qeydiyyat pulsuzdur.

"Azercell"in baş sponsorluğu ilə keçiriləcək "Bakı Marafonu 2026"da kişi və qadın iştirakçılar ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Hər iki kateqoriyada qaliblər pul mükafatı və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaqlar.

Birinci yerin qalibinə 6.000 AZN, ikinci yerin sahibinə 4.000 AZN, üçüncü yerin sahibinə isə 2.000 AZN mükafat təqdim olunacaq. Digər nominasiyalar üzrə də mükafatlar nəzərdə tutulub.

# Ağdamın əsas mədəni-turizm məkanı - "İmarət" Tarix-Memarlıq Muzey Kompleksi

















**Ağdam şəhərindəki "İmarət" kompleksi Qarabağın ən mühüm tarixi-memarlıq abidələrindəndir. Ərazisi 3,3 hektar olan kompleks Qarabağ xanlığının banisi Pənahəli xanın sarayı və digər tarixi tikililər, türbələr, tarixi qəbiristanlıq, Qarabağ atlarının təqdimatı üçün atçılıq kompleksindən ibarətdir.**

Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş İbrahimxəlil xanın, onun oğlu, Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı, görkəmli şair, rəssam Xurşidbanu Natəvanın məzarları "İmarət" kompleksində yerləşir.

"İmarət" Tarix-Memarlıq Muzey Kompleksinin şöbə müdiri Aynurə Cəfərova AZƏRTAC-a bildirib ki, işğalda olmuş ərazilərdəki digər tarixi-mədəni və dini abidələr kimi, Pənahəli xanın imarəti, ərazidəki türbələr və tarixi qəbiristanlıq da ermənilər tərəfindən vandalizmə məruz qalıb. Torpaqlarımız işğaldan azad edildikdən sonra Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2023-2024-cü illərdə Ağdam "İmarət" kompleksində yerli və xarici mütəxəssislərin iştirakı ilə bərpa və arxeoloji tədqiqat işləri həyata keçirilib: "Tədqiqat işləri zamanı burada 213 müsəlman qəbri aşkar olunub. Onlardan 18-i xan ailəsinə mənsub olan beş türbənin daxilindədir ki, həmin türbələrdə Cavanşirlər sülaləsinin nümayəndələri dəfn olunub. 195 qəbirdən 187-si torpaq tipli, 8 qəbir isə sərdabə tiplidir".

Aynurə Cəfərova bildirib ki, "İmarət" kompleksi rayona gələn qonaqların ən çox ziyarət etdikləri məkanlardandır. Muzey Kompleksinin ziyarətçilərinə türbələr və digər tikililər, eləcə də ərazidəki qəbiristanlıq, Xurşidbanu Natəvanın qəbirüstü abidəsi barədə məlumat verilir. Ziyarətçilər "İmarət" kompleksinin işğaldan əvvəlki vəziyyəti, işğal dövrü və azad olunandan sonra burada həyata keçirilən bərpa işləri barədə də maraqlanırlar.

İnteraktiv muzey kompleksində müxtəlif zamanlarda Cavanşirlər sülaləsinə həsr olunmuş məlumatlar, Qarabağ xanlığı haqqında tarixi faktlar, Xurşidbanu Natəvanın əl işlərinə və poemalarına həsr olunmuş audiovizual təqdimat, "İmarət" kompleksinin işğal dövründə və işğaldan azad olunduqdan sonrakı vəziyyətini əks etdirən fotomateriallar nümayiş olunur. "İmarət" kompleksi Ağdamın əsas turizm məkanlarından biri kimi regionun mədəni və tarixi potensialını əks etdirir. Kompleks ziyarətçilərə Qarabağın zəngin tarixini, memarlıq ənənələrini və mədəni irsini yaxından tanımaq imkanı yaradır. Ziyarətçilər Ağdamın tarixi yaddaşını və mədəni irsini özündə yaşadan məkanlardan olan "İmarət" kompleksindən yüksək təəssüratlarla ayrılırlar.

# Azərbaycanın turizm imkanları Avstriyada təbliğ olunub

**Azərbaycanın turizm potensialı yanvarın 15-dən 18-dək Avstriyanın paytaxtı Vyana şəhərində keçirilən "Ferien-Messe Wien" turizm sərgisində nümayiş etdirilib.**




Bu barədə AZƏRTAC-a Dövlət Turizm Agentliyindən məlumat verilib.

Bildirilib ki, sərgidə Azərbaycan Turizm Bürosu Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzi və "Dreamland Baku" ilə birgə təmsil olunub.

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli milli stendə baş çəkərək nümayiş olunan turizm məhsulları ilə tanış olub.

Tədbir çərçivəsində tanınmış avstriyalı jurnalist Kladius Rayxıl Azərbaycanın turizm potensialı haqqında təqdimatla çıxış edib. Qeyd edək ki, 2025-ci il ərzində Avstriyadan Azərbaycana səfər edənlərin sayında 2024-cü illə müqayisədə 6 faiz artım müşahidə olunub.

# İqtisadiyyat və sosial həyat

## Azərbaycan qazı inamla Qərbə doğru irəliləyir

**Artıq Almaniya və Avstriya da Azərbaycan qazı alırlar. Bu aydan başlanan nəql hər iki ölkəyə İtaliya üzərindən həyata keçirilir. Bununla da Azərbaycan qazının ixrac coğrafiyası daha da genişləndirilir.**

SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) bu barədə yaydığı məlumatda bildirib ki, "Cənub qaz dəhlizi"nin Avropa qolu olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) vasitəsilə nəql edilən əhəmiyyətli həcmdə qazın Cənubi və Mərkəzi Avropa bazarlarına satışı həyata keçirilərək Azərbaycanın qaz ixracında növbəti mühüm mərhələ başlanıb.

Beləliklə, Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı 16-ya çatıb. Bunların hansı ölkələr olduğunu bir daha xatırladaq: Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya.

Azərbaycandan qaz idxal edən ölkələrin sırasına daha ikisinin qoşulacağı barədə müjdəni Prezident İlham Əliyev hələ iki həftə əvvəl yerli televiziya kanallarına müsahibəsində vermişdi: "Elə ölkələr var ki, onlar 2024-cü ildə bizdən qaz əldə edib, lakin sonra başqa mənbələrlə əlaqədar dayandırıb. Bu bir növ tələbata əsaslanır, onların ehtiyacı olanda biz təchizata başlayırıq, ehtiyacı olmayanda dayandırırıq. Lakin ümumilikdə Azərbaycanın boru kəməri vasitəsilə qaz nəqlinin coğrafi əhatə dairəsi 14 ölkədən ibarətdir. Bu il onlara daha iki Avropa ölkəsi əlavə olunacaq. Ümumilikdə 16 ölkə olacaq, bu, boru kəməri qazı ilə bağlı ən böyük rəqəmdir. Dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə qazla təchiz etmir. Ötən il bizim ixracımız artım potensialına malik olmaqla, 25 milyard kubmetrdən çox olub".



Azərbaycanın qazla təchiz etməyə başladığı hər iki ölkədə bu addım Avropanın enerji təhlükəsizliyi baxımından mühüm hadisə kimi qiymətləndirilir, Avropanın Rusiyadan enerji asılılığının azaldılması strategiyasına töhfə olduğu vurğulanır. Almaniyanın bir sıra aparıcı nəşrləri, o cümlədən "Spiegel", "Handelsblatt" və "Berliner Zeitung" qəzetləri bu barədə yazılar dərc edib. Alman nəşrləri bildirir ki, Rusiyanın Ukraynaya hücumundan sonra 2022-ci ilin yayında Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri zamanı "Cənub qaz dəhlizi" vasitəsilə qaz tədarükünün artırılması barədə razılığın əldə edilməsi Avropanın Rusiyadan asılılığının azaldılması baxımından mühüm addım oldu.

Nəşrlər həmçinin yazırlar ki, Azərbaycandan Almaniyaya və Avstriyaya qazın tədarükü "Cənub qaz dəhlizi"nin ayrılmaz seqmenti olan TAP kəməri ilə həyata keçirilir. Qaz Yunanıstan və Albaniya ərazisindən keçərək Cənubi İtaliyaya çatdırılır, oradan isə Avstriya və Almaniyaya ötürülür. Bu iki yeni bazarın əlavə olunması ilə Azərbaycan qazını idxal edən ölkələrin sayının 16-ya çatdığı vurğulanır.

"Spiegel"də yayımlanan məqalədə əsas diqqət uzunmüddətli enerji əməkdaşlığına və sabit tədarük həcminə yönəlib, Almaniya bazarında Azərbaycan qazının strateji rolu xüsusi qeyd olunur. Almaniyaya qaz tədarükünün ticarət və uzunmüddətli müqavilələr baxımından əhəmiyyəti olduğu, SOCAR ilə SEFE arasında illik 1,5 milyard kubmetr qazın tədarükünü nəzərdə tutan onillik müqavilənin imzalandığı bildirilir. Nəşr həmçinin vurğulayır ki, Azərbaycanın Avropaya qaz ixracının ümumi həcminin 2025-ci ildə 12,8 milyard kubmetr təşkil etməsi bu ölkənin Avropa bazarında güclü mövqeyini göstərir. Eyni zamanda deyilir ki, ixracın daha da artırılması investisiyalardan və boru kəmərlərinin ötürmə qabiliyyətinin genişləndirilməsindən asılıdır.

Almaniyada iqtisadiyyat sahəsində ən mühüm nəşr kimi tanınan "Handelsblatt" qəzeti bu məsələyə enerji siyasəti prizmasından yanaşıb. Qeyd edib ki, Azərbaycan qazı Avropanın təbii qaz idxalının şaxələndirilməsi strategiyasında əhəmiyyətli rol oynayır. Almaniya hökumətinin Rusiyadan asılılığı azaltmaq strategiyası çərçivəsində Azərbaycan qazının idxalına başlanması önəm daşıyır. Azərbaycan qazının Avropada mövqeyinin güclənməsi həm Almaniya, həm də ümumilikdə Avropa üçün enerji təhlükəsizliyinin təminatına xidmət edir.

"Berliner Zeitung" qəzetinin dərc etdiyi məqalə isə Azərbaycan qazının Avropa infrastrukturu ilə inteqrasiyasına və TAP-ın strateji roluna diqqət çəkir. Yazıda xatırladılır ki, Almaniya bazarına rəsmi çıxış ilk dəfədir həyata keçirilir və TAP Avropanın enerji təhlükəsizliyi üçün strateji xətt rolunu oynayır. Qaz mövcud ötürücü şəbəkə vasitəsilə çevik şəkildə müxtəlif bazarlara yönləndirilir, bu da enerji təchizatının etibarlılığını artırır.

Daha iki Avropa ölkəsinin Azərbaycandan qaz idxal etməsi Prezident İlham Əliyevin enerji siyasətinin növbəti uğurudur. Bu münasibətlə SOCAR bəyan edib ki, dövlət başçısının rəhbərliyi ilə formalaşdırılmış qaz strategiyasına uyğun olaraq, Avropa və Yaxın Şərq regionlarında qaz marketinqi fəaliyyətini davamlı şəkildə genişləndirir. Müxtəlif ölkələrdən olan alıcılarla əməkdaşlıq portfelini artırır və Azərbaycanın etibarlı enerji təchizatçısı kimi mövqeyini daha da möhkəmləndirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

### Ötən ilin uğurlu yekunları

## Qeyri-neft-qaz sektorunda məhsul istehsalı 5,5 faiz artıb

**Dünyada baş verən gərgin geosiyasi proseslər qlobal iqtisadiyyata mənfi təsir göstərməkdə davam edir. Azərbaycan iqtisadiyyatı da dünya iqtisadiyyatına inteqrasiya olduğu üçün bu prosesdən kənarda qalmır. Xüsusən enerji resurslarının qiymətlərinin qlobal bazardakı qeyri-sabitliyinin təsirləri ölkəmizdən yan keçmir.**



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən il neft-qaz sektorunda məhsul istehsalı 2, həmin sektorda əlavə dəyər isə 1,6 faiz azalıb. Belə tendensiya ilk növbədə dünya bazarında qeyd etdiyimiz proseslərlə bağlıdır. Bununla yanaşı, istehsalın həcminin azalmasını da unutmaq olmaz. Prezident İlham Əliyevin neftin hasilatının sabitləşdirilməsi üçün müvafiq qurumlara göstəriş verməsi təsadüfi deyil.

Əvəzində qeyri-neft sektorumuz bu boşluğu doldurmaq imkanındadır. Biz bunu ötən ilin yekununa aid statistik rəqəmlərdən aydın görürük. 2024-cü illə müqayisədə 2025-ci ildə qeyri-neft-qaz sektorunda artım müşahidə olunub. Belə ki, ötən il qeyri-neft-qaz sektorunda məhsul istehsalı 5,5, əlavə dəyər isə 2,7 faiz artıb.

ÜDM-dən söz düşmüşkən, Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə görə, 2025-ci ildə ölkə üzrə 129,1 milyard manatlıq və ya keçən illə müqayisədə 1,4 faiz çox ümumi daxili məhsul istehsal olunub. ÜDM istehsalının 33 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,5 faizi tikinti, 5,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi informasiya və rabitə, 21,7 faizi digər sahələrin hesabına formalaşıb. Bu müddətdə məhsul və idxal üzrə xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə isə 12602,2 manat əlavə dəyər düşüb.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ildə 63,1 milyard manatlıq məhsul istehsal edilib. Sənaye məhsullarının 59,6 faizi mədənçıxarma, 33,9 faizi emal, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,8 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 0,7 faiz artıb. Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 86,3, ağacın emalı və ağacdan məmulatların istehsalı 57, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 31,1, toxuculuq sənayesi məhsullarının istehsalı 24,5, rezin və plastik kütlə məmulatlarının istehsalı 16,1, tütün məmulatlarının istehsalı 14,4, neft məhsullarının istehsalı 13,7, qida məhsullarının istehsalı 9,1, kimya sənayesi məhsullarının istehsalı 5,2, kompüter, elektron və optik məhsulların istehsalı 2,8, içkilərin istehsalı 0,5 faiz artıb. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınıb - müvafiq olaraq 0,3 və 2,5 faiz.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Keçən il pensiya ödənişlərinə 7,1 milyard manatdan çox vəsait yönəldilib

**2025-ci ildə pensiya ödənişlərinə əvvəlki ilə nisbətən 9 faiz (616 milyon manat) çox olmaqla 7 milyard 111 milyon manat vəsait yönəldilib.**

Keçən ilin əvvəlindən bütün növ pensiyalar 8,1 faiz indeksləşdirilərək artırılıb, fevralın 1-dən isə minimum pensiya 14,3 faiz artırılaraq 280 manatdan 320 manata çatdırılıb. Pensiyaların orta aylıq məbləği 9 faiz artımla 543 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 578 manata çatıb.

Son bir ildə 41 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 178 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

### "Şəhərsalma və Memarlıq İli"

## Mingəçevir - Kür üstündə nur şəhəri

**Şəhərsalma müasir cəmiyyətin sosial, iqtisadi və ekoloji inkişafını müəyyən edən əsas amillərdən biridir. Bu baxımdan region şəhərlərinin planlaşdırılması paytaxtla müqayisədə fərqli problemlər və üstünlüklərlə xarakterizə olunur. Region şəhərlərində əhali sıxlığının nisbətən az, ərazinin isə daha geniş olması şəhərsalmanın üstünlükləri sırasında yer alır. Və bu amillər yaşayış zonaları, nəqliyyat infrastrukturu, yaşıllıq sahələrinin daha balanslı şəkildə təşkili üçün əlverişli şərait yaradır.**

Spesifik nümunə kimi Mingəçevir şəhərinin şəhərsalma xüsusiyyətləri və inkişaf potensialı maraqlıdır. Bu şəhər özünəməxsus planlaşdırma strukturu və enerjiyönümlü inkişaf modeli ilə seçilir. Mingəçevir Azərbaycanın mərkəzi hissəsində, Kür çayının sahilində yerləşən mühüm sənaye və enerji mərkəzlərindən biridir. Şəhərin coğrafi mövqeyi onun nəqliyyat əlaqələrinin formalaşmasında, sənaye potensialının inkişafında və regionlararası iqtisadi münasibətlərdə mühüm rol oynayıb. Bu şəhər Mingəçevir Su-Elektrik Stansiyasının (SES) inşası ilə əlaqədar XX əsrin ortalarından etibarən planlı şəkildə salınıb. Planlı şəhərsalma prinsiplərinə əsaslanan Mingəçevir bu gün geniş küçə və prospektləri, funksional zonalara bölünmüş əraziləri və nisbətən səliqəli məhəllə strukturu ilə seçilir. Kürün səssiz dalğaları və günəşin sular üzərində oynayan şüası şəhərə xüsusi bir füsunkarlıq bəxş edir. Mingəçevir həm dincliyi, həm də canlılığı ilə hər kəsi özünə çəkir. Burada həyatın ritmi və təbiətin harmoniyası bir-birinə qarışır.

Qeyd edək ki, Mingəçevir Azərbaycanın əhali sayı etibarilə dördüncü böyük şəhəridir və 11 noyabr 1948-ci ildə şəhər statusu alıb, 4 fevral 1954-cü ildə isə respublika tabeli şəhər kateqoriyasına keçib. Şəhər şərq, qərb və cənubdan Yevlax rayonu, şimaldan isə Mingəçevir su anbarı ilə həmsərhəddir.

"Mingəçevir" toponiminin yaranması ilə bağlı müxtəlif ehtimallar mövcuddur. Tarixi mənbələrə görə bu ad e.ə. I əsrdə Roma sərkərdəsi Pompey və alban çarı Oris arasında baş vermiş döyüşlə bağlı ola bilər. Digər ehtimallar ərəblərin Azərbaycandakı hərəkətləri, Məniçöhrün adı və ya "Min, gəl, çevril" ifadəsi ilə əlaqələndirilir. Alim Tofiq Hacıyev və Əjdər Fərzəli bu adın qədim alban və türk tayfalarının adları olan "Mik" və "Savir" sözlərindən yarandığını bildirirlər. Və zamanla "Sevit Mingə" ifadəsi "Mingəçevir" şəklinə çevrilib.

Şəhərin yaranma tarixi və funksional təyinatı onun şəhərsalma strukturuna birbaşa təsir göstərib. Mingəçevir ilkin mərhələdə sənaye və enerji şəhəri kimi formalaşıb. Sonrakı dövrlərdə isə burada yaşayış, sosial strukturlar və mədəni funksiyalar fəaliyyətə başlayıb.

Əhalinin say artımı və sənayenin inkişafı şəhərin ərazi baxımından genişlənməsinə səbəb olub. Bu proses yaşayış massivlərinin yaranması, məktəblər, səhiyyə müəssisələri, mədəniyyət və istirahət məkanlarının inşası ilə reallaşıb. Kür çayı və Mingəçevir su anbarı şəhərin ekoloji və turizm potensialının formalaşmasında mühüm amillərdən biri hesab edilir. Ona görə də şəhərsalma strategiyaları hazırlanarkən Kür və Mingəçevir su anbarlarının ekoloji balansın qorunması və turizm potensialının artırılması baxımından rolu nəzərə alınıb. Yaşayış zonaları əsasən şəhərin mərkəzi və mərkəzətrafı hissələrində formalaşıb. Bu ərazilərdə çoxmənzilli yaşayış binaları üstünlük təşkil edir. Yaşayış massivlərinin planlaşdırılmasında məhəllə prinsipi tətbiq edilib, binalar arasında açıq məkanların və yaşıllıq sahələrinin saxlanılmasına xüsusi diqqət yetirilib.

Mingəçevirdə yaşayış zonalarının sənaye ərazilərindən nisbətən uzaq məsafədə yerləşdirilməsi layihələndirmə, memarlıq və urbanizasiya baxımından böyük üstünlük hesab olunur. Bu yanaşma ekoloji tarazlığın qorunmasına, əhalinin sağlam yaşayış mühitinin təmin edilməsinə müsbət təsir göstərir. Eyni zamanda yaşayış sahələrinin əsas nəqliyyat arteriyaları ilə əlaqələndirilməsi şəhərdaxili hərəkətliliyin və əlçatanlığın artırılmasına şərait yaradır.

Mingəçevir şəhərinin formalaşması və inkişafı bilavasitə enerji infrastrukturu, xüsusilə Mingəçevir SES-in inşası ilə bağlıdır. XX əsrin ortalarında Kür çayı üzərində SES-in tikilməsi şəhərin iqtisadi funksional təyinatını müəyyən edib və onun sənaye mərkəzi kimi formalaşmasına təkan verib. Məhz bu amil Mingəçevirin şəhərsalma strukturunda enerji və sənaye zonalarının aparıcı rol oynamasına səbəb olub.



Mingəçevir şəhərində sənaye və enerji obyektlərinin mövcudluğu ekoloji nəzarətin vacibliyini artırır. Bununla belə, istehsal prosesləri nəticəsində yaranan tullantıların idarə olunması, su və hava resurslarının mühafizəsi davamlı diqqət tələb edən məsələlərdəndir. Mingəçevir SES yalnız enerji istehsalı baxımından deyil, həm də şəhərin məkan planlaşdırılmasında strateji əhəmiyyətə malikdir. Stansiyanın yerləşdiyi ərazi ətrafında sənaye zonaları formalaşıb. Belə planlaşdırma sənaye fəaliyyətinin yaşayış mühitinə mənfi təsirinin minimuma endirilməsinə və ekoloji tarazlığın qorunmasına xidmət edir. Mingəçevir su anbarı və SES şəhərin ekoloji və landşaft strukturuna da təsir göstərir. Su hövzəsinin mövcudluğu mikroiqlimin formalaşmasına, istirahət zonalarının yaranmasına və şəhərin estetik görünüşünün zənginləşməsinə imkan verir.

Bu təbii elementlər şəhər mühitinin formalaşmasında da əsas ekoloji faktorlar kimi çıxış edir. Şəhər ərazisində parklar, xiyabanlar və yaşıllıq zolaqları, parklar yaşayış zonaları ilə inteqrasiya olunmuş şəkildə planlaşdırılıb. Park və bağlar əhalinin istirahəti üçün əlverişli şərait yaratmaqla yanaşı, atmosfer havasının təmizlənməsinə, səs-küy səviyyəsinin azaldılmasına və şəhər mikroiqliminin yaxşılaşdırılmasına müsbət təsir göstərir.

İnkişaf perspektivləri baxımından Mingəçevir şəhəri üçün dayanıqlı şəhərsalma prinsiplərinin tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu gün "ağıllı şəhər" elementlərinin mərhələli şəkildə tətbiqi, yaşıllıq sahələrinin artırılması, sənaye və yaşayış zonaları arasında balansın qorunması şəhərin gələcək inkişafını təmin edə bilər. Mingəçevir su anbarının turizm potensialından daha səmərəli istifadə olunması da şəhərin sosial-iqtisadi inkişafına əlavə imkanlar yaradar.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında birgə tədbirlər planı imzalanıb

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə 2026-cı il üçün birgə tədbirlər planı imzalanıb.**

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, sənədə əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində keçiriləcək birgə tədbirlərin yeri, icra vaxtı və məsul şəxslər müəyyənləşdirilib.

Sənədin imzalanmasında əsas məqsəd hərbi qulluqçular arasında əxlaqi-mənəvi dəyərlərin təbliği, dini radikalizmə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, sağlam dünyagörüşünün formalaşdırılması və dövlət-din münasibətləri sahəsində koordinasiyanın artırılmasıdır.

Birgə tədbirlər planına uyğun olaraq, Azərbaycan Ordusunda maarifləndirici görüşlərin, seminarların, təlimlərin və digər profilaktik tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# Azərbaycan ritmini dünyada təbliğ edən sənətkar

**Yanvarın 17-də Respublika Sarayında baş tutan "Natiq - Ritmin 50 il ömrü" adlı xüsusi proqram və ritm şousu Azərbaycan musiqi tarixində əlamətdar hadisələrdən biri kimi yadda qaldı.**




O gecə təkcə bir sənət yubileyi deyildi - Azərbaycan xalqının ruhunun, döyünən ürəyinin, qəhrəmanlıq yaddaşının ritmlərlə danışdığı bir sənət bayramı idi.

Azərbaycan musiqisinin qüruru, dünya səhnələrində milli ritmimizi layiqincə təmsil edən, nağara ifaçılığı sənətində Xalq artisti fəxri adına yüksələn görkəmli və nadir ritm ustası Natiq Şirinov yarıməsrlik sənət yolunu tamaşaçı ilə birgə yaşadı. Bu proqramda ritm təkcə səs deyildi, həm də tarix, yaddaş, ruh idi.

Konsert, əslində, Natiqin və oğlu Ümidin ifaçılığı ilə Azərbaycan ritminin təqdimatı idi. Ata ilə oğulun eyni səhnədə yaratdığı sənət harmoniyası nəsildən-nəslə ötürülən musiqi ənənəsinin canlı sübutuna çevrildi.

Gecənin yaddaqalan məqamlarından biri də dünyaşöhrətli xanəndə Alim Qasımovun çıxışı oldu. Alimin səsi ilə Natiqin ritmlərinin yaratdığı ecazkar harmoniya tamaşaçılar tərəfindən böyük maraq və alqışlarla qarşılandı. Bu sintez Azərbaycan musiqisinin klassik ruhu ilə ritmik enerjisinin vəhdətini bir daha ortaya qoydu.

Xüsusi vurğulamaq lazımdır ki, Natiq Şirinov indiyədək dünyanın bir sıra ölkələrində, xüsusilə Avropada nağara ilə solo konsert verən yeganə azərbaycanlı ifaçıdır. O, milli ritmimizi qlobal musiqi dilinə çevirərək Azərbaycan mədəniyyətini dünya səhnələrində tanıdan nadir nağara ifaçısıdır.

Natiq Şirinov Azərbaycan əsgərinin qəhrəmanlıq salnaməsini ritmlərlə danışmağı bacaran sənətkardır. Onun ifasında nağara döyüntüləri bəzən səngərdən gələn ürək səsi, bəzən zəfər marşı, bəzən də xalqın içindən qopan bir haray kimi səslənir. O, xalqımızın ürəyinin döyüntüsünü duyan və bunu ritmlərə çevirib dünyaya təqdim edən nadir sənətkardır.

Gecədə bir daha sübut olundu ki, Natiq Şirinovun ritmləri zamana tabe olmur, çünki o ritmlər xalqın ruhundan yaranır. "Ritmin 50 illik ömrü" proqramı isə bu böyük sənət yolunun şərəfli və qürurverici hesabatı oldu.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Sulu qar və qar yağacaq

**Azərbaycanda yanvarın 20-nə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın soyuq və arabir yağıntılı olacağı, bəzi yerlərdə intensivləşəcəyi, sulu qara, nisbətən yüksək ərazilərdə isə qara keçəcəyi gözlənilir. Mülayim şimal küləyi arabir güclənəcək. Havanın temperaturu gecə və gündüz 0-3 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 766 millimetr civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti, dağlarda gecə 8-13, yüksək dağlıq ərazilərdə 13-18, gündüz 3-8 dərəcə şaxta olacaq. Əsasən dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurun bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 1-6 dərəcə şaxta olacağı bildirilir. Yollar buz bağlayacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygölün bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 1-6 dərəcə şaxta olacağı ehtimal edilir. Yollar buz bağlayacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanın bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 4-7, dağlıq ərazilərdə 10-15, gündüz 0-4 dərəcə şaxta olacağı bildirilir. Yollar buz bağlayacaq.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 2-7 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 1 dərəcəyədək isti müşahidə ediləcək. Yollar buz bağlayacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 1 dərəcəyədək isti, dağlarda gecə 8-13, yüksək dağlıq ərazilərdə 13-18, gündüz 3-8 dərəcə şaxta olacağı ehtimal edilir. Yollar buz bağlayacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalanın bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacağı ehtimalı var. Yollar buz bağlayacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-5, gündüz 0-2, dağlarda gecə 5-10, gündüz 0-5 dərəcə şaxta olacağı gözlənilir. Yollar buz bağlayacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Paytaxtın sənaye yükü azalır, bölgələrdə həyat daha da canlanır
Prezidentin fərmanı ilə yaradılacaq Qərb Sənaye Parkı bu prosesi sürətləndirəcək
Azərbaycanın xarici siyasəti dünyadakı reallığın diktəsi fonunda
Ötən il Azərbaycan üzərindən yüklərin daşınmasında rekord göstərici qeydə alınıb
20 Yanvar - qanla yazılmış qəhrəmanlıq səhifəsi
Azərbaycan Avstriya və Almaniyaya qaz nəqlinə başlayıb
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### ASCO-nun struktur idarələrinə tələb olunan yumşaq inventarların (yaylı döşəklər) satın alınması məqsədilə açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 yanvar 2026-cı il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


# Bəzi küçə və prospektlərdə nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulmaqla istiqamətlər dəyişdiriləcək

**20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar paytaxt Bakıda bəzi küçə və prospektlərdə nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulmaqla istiqamətlər dəyişdiriləcək.**

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, yanvarın 20-də səhər saat 08:00-dan mərasim qurtaranadək Parlament prospekti ilə kəsişən, birləşən küçələrdə avtomobillərin hərəkəti məhdudlaşdırılacaq. Hərəkətin məhdudlaşdırılması 20 Yanvar faciəsi qurbanlarının xatirəsini yad edənlərin rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə həyata keçirilir.




Bununla əlaqədar olaraq, Mikayıl Müşfiq küçəsi və Hüseyn Cavid prospektinin kəsişməsindən, Mikayıl Müşfiq dairəsi ilə Mətbuat prospektinin kəsişməsindən, Mehdi Hüseyn küçəsi, Teleteatr binasının qarşısından, İzzət Nəbiyev, Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən, yəni Milli Məclisin inzibati binasının arxa hissəsindən Parlament prospekti - Şəhidlər xiyabanı istiqamətinə bütün nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılaraq istiqamət dəyişdiriləcək.

Həmin istiqamətdə şəxsi avtomobillərdən mümkün qədər az istifadə edilməsi, ictimai nəqliyyata üstünlük verilməsi tövsiyə edilir.

# Qeydə alınan zəlzələ təkanları təhlükə yaratmır

**Yanvarın 18-də səhər saatlarında (Ağsu rayonunda) qeydə alınan zəlzələ diqqəti seysmoloji aktivlik məsələlərinə yönəldib. Zəlzələ nəticəsində yaşayış məntəqələrində yüngül hiss olunan təkanlar əhali arasında müəyyən narahatlıq yaradıb.**

Bu barədə "Azərbaycan" qəzetinə açıqlama verən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli zəlzələnin xüsusiyyətləri və onun potensial təhlükəsi barədə danışıb. O bildirib ki, zəlzələnin maqnitudası 3,8 bal, dərinliyi isə 6 kilometr təşkil edib. Zəlzələnin episentrinə yaxın yaşayış məntəqələrində onun təsiri 3-4 bala qədər hiss olunub. Mütəxəssisin sözlərinə görə, zəlzələnin sərbəst buraxdığı enerji əsasən 2,15 tam vahid olub, qalıq enerjisi isə 1,5 tam vahid təşkil edib. Hesablamalara görə, bu təkanlar yalnız hiss edilə bilib və güclü, fəlakətli zəlzələ ehtimalı yoxdur.

"Zəlzələnin əsas enerjisi artıq sərbəst buraxılıb və ondan sonra yalnız bir neçə kiçik təkan müşahidə olunub. Bu, onu göstərir ki, daha böyük və fəlakətli zəlzələ ehtimalı yoxdur", - deyə Q.Yetirmişli vurğulayıb. O əlavə edib ki, Azərbaycan seysmoloji cəhətdən aktiv bölgədə yerləşdiyindən hər il minlərlə yeraltı təkan baş verir. Ötən il ölkə ərazisində 5500-dən çox yeraltı təkan qeydə alınmış və onlardan 19-u hiss olunmuşdu.

Ekspert həmçinin bildirib ki, ölkədə baş verən zəlzələlərin çoxu hiss olunmayan səviyyədədir və əhali üçün təhlükə yaratmır: "Araşdırmalarımız göstərir ki, Azərbaycanda heç bir bölgədə 7 və daha yüksək maqnitudalı zəlzələ qeydə alınmayıb".

Qurban Yetirmişli əlavə edib ki, təbii geoloji proseslər nəticəsində yeraltı təkanların baş verməsi normal haldır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin müavini Mədət Quliyev Səfər Əbiyevə qardaşı

**RÜSTƏM ƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan şəhərindən Hüseyn Məşdi oğlu Əliyev yaxın dostu Naxçıvan Dövlət Universitetinin nəzdində Təbii Ehtiyatlar İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, kimya elmləri doktoru, professor Tofiq Abasəli oğlu Əliyevə həyat yoldaşı

**XURAMAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Maliyyə Departamentinin müdiri Əlişah Kövsərova atası

**KADİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mübariz Hümbətov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Elbrus Əhmədov, Fikrət, Rasim və Rafiq Hüseynovlar, Azad Rüstəmov, Şamo və Emin Mustafayevlər keçmiş iş yoldaşları İba Həsənova əzizi

**RAYA ƏKBƏR QIZI ALLAHVERDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mübariz Hümbətov, Mütalib Şirinov, İxtiyar Qafarov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Elbrus Əhmədov, Fikrət, Rasim və Rafiq Hüseynovlar, Azad Rüstəmov, Şamo və Emin Mustafayevlər Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşı Eldar Həmzəyevə bacısı

**RAYA ƏKBƏR QIZI ALLAHVERDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3222
Sifariş 89

Qiyməti 60 qəpik